# Xalq qəzeti

Xalqın qəzeti!

№ 136 (30540) 3 iyul 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


# Azərbaycan ən müasir gəmiqayırma ölkəsinə çevrilib



## Prezident İlham Əliyev “Zəngilan” tankerinin istismara verilməsi mərasimində

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan “Zəngilan” tankerinin istismara verilməsi mərasimində iştirak edib.**

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev Prezident İlham Əliyevə raport verdi.

Tankerə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən azad edilən əzəli və əbədi Azərbaycan torpağı Zəngilanın adı verilib.

Qırx dörd günlük Vətən müharibəsindən sonra Zəngilanda Azərbaycan Bayrağını ucaldan Prezident İlham Əliyevin indi isə üçrəngli bayrağımız altında beynəlxalq sularda üzəcək “Zəngilan” tankerinin istismara verilməsi mərasimində iştirakının çox böyük rəmzi mənası var.

“Zəngilan” Bakı gəmiqayırma zavodunda inşa olunan sayca dördüncü milli tankerdir. Bundan əvvəl istismara verilən “Laçın” və “Kəlbəcər” tankerlərindən fərqli olaraq, “Akademik Xoşbəxt Yusifzadə” tankeri kimi, “Zəngilan” ilə də həm neft, həm də kimyəvi məhsullar daşınacaq. Bakı gəmiqayırma zavodunda ASCO üçün “Zəngilan” tipli daha 3 tankerin inşası da nəzərdə tutulur. Bununla bağlı sifarişlər alınıb və müvafiq müqavilələr imzalanıb.

Tanker barədə Prezident İlham Əliyevə məlumat verən Rauf Vəliyev bildirib ki, nadir dizaynı ilə seçilən və texniki göstəricilərinə görə geniş imkanlara malik “Zəngilan”ın konsepsiyası Odessa Dəniz Mühəndisliyi Bürosu ilə uğurlu əməkdaşlıq çərçivəsində hazırlanıb. Yeni nəsil tankerin uzunluğu 141 metr, eni 16.9 metr, bortunun hündürlüyü isə 6 metrdir.

(ardı 2-ci səhifədə)

## Sözümüz və şərtimiz dəyişməzdir



Səhifə ⇨ 9

## Azərbaycan–Türkiyə birliyi: “Geosiyasi layları” tərpədən müttəfiqlik



Səhifə ⇨ 8

## Azərbaycan polisinin xidməti dövlətə və xalqa sədaqət nümunəsidir



Səhifə ⇨ 10

## Böyük Qayıdışa 16 milyard manatdan çox vəsait yönəldilib



Səhifə ⇨ 11

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası



Səhifə ⇨ 2

## Türkçülük tarixinin Mahmud Kaşğari zirvəsi




Səhifə ⇨ 14

## Bərpaolunan enerji – təbiətdən cəmiyyətə bol və saf güc axını

Səhifə ⇨ 12

# ABŞ-nin sülh təşəbbüsü: nəzərə alınanlar və alınmayanlar

## *Vaşinqtonun Bakı–İrəvan barışı ilə bağlı yanaşmasına sözardı*

**“Azərbaycan bu işdə həlledici rol oynamalıdır”. ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinken Brukinqs İnstitutunda çıxışı zamanı ölkəmizlə Ermənistan arasında sülh prosesindən söz açarkən belə deyib. Əlbəttə, cənab Blinken mövzu barədə başqa məsələləri də dilə gətirib. Məsələn, o deyib ki, hazırda Bakı və İrəvan arasında barışın imzalanmasına nail olmaq üçün müstəsna imkan var: “Bu, onilliklərdir davam edən münaqişəyə son qoyacaq və hesab edirəm ki, iqtisadi əlaqələr, iqtisadi artım, Şərq və Qərb, Cənub və Şimal ölkələri arasında əlaqələrin qurulması baxımından regionda böyük imkanlar yaradacaq”.**

A.Blinken onu da bildirib ki, ölkəsi Cənubi Qafqazda sülhün əldə edilməsi üçün fəal diplomatik səylər göstərməkdədir. ABŞ Azərbaycan və Ermənistanla bu istiqamətdə iş aparır: “Mən hesab edirəm ki, bu (sülh), indi həqiqətən əldə edilə bilər. Mən bu barədə cəmi bir həftə əvvəl Azərbaycan Prezidenti İlham Əliyevlə danışdım. Hesab edirəm ki, bu, həyata keçirilə bilər və Azərbaycan və Ermənistan xalqlarının, eləcə də bütün regionun maraqlarına tam cavab verir”.

Əslində, Blinkenin söylədiklərini onun Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O’Brayn ölkəmizə, daha əvvəl isə İrəvana səfəri zamanı daha təfərrüatlı şəkildə açıqlamışdı. Yəni, təfərrüatlar regionun gələcək faydaları üzərində səslənmişdi. İqtisadi artım, rifah və ilaxır. Aydındır ki, mövcud müstəvidə həlledici söz sahibi Azərbaycandır. Ancaq məsələnin qoyuluşu Blinkenin yazının lap əvvəlində diqqətə çatdırdığımız sitatdakı kimidir?

Bəli, istər Blinkenin, istərsə də onun köməkçisi C.O’Braynın Azərbaycanın həlledicilyi xüsusunda söylədikləri fikirlər məsuliyyət yaradır. Daha doğrusu, məsuliyyət ancaq ölkəmizin üzərinə düşür. Belə nəticə hasil ola bilər ki, sülh əldə edilməsə, ittiham olunmalı tərəf Azərbaycandır. Məsələnin qoyuluşundakı ən böyük yanlışlıq da elə budur. İstər-istəməz düşünürsən: həm Blinken, həm də O’Brayn proseslə bağlı vaciblik xüsusunda ölkəmizin adını daha yüksək səslə ictimailəşdirməklə birmənalı mövqe tutmurlarmı? Təsəvvür edin, dünyada Azərbaycanın Ermənistanla sülh sazişi ilə bağlı mövqeyinin həlledicilyinə dair qəti təsəvvür yaranır və yekunda proses məntiqi təsir bağışlayan nöqtəyə çatmır. Beynəlxalq aləm nə düşünəcək? Heç şübhəsiz, Blinkenin və O’Braynın söylədikləri fonunda bu qənaətə gələcək ki, sülhdə maraqlı olmayan rəsmi Bakıdır.



Əlbəttə, Cənubi Qafqazda söz sahibliyi region üzrə bir çox layihələrin reallaşmasında başlıca rol oynayan ölkəmizə məxsusdur. Ancaq amerikalılar bu baxımdan daha nələri düşünürlər? Məsələn, Birləşmiş Ştatların Azərbaycandakı səfiri Mark Libbinin ötən həftə O’Braynın paytaxtımıza səfəri fonunda səsləndirdiyi fikirlərə əsasən düşünmək olar ki, keçmiş SSRİ-nin süqutundan sonra bölgədəki inkişaf, o cümlədən, Azərbaycanın çiçəklənməsi, bilavasitə Birləşmiş Ştatların dəstəklədiyi təşəbbüslər hesabınadır. Səfir “Bakı–Tbilisi–Ceyhan” neft kəmərini, qaz sazişlərini yada salır.

Onu da bilirik ki, Vaşinqton Avropaya hər fürsətdəcə minnət qoymağı xoşlayır. Elə Libbi də bunu edir və bildirir ki, Azərbaycanın başlıca rol oynadığı layihələr “köhnə qitə”nin enerji təhlükəsizliyini təmin edib. Ancaq o, Azərbaycanın çiçəklənməsi məntiqini də qabardaraq, elə görüntü formalaşdırır ki, sanki sözügedən təşəbbüslər reallaşmasaydı, ölkəmiz indiki kimi inkişaf etmiş olmazdı. Deməli, regionun inkişafına çalışan ABŞ olub, özü də bunu heç bir təmənnasız, hansısa məqsəd güdmədən gerçəkləşdirib? Yəni, Vaşinqton xeyirxahlıq mələyidir, haqq və ədalət çarçısı, sülhün gerçək təşəbbüskarıdır? Əlbəttə, biz onun özünü bu mövqedə təsəvvürə gətirməsinə bir söz deyə bilmərik. Ancaq üzləşdiyimiz həqiqətlər də var. Ən böyük və acı həqiqət işğal yaşantımızdır. Daha acı olan isə bir milyondan artıq vətəndaşımızın qaçqın və məcburi köçkün həyatı, çadır şəhərciklərində, soyuq vaqonlarda yaşamağa məcbur qalmasıdır. Ölkəmizin çiçəklənməsi məhz bu məhrumiyyətlər fonunda gerçəkləşib. Görəsən, ABŞ-də bunu nəzərə alan varmı?

(ardı 8-ci səhifədə)

## Yüksəliş və qazanc büdcəsi



Səhifə ⇨ 11




## Deyəsən, Avro-2024 avtoqollar turniri kimi tarixə düşəcək

Səhifə ⇨ 16

# Prezident İlham Əliyev "Zəngilan" tankerinin istismara verilməsi mərasimində






(əvvəli 1-ci səhifədə)

Saatda 10 knot sürətlə hərəkət edə biləcək tanker 15 nəfərlik heyət tərəfindən idarə olunacaq. Tanker ümumi tutumu 9212 kubmetr olan 6 yük çəninə malikdir. Dedveyti 7875 ton təşkil edən tankerdə dünyanın aparıcı şirkətlərinin avadanlıqları quraşdırılıb. Gəminin texniki göstəriciləri, xüsusilə suya oturumu maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmağa və Xəzərdən kənara yük daşımağa imkan yaradır. Yeni nəsil "Zəngilan" tankeri də digər milli istehsalımız olan tankerlər kimi Xəzərdə və Xəzərdənkənar sularda istismar ediləcək.

"Bakı Gəmiqayırma Zavodu" MMC-nin İdarə Heyətinin sədri Elşad Nuriyev dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verib. Bildirib ki, ümumilikdə 1046 nəfərin çalışdığı zavodda bir Ro-Pax tipli bərənin, iki tankerin və bir dibdərinləşdirən gəminin inşası davam etdirilir. İki tanker, dörd dalğıc və üç sürətli sərnişin gəmisi layihələndirmə, dörd quru yük gəmisi, bir patrul gəmisi və bir yanğınsöndürmə gəmisi isə müqavilə mərhələsindədir. Zavod beş ticarət və səkkiz xidmət gəmisi ilə bağlı müqavilələr imzalayıb.

Sonra dövlətimizin başçısı tankerin istifadəyə verilməsini bildirən rəmzi lenti kəsdi.

Qeyd edək ki, ASCO yarandığı dövrdən bəri ümumilikdə 29 yeni gəmi istismara verilib. Onlardan biri yedək, üçü sərnişin, ikisi Ro-Pax tipli gəmi-bərə, dördü tanker olmaqla, ümumilikdə 10-u Bakı gəmiqayırma zavodunda inşa edilib. Həmçinin ASCO-nun Müşahidə Şurasının məqbul hesab etdiyi Gəmiçiliyin Strateji İnkişaf Proqramına uyğun olaraq Bakı gəmiqayırma zavoduna 11 gəminin, o cümlədən bir Ro-Pax tipli gəmi-bərə, üç tanker, 50 nəfərlik üç sərnişin gəmisi, 60 və 45 metr dərinliklərdə işləmək üçün nəzərdə tutulmuş dörd dalğıc gəmisinin tikintisinə dair yeni sifarişlər verilib.



Ümumilikdə son illərdə donanmanın yenilənməsi və yeni gəmilərin tikintisi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlər ASCO-nun Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasına, Azərbaycan ərazisindən artan tranzit yükdaşımalarında gəmilərə olan tələbatın ödənilməsinə, Xəzərdə neft-qaz layihələrinin uğurla icrasına böyük töhfə verir. Bu istiqamətdə görülən genişmiqyaslı işlər Xəzərdənkənar sularda Gəmiçiliyin mövqeyinin möhkəmləndirilməsi və genişləndirilməsində də mühüm rol oynayır.

Bunlarla yanaşı, son bir ildə beynəlxalq sularda yeni tipli daha böyük gəmilərin istismara verilməsi istiqamətində də uğurlu layihələr icra olunub. 2023-cü ildə xarici sularda Azərbaycan Bayrağı altında "Şuşa", "Qarabağ", "Zəngəzur" adlı 3 "Aframax" tipli tanker istismara verilib. Cari ilin mayında isə Çində "Xocalı" adlı "Handysize" tipli bir quru yük gəmisinin istismara verilməsi ilə Gəmiçilik quru yük daşımalarında yeni seqmentə daxil olub. Bu gəminin ilk səfəri Cənubi Koreyanın "Bakpyung" limanından ABŞ-ın "Portland" limanına yerinə yetirilib. Gəmi artıq təyinat limanındadır və hazırda yükboşaltma əməliyyatı icra edilir.

Onu da qeyd edək ki, bu səfərlə "Xocalı" müstəqil Azərbaycan Bayrağı altında Amerika sularına daxil olan ilk gəmi kimi tarixə düşüb.

Təbii ki, görülən işlər bütövlükdə ölkəmizin iqtisadi sahədə dinamik inkişafının nəticəsidir. Hazırda Azərbaycan dünyada gedən müxtəlif geosiyasi böhranlara baxmayaraq, öz iqtisadiyyatını bu böhranın yaratdığı mənfi meyillərdən maksimum dərəcədə qoruya bilir. Bu gün hər bir sektorda, o cümlədən dəniz nəqliyyatı sahəsində ciddi inkişaf templəri müşahidə olunur ki, bunun da əsasında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi siyasət dayanır.

***AZƏRTAC***

## E.R.Bəşirovun Azərbaycan Respublikasının Tailand Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Raqub oğlu Bəşirov Azərbaycan Respublikasının Tailand Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyul 2024-cü il**

## İ.Ş.Davudovun Azərbaycan Respublikasının Tailand Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İrfan Şakir oğlu Davudov Azərbaycan Respublikasının Tailand Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyul 2024-cü il**

## R.K.Qurbanovun Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramil Kamil oğlu Qurbanov Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyul 2024-cü il**

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası

**İyulun 2-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**



Əvvəlcə MSK-nın iyunun 27-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra bəzi seçki dairələri üzrə seçki məntəqələri ilə bağlı tədbirlərə dair məsələyə baxılıb.

Aparılan müzakirələrdən sonra yerli və digər şərait nəzərə alınmaqla, seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyi əsas götürülərək, ümumilikdə 24 seçki dairəsi üzrə seçki məntəqələri ilə bağlı Seçki Məcəlləsinin tələblərinə uyğun lazımi tədbirlərin görülməsi müvafiq dairə seçki komissiyalarına həvalə edilib.

Daha sonra MSK-nın normativ xarakterli aktlarına dair məsələyə baxılıb və bəzi normativ xarakterli aktlar son dövrlər qanunvericilikdə edilmiş dəyişikliklərə uyğunlaşdırılıb.

Komissiyanın iclasında 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Respublikaçı Alternativ (REAL) Partiyası, Ağ Partiyası və Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə də baxılıb. Sözügedən partiyalar tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verilib.

Xarici qurum və media subyektləri nümayəndələrinin iştirak etdikləri iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunub və cari məsələlərə baxılıb.

***XQ***

## Xocalıda döyüş sursatı aşkarlanıb

**Qarabağ bölgəsində ərazinin mühəndis kəşfiyyatının aparılması zamanı Ermənistan silahlı birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələrinə məxsus xeyli sayda döyüş sursatı ilə dolu yeşiklər və artilleriya mərmiləri aşkar edilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində Xocalı rayonu ərazisində aşkarlanan sursat və mərmilər müsadirə edilib.

Azad olunan ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, eləcə də mühəndis təminatı üzrə digər zəruri tədbirlər davam etdirilir.

***XQ***

## Pakistan səfirinin diplomatik fəaliyyəti başa çatıb

**İyulun 2-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Pakistan İslam Respublikasının ölkəmizdəki səfiri Bilal Hayeni Azərbaycanda diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən bildirilib ki, görüşdə Azərbaycan və Pakistan arasında mövcud strateji tərəfdaşlıq gündəliyi, Pakistan İslam Respublikasına son rəsmi səfərdən irəli gələn məsələlər və gələcək planlar müzakirə olunub.

Ölkəmizdə diplomatik fəaliyyəti zamanı Azərbaycan–Pakistan münasibətlərinin inkişafı istiqamətində göstərdiyi hərtərəfli səylər və peşəkarlığa görə səfir Bilal Hayeyə təşəkkür edilib, ona bundan sonrakı fəaliyyətində uğurlar arzulanıb.

Nazir Ceyhun Bayramov səfir Bilal Hayenin Azərbaycanda diplomatik fəaliyyətinə başladığı dövrün keçmiş münaqişə və Ermənistanın işğalına son qoyulması ilə nəticələnən 44 günlük Vətən müharibəsinə təsadüf etdiyini vurğulayaraq, Pakistan tərəfindən ölkəmizin ərazi bütövlüyü və suverenliyinə göstərilən davamlı mənəvi və siyasi dəstəyə görə təşəkkür edib.

Cari ildə Pakistana edilmiş rəsmi səfər çərçivəsində keçirilmiş görüşlərin, habelə strateji tərəfdaşlıq münasibətlərimiz ətrafında aparılan geniş fikir mübadilələrinin məmnunluq doğurduğu, əməkdaşlığımızın inkişafı üçün mövcud perspektivlərdən istifadənin zəruriliyi qeyd edilib.

Birləşmiş Millətlər Təşkilatı (BMT), Qoşulmama Hərəkatı (QH), İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) kimi bir sıra regional və beynəlxalq təşkilatlar daxil olmaqla, çoxtərəfli formatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyəti qeyd edilib. Pakistanın 2025-2026-cı illər üzrə BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi münasibətilə təbriklər diqqətə çatdırılıb.

Səfir Bilal Haye ölkəmiz üçün olduqca taleyüklü bir dövrdə Pakistanın Azərbaycandakı səfiri kimi fəaliyyət göstərməsindən qürur duyduğunu, bundan sonra da iki ölkə arasında münasibətlərin daha da inkişafına ümidvar olduğunu diqqətə çatdırıb.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***



## "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında informasiyanın texniki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il mayın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında informasiyanın texniki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyul 2024-cü il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il mayın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında miqrasiya sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyul 2024-cü il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında rəqəmsal ticarət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il mayın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında rəqəmsal ticarət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyul 2024-cü il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il mayın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Tacikistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyul 2024-cü il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında su təsərrüfatı sahəsində Əməkdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il mayın 8-də Ankara şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında su təsərrüfatı sahəsində Əməkdaşlıq Sazişi" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Sazişi qüvvəyə mindikdən sonra Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Sazişinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyul 2024-cü il**

## "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Moldova Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il mayın 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Moldova Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Moldova Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyul 2024-cü il**

# Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası gəlirlər 35 236 394,3 min manat, xərclər 36 457 956,1 min manat məbləğində olmaqla təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icra olunmuş gəlirləri və xərcləri aşağıdakı kimi qəbul edilsin:

| Sıra №-si | Göstəricilər | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Gəlirlərin mənbələri | **35 236 394 295** |
| 2.1.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 659 637 627 |
| 2.1.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 8 024 291 163 |
| 2.1.3. | Hüquqi şəxslərin torpaq vergisi | 47 784 394 |
| 2.1.4. | Hüquqi şəxslərin əmlak vergisi | 292 838 058 |
| 2.1.5. | Əlavə dəyər vergisi | 8 127 730 934 |
| 2.1.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 4 443 558 472 |
| 2.1.6. | Sadələşdirilmiş vergi | 357 028 669 |
| 2.1.7. | Aksizlər | 1 452 191 696 |
| 2.1.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 224 314 353 |
| 2.1.8. | Yol vergisi | 137 327 052 |
| 2.1.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 42 826 147 |
| 2.1.9. | Mədən vergisi | 163 454 516 |
| 2.1.10. | Gömrük rüsumları | 1 627 077 606 |
| 2.1.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 173 790 818 |
| 2.1.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 1 869 900 |
| 2.1.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 151 108 830 |
| 2.1.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 11 737 630 000 |
| 2.1.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 31 286 919 |
| 2.1.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 11 055 887 |
| 2.1.17. | Dövlət rüsumu | 328 990 296 |
| 2.1.18. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 61 257 976 |
| 2.1.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 480 821 950 |
| 2.1.20. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 41 627 535 |
| 2.1.21. | Sair daxilolmalar | 327 592 469 |
| 2.1.21.1. | 2023-cü ildə xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə yaranan fərq məbləği | 36 903 |
| 2.2. | Xərclərin istiqamətləri | **36 457 956 099** |
| 2.2.1. | Ümumi dövlət xidmətləri | 3 769 030 117 |
| 2.2.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 457 497 223 |
| 2.2.1.2. | beynəlxalq münasibətlər | 455 016 606 |
| 2.2.1.3. | xarici yardımlar | 112 717 523 |
| 2.2.1.4. | elm | 193 555 542 |
| 2.2.1.5. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 45 762 343 |
| 2.2.1.6. | büdcələrarası transfertlər | 321 964 470 |
| 2.2.1.6.1. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya (transfertin yuxarı həddi) | 315 000 000 |
| 2.2.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 5 414 470 |
| 2.2.1.6.3. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 550 000 |
| 2.2.1.7. | dövlət borcu | 1 182 516 410 |
| 2.2.2. | Müdafiə və milli təhlükəsizlik | 5 854 833 661 |
| 2.2.2.1. | müdafiə qüvvələri | 1 946 491 391 |
| 2.2.2.2. | milli təhlükəsizlik | 369 456 507 |
| 2.2.2.3. | sərhəd xidməti | 459 325 386 |
| 2.2.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 4 775 328 |
| 2.2.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 3 074 785 049 |
| 2.2.2.5.1. | xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 3 068 045 579 |
| 2.2.3. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 2 671 288 420 |
| 2.2.3.1. | məhkəmə hakimiyyəti | 133 552 041 |
| 2.2.3.2. | hüquq mühafizə | 2 079 760 257 |
| 2.2.3.3. | prokurorluq | 121 680 976 |
| 2.2.3.4. | məhkəmə qərarlarının icrası | 9 995 655 |
| 2.2.3.5. | hüquqi yardım | 5 021 632 |
| 2.2.3.6. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 321 277 859 |
| 2.2.4. | Təhsil | 4 124 827 523 |
| 2.2.4.1. | məktəbəqədər təhsil | 353 236 537 |
| 2.2.4.2. | ümumi təhsil | 2 244 012 267 |
| 2.2.4.3. | peşə təhsili | 65 396 525 |
| 2.2.4.4. | orta ixtisas təhsili | 95 248 436 |
| 2.2.4.5. | ali təhsil | 462 219 880 |
| 2.2.4.6. | əlavə təhsil | 10 531 362 |
| 2.2.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 5 986 224 |
| 2.2.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 888 196 292 |
| 2.2.5. | Səhiyyə | 1 722 138 576 |
| 2.2.5.1. | poliklinikalar və ambulatoriyalar | 1 922 817 |
| 2.2.5.2. | xəstəxanalar | 174 019 371 |
| 2.2.5.3. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 2 190 351 |
| 2.2.5.4. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 544 006 037 |
| 2.2.5.4.1. | icbari tibbi sığorta fonduna ayrılan vəsait | 1 263 820 170 |
| 2.2.6. | Sosial müdafiə və sosial təminat | 4 281 452 049 |
| 2.2.6.1. | sosial müdafiə | 474 039 972 |
| 2.2.6.2. | sosial təminat | 5 672 694 |
| 2.2.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 15 791 |
| 2.2.6.4. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 3 801 723 592 |
| 2.2.6.4.1. | dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 467 770 000 |
| 2.2.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 463 400 496 |
| 2.2.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 198 313 531 |
| 2.2.7.2. | televiziya, radio və nəşriyyat | 61 309 229 |
| 2.2.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 40 782 205 |
| 2.2.7.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 22 202 |
| 2.2.7.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 162 973 329 |
| 2.2.8. | Mənzil və kommunal təsərrüfatı | 332 420 158 |
| 2.2.8.1. | mənzil təsərrüfatı | 66 576 294 |
| 2.2.8.2. | kommunal təsərrüfatı | 136 157 134 |
| 2.2.8.3. | su təsərrüfatı | 26 718 023 |
| 2.2.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 102 968 707 |
| 2.2.9. | Kənd təsərrüfatı | 947 619 326 |
| 2.2.9.1. | kənd təsərrüfatı tədbirləri | 483 823 278 |
| 2.2.9.2. | baytarlıq | 36 152 986 |
| 2.2.9.3. | meliorasiya | 423 490 426 |
| 2.2.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 4 152 636 |
| 2.2.10. | Ətraf mühitin mühafizəsi | 358 566 531 |
| 2.2.10.1. | bioloji zənginliyin qorunması | 7 992 884 |
| 2.2.10.2. | torpaq və yerquruluşu | 18 300 000 |
| 2.2.10.3. | hidrometeorologiya tədbirləri | 9 183 025 |
| 2.2.10.4. | meşə təsərrüfatı | 16 689 340 |
| 2.2.10.5. | balıqçılıq və ovçuluq | 1 346 105 |
| 2.2.10.6. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 304 812 399 |
| 2.2.10.7. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 242 778 |
| 2.2.11. | İqtisadi fəaliyyət | 9 320 335 950 |
| 2.2.11.1. | nəqliyyat və rabitə | 325 614 979 |
| 2.2.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 41 603 004 |
| 2.2.11.3. | tikinti və şəhərsalma | 7 461 454 454 |
| 2.2.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 660 400 000 |
| 2.2.11.3.2. | işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 4 800 000 000 |
| 2.2.11.4. | geodeziya və faydalı qazıntılar | 6 559 683 |
| 2.2.11.5. | yanacaq və enerji kompleksi | 42 126 |
| 2.2.11.6. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 1 485 061 704 |
| 2.2.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 2 612 043 292 |
| 2.2.12.1. | ehtiyat fondları | 1 940 581 670 |
| 2.2.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 300 000 000 |
| 2.2.12.1.2. | dövlət büdcəsinin ehtiyat fondu | 1 640 581 670 |
| 2.2.12.2. | məqsədli büdcə fondları | 350 329 335 |
| 2.2.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 350 329 335 |
| 2.2.12.3. | valyuta konvertasiyası | 1 315 511 |
| 2.2.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 319 816 776 |
| 2.2.12.4.1. | dövlət ehtiyatlarının yaradılması | 40 000 000 |
| 2.2.12.4.2. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 19 963 502 |
| 2.2.12.4.3. | ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 11 485 500 |
| 2.2.12.4.4. | sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər | 248 367 774 |
| **2.3.** | Dövlət büdcəsinin kəsiri | 1 221 561 804 |
| 2.4. | 2024-cü il yanvarın 1-nə vahid xəzinə hesabının sərbəst qalığı | 970 735 438,7 |

**Maddə 3.** Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası nəticəsində həmin ilin sonuna dövlət büdcəsinin vahid xəzinə hesabında yaranan qalıq "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.5-ci maddəsinə uyğun olaraq istifadə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 14 iyun 2024-cü il**

# Azərbaycan – NATO hərbi əməkdaşlığı davam etdiriləcək

**İyulun 2-də müdafiə nazirinin birinci müavini, Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan NATO-nun Brunssum Birgə Qüvvələr Komandanlığının qərargah rəisinin müavini general-mayor Stefan Fiks ilə görüşüb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Baş Qərargah rəisi Stefan Fiksi ölkəmizdə görməkdən məmnunluğunu ifadə edib, NATO ilə münasibətlərin cari vəziyyətinin yüksək səviyyədə olduğunu bildirib.

Azərbaycan–NATO əməkdaşlığının bundan sonra da hər iki tərəf üçün faydalı olacağı və səmərəli görüşlərin davam etdiriləcəyi əminliklə qeyd olunub.

NATO-nun Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində Şimali Atlantika Alyansının bölmələrimizin hazırlığına böyük töhfə verdiyini bildirən general-polkovnik K.Vəliyev bunun yüksək qiymətləndirildiyini xüsusi vurğulayıb.

General-mayor S.Fiks isə öz növbəsində Azərbaycana növbəti səfərindən məmnun olduğunu qeyd edib. Azərbaycan ilə qarşılıqlı münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan Ordusunun hərbi qulluqçularının sülhməramlı missiyalarda, eləcə də NATO ilə tərəfdaşlıq çərçivəsində digər sahələrdə peşəkar fəaliyyətinin müsbət qiymətləndirildiyi qeyd olunub.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında geniş fikir mübadiləsi də aparılıb.

**XQ**

# “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında” Azərbaycan Respublikasının 2024-cü il 14 iyun tarixli 1173-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında” Azərbaycan Respublikasının 2024-cü il 14 iyun tarixli 1173-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında” Azərbaycan Respublikasının 2024-cü il 14 iyun tarixli 1173-VIQ nömrəli Qanununun 2.2-ci maddəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində istifadə olunan vəsaitin inzibati təsnifata uyğun olaraq dövlət büdcəsindən maliyyələşən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə icrasının məbləği aşağıdakı qaydada təsdiq edilsin:

| Sıra №-si | Xərclərin istiqaməti | Xərclərin məbləği (manatla) |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1.1 | Ümumi dövlət xidmətləri | 3 769 030 117 |
| 1.1.1 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | **1 457 497 223** |
| 1.1.1.1 | Azərbaycan Respublikasının Milli Məclisi | 53 032 830 |
| 1.1.1.2 | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | 235 296 022 |
| 1.1.1.3 | Azərbaycan Respublikasının Nazirlər Kabineti | 27 327 700 |
| 1.1.1.4 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 12 783 309 |
| 1.1.1.5 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti | 1 128 234 |
| 1.1.1.6 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti | 972 404 |
| 1.1.1.7 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti | 1 031 397 |
| 1.1.1.8 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 895 978 |
| 1.1.1.9 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 11 433 168 |
| 1.1.1.10 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 5 951 316 |
| 1.1.1.11 | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 13 798 598 |
| 1.1.1.12 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 24 056 033 |
| 1.1.1.13 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 24 126 618 |
| 1.1.1.14 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | 89 092 271 |
| 1.1.1.15 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 12 769 170 |
| 1.1.1.16 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti | 6 561 032 |
| 1.1.1.17 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 24 028 814 |
| 1.1.1.18 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi | 1 386 365 |
| 1.1.1.19 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 2 238 940 |
| 1.1.1.20 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 28 717 637 |
| 1.1.1.21 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi | 12 744 609 |
| 1.1.1.22 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi | 865 536 |
| 1.1.1.23 | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti | 2 752 031 |
| 1.1.1.24 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 8 943 562 |
| 1.1.1.25 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti | 3 885 087 |
| 1.1.1.26 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 6 399 866 |
| 1.1.1.27 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti | 352 089 |
| 1.1.1.28 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi | 1 348 118 |
| 1.1.1.29 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 3 398 406 |
| 1.1.1.30 | Azərbaycan Respublikasının Energetika Nazirliyi | 5 687 173 |
| 1.1.1.31 | Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi | 1 146 005 |
| 1.1.1.32 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 18 625 717 |
| 1.1.1.33 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi | 749 607 |
| 1.1.1.34 | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 3 462 950 |
| 1.1.1.35 | Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsi | 3 898 639 |
| 1.1.1.36 | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 154 953 |
| 1.1.1.37 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 5 322 906 |
| 1.1.1.38 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi | 1 127 259 |
| 1.1.1.39 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi | 546 217 |
| 1.1.1.40 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 34 232 129 |
| 1.1.1.41 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 5 895 348 |
| 1.1.1.42 | Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası | 2 194 183 |
| 1.1.1.43 | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | 1 364 015 |
| 1.1.1.44 | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 9 613 258 |
| 1.1.1.45 | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 51 906 505 |
| 1.1.1.46 | Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyi | 213 004 |
| 1.1.1.47 | Dövlət mükafatlarının və təltiflərinin maliyyə təminatı | 50 000 |
| 1.1.1.48 | Şəhər və rayon icra hakimiyyəti orqanlarının saxlanılması | 206 545 263 |
| 1.1.1.49 | Azərbaycan Respublikasının digər mərkəzi təşkilatlarının saxlanılması | 23 741 549 |
| 1.1.1.49.1 | Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) | 5 520 960 |
| 1.1.1.49.2 | Azərbaycan Respublikasının Hesablama Palatası | 8 497 546 |
| 1.1.1.49.3 | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası | 6 156 414 |
| 1.1.1.49.4 | Məhkəmə-Hüquq Şurası | 1 394 352 |
| 1.1.1.49.5 | Azərbaycan Respublikasının Audiovizual Şurası | 2 172 277 |
| 1.1.1.50 | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | 14 844 291 |
| 1.1.1.51 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 2 182 168 |
| 1.1.1.52 | Qanunvericilik və icra hakimiyyəti orqanlarının təşkilati strukturunun təkmilləşdirilməsi | 30 146 938 |
| 1.1.1.53 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 16 956 309 |
| 1.1.1.54 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri | 393 573 697 |
| 1.1.2 | Beynəlxalq münasibətlər | **455 016 606** |
| 1.1.2.1 | Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının səhm kapitalında iştirak | 25 170 332 |
| 1.1.2.2 | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları | 167 453 514 |
| 1.1.2.3 | Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər | 39 819 324 |
| 1.1.2.4 | Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər | 221 566 599 |
| 1.1.2.4.1 | Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər | 12 646 342 |
| 1.1.2.4.2 | Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər | 208 920 257 |
| 1.1.2.5 | Beynəlxalq münasibətlər sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi və əsaslı təmir | 1 006 837 |
| 1.1.3 | Xarici yardımlar | 112 717 523 |
| 1.1.4 | Elm | **193 555 542** |
| 1.1.4.1 | Azərbaycan Milli Elmlər Akademiyası və onun tabeliyində olan müəssisələrin saxlanılması | 43 165 751 |
| 1.1.4.2 | “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzi | 1 967 132 |
| 1.1.4.3 | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 8 245 981 |
| 1.1.4.4 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 244 070 |
| 1.1.4.5 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 71 631 140 |
| 1.1.4.6 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 5 505 312 |
| 1.1.4.7 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 15 911 642 |
| 1.1.4.8 | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi | 10 932 608 |
| 1.1.4.9 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 250 000 |
| 1.1.4.10 | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | 9 129 074 |
| 1.1.4.11 | “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi” publik hüquqi şəxs (ixtiraların və faydalı modellərin hüquq sahiblərinin ödədikləri xərclərin 50 faizinin maliyyələşdirilməsi) | 200 640 |
| 1.1.4.12 | “Azərbaycan Elm Fondu” publik hüquqi şəxs | 4 080 744 |
| 1.1.4.13 | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “İqtisadi Elmi Tədqiqat İnstitutu” publik hüquqi şəxs | 2 188 144 |
| 1.1.4.14 | Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində “Mərkəzi Nəbatat Bağı” publik hüquqi şəxs | 1 647 420 |
| 1.1.4.15 | “Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi” publik hüquqi şəxs | 3 698 639 |
| 1.1.4.16 | “Sosial Tədqiqatlar Mərkəzi” publik hüquqi şəxs | 2 108 760 |
| 1.1.4.17 | “Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi” publik hüquqi şəxs | 2 149 795 |
| 1.1.4.18 | Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Aqrar Tədqiqatlar Mərkəzi” publik hüquqi şəxs | 1 031 792 |
| 1.1.4.19 | Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində “Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu” publik hüquqi şəxs | 1 499 453 |
| 1.1.4.20 | “Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında “Monitorinq Mərkəzi” publik hüquqi şəxs | 998 456 |
| 1.1.4.21 | Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində “Dendrologiya Bağı” publik hüquqi şəxs | 1 325 880 |
| 1.1.4.22 | Elm sahəsi üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 2 213 945 |
| 1.1.4.23 | Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 3 429 164 |
| 1.1.5 | Seçkilərin keçirilməsi və statistika tədbirləri | **45 762 343** |
| 1.1.5.1 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 1 078 559 |
| 1.12.4.4.7 | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 7 615 182 |
| 1.12.4.4.8 | Mediasiya Şurası | 12 070 |
| 1.12.4.4.9 | Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 29 996 002 |
| 1.12.4.4.10 | İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması | 2 500 000 |
| 1.12.4.4.11 | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 69 059 207 |
| 1.12.4.4.12 | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 12 594 292 |

**2.** Müəyyən edilsin ki:

2.1. "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2024-cü il 14 iyun tarixli 1173-VIQ nömrəli Qanununun 2.1.14-cü, 2.1.20-ci və 2.2.12.2.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 2.1.14-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

2.3. həmin Qanunun 2.1.20-ci maddəsində "məqsədli büdcə fondları" dedikdə Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları və Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu nəzərdə tutulur;

2.4. həmin Qanunun 2.2.12.2.1-ci maddəsində "məqsədli büdcə fondları" dedikdə "Avtomobil yolları" məqsədli büdcə fondu, Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu nəzərdə tutulur.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2024-cü il 14 iyun tarixli 1173-VIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyul 2024-cü il**

# 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Vətəndaş Həmrəyliyi Partiyası Siyasi Şurasının 2024-cü il 1 iyul tarixli qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Vətəndaş Həmrəyliyi Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Samir Şakir oğlu Əsədli
Felmar Əli oğlu Ələkbərov
Zeynalxan Allahverdi oğlu Fətullayev
Yusif Mətləb oğlu Xantemirov
Abdulla Aydın oğlu Abdullayev
Nəsimi Çərkəz oğlu Şərəfxanlı
Elxan İbrahim oğlu Mirzəyev
Yusif Ziyad oğlu Salmanlı
Aysel Xanlar qızı Səfərli
Fərman Kamran oğlu Hüseynov
Diana Rinatovna Fətullayeva
Zaur Mitya oğlu Məmmədov
Ədalət Saday oğlu Quliyev
Fikrət Rafiq oğlu Nəsrəddinzadə
Xəyal Ramiz oğlu Baloğlanov
Seyhun Şakir oğlu Əsədli
Tusi Mustafa oğlu Cəfərov
Vəli Yadulla oğlu Əsmətov
Tərlan İslam qızı Qasımova
Baba Məhəmmədəli oğlu Umudov
Vüsal Fəxrəddin oğlu Mehdiyev
İlham Nurəli oğlu Ağayev
Azər Məmmədcan oğlu Caniyev
Murad Elşad oğlu Hüseynov
Məqsəd Mərdan oğlu Orucov
Ülviyyə Əhmədağa qızı Məmmədova
Faiq Cümşüd oğlu Ağayev
Nazlı Dadaş qızı Ağayeva
Məharət Turab oğlu Ağayev
Məhəmməd Meretqeldi oğlu Türkmən
Narıngül Nadir qızı Babayeva
Bəylər Məmməd oğlu Tağıyev
Amal İsmayıl oğlu Nəzərli
Taleh Darvin oğlu Məmmədov
Ədalət Ağagül oğlu Məmmədov
Qafar Elxan oğlu Quliyev
Yunis Telman oğlu Rza
Nəsib Xosaxan oğlu Rustamov
Tapdıq Abış oğlu Əlibəyli
Alissa Vaçikovna Qukasova
Yuriy Pavloviç Voronin
Röyal Məhəbbət oğlu Hacıyev
Xasay Qamboy oğlu Vəliyev
Pünhan Dilsuz oğlu Bağırzadə
Famil Adil oğlu Zakirov
Samirə Şakir qızı Kərimova
Elvin Kazım oğlu Həziyev
Sabir İsmayıl oğlu Omarov
Həsən Nəsrəddin oğlu Rüstəmov
Səfiyar Hümbət oğlu Ağayev
Roman Zazayeviç Poladaşvili
Elməddin Mehman oğlu Şərifov
Əliabbas Əli oğlu Muğanlı
Azad Əmircan oğlu Əmirxanov
Fariz Vəli oğlu Cəfərov
Habil Müzəffər oğlu Əliyev
Sərvər Rəhman oğlu Hüseynov
Nicat Kamal oğlu Şükürov
Fərqanə Pənah qızı Qasımova
Adil Müşviq oğlu İsayev
Kamran İlkin oğlu Abbaslı
Rəşad Niyazi oğlu Adıgözəlov
Mirzəxan Paşa oğlu Heydərli
Səfərəli Teymur oğlu Teymurzadə
Rafiq Əvəz oğlu Məmmədov
Məmmədəmin Mehman oğlu Rəsulzadə
Dəniz Sadıq qızı Məmmədova
Ağadin Baba oğlu Mikayılov
İsmayıl Əmirxan oğlu İsmayılov
Bəhrəm İlham oğlu Xəlilov
Fizuli Abdulla oğlu Fərəcov
Sənan Bəkir oğlu İmanquliyev
Sərxan Sərvan oğlu Məmmədli
Məhəmməd Qabil oğlu Vəliyev
Fərrux Kəbir oğlu Abdulcanov
Vasif Xanlar oğlu Bəşirov
Ceyhun Elçin oğlu Ağayev
Günel Mehman qızı Əsgərova
Zaur Mütalib oğlu Fərzəliyev
Eldar Hüseynalı oğlu Cəfərov
Gülnar Faiq qızı Hüseynova
Mirheydər Mirəhəd oğlu Ağalarov
Vüqar Elşad oğlu Məhərrəmov
Gündüz Babalar oğlu Fərzəliyev
Elşən Lətif oğlu Aslanov
Ziyafət Əlibarat oğlu Əkbərov
Elmira Müslüm qızı Əlizadə
Vüqar Kamal oğlu Ataşov
Elgün Musa oğlu Abdullayev
Zöhrab Vahid oğlu İsmayılov
Elçin Mahmudağa oğlu Nuriyev
Mübariz Eyyub oğlu Camıyev
Etibar Yusub oğlu Yusubov
Zərxanım Ağamusa qızı Həsənli
Ağakərim Elşən oğlu Hüseynov.

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**

Səlahəddin Bərzani oğlu Əsgərov.

2. Bu qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Ağ Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Ağ Partiyası səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Ağ Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Tural Feyruz oğlu Abbaslı
Əhəd Fərhad oğlu Məmmədli
Nərmin İkram qızı Abbaslı
Rəhim Rüfət oğlu Əhmədzadə
Cavanşir Cəlil oğlu Abbasov
Kamran Fərhad oğlu Məmmədli
Rüfət İbrahim oğlu Hacıbəyli
Cavid İbrahim oğlu Hacıbəyli
Səddam Saməddin oğlu Nəcəfov
Mətləb Məhərrəm oğlu Aslanov
Toğrul Feyruz oğlu Abbasov
Vüsal Balacan oğlu Quliyev
Azər Şofiq oğlu Hüseynov
Vüsal Şövkət oğlu Əliyev
Ariz Xudaverdi oğlu Zeynalov
Araz Mahir oğlu Teymurov
Cəlil İsa oğlu Abbasov
Hidayət Bəşir oğlu Həşimov
Gülmalı Paşa oğlu Baxşəliyev
Məhərrəm Məzahir oğlu Aslanov
İlhamə Paşa qızı Aslanova
Fuad Əkrəm oğlu Bədəlov
İbrahim Rəhim oğlu Hacıyev
Kamran Hakim oğlu Məmmədov
Vüsal Aydın oğlu Əliyev
Yusif Müzəffər oğlu Quliyev
Emil Bəylər oğlu Əliyev
Ceyhun Sulduz oğlu Rzayev
Seymur Dadaş oğlu Əliyev
İlkin Hacıəli oğlu Məmmədov
Cabir Əşrəf oğlu Məmmədov
Şahin Məhəmməd oğlu Həsənov
Nöhbala Hüseynbala oğlu Həsənzadə
Ağaəli Böyükağa oğlu Manafov
Aliyə Vəli qızı Əfəndiyeva
Dilavər Hüseyxan oğlu Cəfərov
Zaur Firudin oğlu Bəndəliyev
Racəddin Həşim oğlu Babayev
Ramil Bəbir oğlu Bəbirov
Taleh Hüseynbala oğlu Ədilov
Bahadır Balabəy oğlu Ruzmanov
Asif Əli oğlu Abdullayev
Pərviz Hacı oğlu Qubatov
Paşa Məzahir oğlu Salmanov
Elşad Musayib oğlu Əhmədxanov
Ələddin Fehruz oğlu Kərimov
Səxavət Ədalət oğlu Rəhimov
Cəlil Ələsgər oğlu Həbibov
Nemət Natiq oğlu Kərimov
İlham İsmayıl oğlu Nurməmmədov
Rasim Hüseyn oğlu Əhmədov
Vüqar İsrafil oğlu Məmmədov
Zamiq Kazım oğlu Zalov
Hakim Məmmədağa oğlu Məmmədov
İlham Malik oğlu Bağırov
Xatirə Əziz qızı İslamova
Piri Hikmət oğlu Kazımov
Nəsimi Hüseyn oğlu Hüseynov
Səbuhi Əlixan oğlu Babayev
Fərid Vəliyulla oğlu Dadaşov
Alagöz Əvəz qızı Süleymanova
Behbud Nüsrət oğlu Alıyev
Samir Bəhrəm oğlu Sultanov
Malvina Adilovna Amirova
Mahmud Nəsrəddin oğlu Məmmədli
Sərvan İlham oğlu Məmmədov
Nəcəf Qardaş oğlu Nəcəfov.

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**

Bəhram Yolçu oğlu Sadıqov.

2. Bu qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Respublikaçı Alternativ (REAL) Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında

## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Respublikaçı Alternativ (REAL) Partiyası səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin etmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Respublikaçı Alternativ (REAL) Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Rəhim Əlihüseyn oğlu Babayev
Fizuli Məhəmməd oğlu Dehqani
Elnur Adigözəl oğlu Xələfov
Şamil Camil oğlu Qarəhmədov
Novruz Muxtar oğlu Əliyev
Ramil Bahadin oğlu Süleymanov.

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**:

Elçin Mehdi oğlu Qurbanov.

2. Bu qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Azərbaycan–Türkiyə birliyi: “Geosiyasi layları” tərpədən müttəfiqlik



## I məqalə

***Azərbaycan – Türkiyə dostluğu və qardaşlığı sarsılmazdır, əbədidir və xalqlarımızın qarşılıqlı inkişaf və tərəqqisinin hərəkətverici qüvvəsidir.***

***Heydər ƏLİYEV, Ümummilli lider***

### Fundamental əsaslı konstruktiv addımlar

Tarix elmləri doktoru Eynulla Mədətli məqalələrinin birində yazır ki, 1994-cü il oktyabr ayının 19-da Türk dövlətləri başçılarının Zirvə görüşündə qəbul edilmiş “İstanbul Bəyannaməsi”nin imzalanma mərasimində Heydər Əliyev deyirdi: “Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də, bunlar hamısı xalqlarımızı hələ müstəqil olmadığımız vaxtlarda bir-birindən ayırmayıb, bir-birinə bağlayıb, bir-birilə daha çox əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliklərini əldə edəndən sonra, müstəqil dövlətlər kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəli getməliyik”.

Ulu öndərin Türkiyə–Azərbaycan münasibətlərini “fundamental əsaslar üzərində qurmaq” tövsiyəsi iki qardaş dövlətin müasir mərhələdə əməkdaşlıq fəlsəfəsinin ana xəttini təşkil edir.

İndi müşahidə edilən proseslər də göstərir ki, bu məsələ getdikcə regional və qlobal miqyasda daha aktual mövqeyə çıxır. Öncə, bir sıra güclü siyasi dairələr məsələyə inkarçılıqla yanaşdılar. Məntiq belə idi – “kimin sifarişini yerinə yetirirlər, kimlərin yanında durmağa çalışırlar”. Çox qısa müddətdə anladılar ki, keçmiş ədalətsiz, qərəzli və inkarçı siyasi şüurları du dəfə də onları (inkarçıları) dalana dirəyir. Çünki realpolitika meydanında Ankara və Bakı, sözün həqiqi mənasında, fundamental əsaslara, ədalətə, hüquqa və mənəviyyata söykənən konstruktiv addımlar atdılar. Bu iki qardaş dövlət yalnız özlərinin deyil, bütövlükdə, regionun və Avrasiya qitəsinin sabit və təhlükəsiz inkişafı üçün çalışdıqlarını əməllərində sübut etdilər. Bunun qəbul edilməsinin faktoloji sübutları dünyanın böyük dövlətlərinin başçılarının Azərbaycan Prezidentinə dalbadal əməkdaşlıq mesajları verməsindədir. Üç böyük dövlətin nümunəsində bunu görə bilərik. Onlar ABŞ, Rusiya və İrandır.

### ABŞ: Zəngəzur dəhlizi açılmalıdır

Cəmi 3-4 il bundan öncə Vaşinqtonun Cənubi Qafqaz istiqamətində ab-havası fərqli idi. Amerika siyasi elitası özünü çox yuxarıdan və həlledici faktor olan fenomen kimi təqdim edirdi. Türkiyə və Azərbaycana qarşı açıq və gizli ədalətsiz addımların şahidi olduq. Onların sırasında həyat yoldaşı erməni olan bir senator canfəşanlıq edirdi. Nensi Pelosinin də münasibətini hər kəs bilir. Amerika Senatının kuluarlarında kimlərin hansı oyunlar arzusunda olduğu haqqında aidiyyətli dairələr çox yaxşı bilirlər. Türkiyə və Azərbaycana qarşı ədalətsiz addımlar, təxribatlar və bunların fonunda “yumşaq” formada təcavüzkar Ermənistanı müxtəlif məsələlərdə dəstəkləmək cəhdləri, təəssüf ki, dünyanın ən güclü dövlətinin “siyasi-diplomatik sandığı”ndan çıxırdı.

İndi isə ABŞ prezident səviyyəsində Azərbaycanı etibarlı tərəfdaş, əməkdaşlığı inkişaf etdirmək üçün arzu etdiyi suveren ölkə və hətta, Zəngəzur dəhlizini açmaq niyyətinə dəstək verən güclü dövlət kimi görür. Azərbaycan və Türkiyə heç bir zaman konstruktiv təkliflərə və addımlara qapalı olmamışlar. Türkiyə F-16-ları da qəbul edir, Azərbaycan da bütün sferalarda olduğu kimi Zəngəzur məsələsində də Vaşinqtonun mövqe dəyişikliyinə həm sayğılı yanaşır, həm də praktiki siyasi-diplomatik müstəvidə əməkdaşlığa tam açıqdır.

### Rusiya: müttəfiqliyə davam

Sözün həqiqi mənasında, Prezident İlham Əliyev Rusiya istiqamətindəki siyasətdə inqilab etmişdir. Tarixi baxımdan çox qısa bir müddətdə rəsmi Bakı, faktiki olaraq, düşmən mövqeyində olan çox güclü bir qonşusuna özünün haqlı olduğu ilə yanaşı, ən etibarlı müttəfiq ola biləcəyini də sübut etdi! Keçən əsrin 90-cı illərində Kremlin siyasətindən “Ermənistan qardaş, dost və Cənubi Qafqazda yeganə etibarlı müttəfiqdir” fikri “sel kimi region dövlətlərinin üzərinə axırdı”! Bir neçə beynəlxalq tədbirdə və ikili müzakirələrdə ulu öndər Heydər Əliyevin hansı fəallıq və qətiyyətlə Moskvanın bu qərəzli mövqeyi ilə savaşdığı haqqında çoxlu fakt var. Proseslər göstərdi ki, ilk illərdə Azərbaycan liderinin bu fəaliyyətinə diqqət etmək istəməyən Rusiya rəhbərliyi real faktlar qarşısında geri çəkilməyə başladı. Nəhayət, Moskva Bakı ilə strateji müttəfiqliklə bağlı müqavilə imzaladı. Bu, politoloqların diqqət etmədiyi bir gerçək məqamı ifadə edirdi.

Rusiya Azərbaycanla strateji müttəfiqlik sənədini nə zaman imzaladı? Şuşa Bəyannaməsindən sonra. Şuşa Bəyannaməsinin məğzi nədən ibarətdir? Azərbaycan və Türkiyə iki müstəqil dövlətlər kimi bir-birinin daxili işlərinə qarışmadan real müttəfiqliyin bütün şərtlərini ödəməklə birgə fəaliyyət göstərəcəklər. Bu fəaliyyətin təməlində üç faktor dayanır: ədalət, hüquq və müsətqil dövlətçiliyə sayğı! Rusiya anladı ki, müasir dövrdə iki ən yaxın dövlət belə “böyük qardaş-kiçik qardaş” siyasi-ideoloji dixotomiyası ilə münasibət qurmurlar. Bu faktın arxasında Türkiyədən çox Azərbaycan dövlətinin gücü dayanır! Maraqlıdır, lakin gerçəkdir! Ulu öndər “bir millət, iki dövlət” kəlamı ilə qardaş Türkiyəyə böyük qardaşlığın keçərli olmadığını necə anlatdısa, qonşu Rusiyaya da eyni qətiyyətlə bərabərhüquqluluq, ədalət və müstəqilliyə sayğıdan kənarda münasibətlərin alınmayacağını başa saldı.

Bu mənada, Rusiyanın Azərbaycanla strateji müttəfiqlik sənədini Şuşa Bəyannaməsindən dərhal sonra imzalaması təsadüfi deyildir – birbaşa Azərbaycan müstəqil siyasətinin və müstəqilliyinin etirafıdır.

Deməli, bəzilərinin (hətta Azərbaycanda) təqdim etməyə çalışdığı kimi, qətiyyən söhbət Rusiyanın Azərbaycan üzərində hökmranlığından gedə bilməz, əksinə son 300 ildə ilk dəfədir ki, Azərbaycan lideri Moskvaya anlada bilmişdir ki, “müstəqil Azərbaycanla əməkdaşlığı bərabərhüquqlu və qarşılıqlı sayğı əsasında qura bilərsən”! Bu çərçivədən kənarda strateji müttəfiqlik baş tuta bilməz.

İndi Rusiya Prezidenti Vladimir Putin yüksək səviyyədə etiraf edir ki, “Ermənistan düşmənlərlə oturub-durur”! Konkretləşdirsək, anlamı ondan ibarətdir ki, “Ermənistan artıq Moskvaya dost deyildir və hətta düşməndir”. Azərbaycan haqqında isə bunu demir. Deməli, bu mənzərə də Azərbaycan liderinin güclü siyasətinin bəhrəsidir!

Bununla ümumiləşdirmək olar ki, Cənubi Qafqazda ABŞ, Türkiyə və Rusiyanın münasibətlərinin təməlində hər üçünün Azərbaycanın müstəqilliyini real sayğılı münasibətləri, hüquqilik və konstruktiv əməkdaşlıq niyyətləri dayanır. Eyni zamanda, Azərbaycan–Türkiyə birliyi, müttəfiqliyi bu konfiqurasiyanın “döyünən qəlbi”dir! Bunu da hər kəsin bilməsi və bu regiondakı fəaliyyətində nəzərə alması qaçılmaz gerçəklikdir!

Lakin regional mənzərə bununla tamamlanmır.

### İran: İlham Əliyevin möhtəşəm “U” dönüşü

İran tarix, mədəniyyət, dövlətçilik və geosiyasi fakt olaraq Azərbaycana dost və qardaşdır. Lakin mürəkkəb daxili siyasi dinamikaya malik, sirli diplomatiyası ilə seçilən bu qonşu dövlət Azərbaycan məsələsinə süni həssaslıqla yanaşmaqla çox neqativ mühit yaratdı. Dini məzhəbçiliyi siyasi müstəvidə düşmənçilik ideologiyasına çevirməklə müsəlman dövlətçiliyinin düşmənlərinin dəyirmanına su tökdü. Ancaq həm İran dövlət və cəmiyyət olaraq özəl ənənəsi olan ölkədir və orada ayıq başlar kifayət qədərdir, həm də Azərbaycan Respublikası ehtiyatlı, təmkinli, lakin qətiyyətli və ədalətli siyasəti ilə rəsmi Tehranın mövqeyini dəyişməsinə nail oldu. Bunu şişirtməsiz Azərbaycan Prezidentinin siyasi kontekstdə möhtəşəm “U” dönüşünə nail olması kimi qiymətləndirmək lazımdır. Çünki geniş bir geosiyai məkanda İransız qalıcı konstruktiv geosiyasi düzən yaratmaq imkansız görünür.

Prezident İbrahim Rəisinin azərbaycanlı həmkarı ilə son müzakirələri bu baxımdan ciddi hadisədir. İndi onun davamının olacağına böyük ümidlər vardır. Gec və ya tez Azərbaycan Respublikası–İran–Türkiyə geosiyasi əməkdaşlıq platforması konkret məzmun alacaq və tam hüquqi əsasa oturacaqdır.

### Qarşı tərəfdən baxış

İndi bu proseslərin “o biri tərəfinə” baxaq. Konkret olaraq müxtəlif dairələrin mərkəzində Azərbaycan–Türkiyə birliyinin dayanmasına və onun faktiki olaraq Cənubi Qafqazda sülh, əməkdaşlıq və təhlükəsizliyin “döyünən qəlbi” olmasına verilən reaksiya birmənalı deyildir. Açıq surətdə ümumi geosiyasi konfiqurasiyaya qarşı çıxa bilmirlər, lakin onun “döyünən qəlbi”nə qarşı müxtəlif siyasi, diplomatik, ideoloji, hərbi və informasiya təxribatları törətməyə çalışırlar. Bizim üçün daha düşündürücü olanı Azərbaycan Resublikası daxilində bir sıra KİV orqanlarının üstüörtülü və ibarəli surətdə həmin dairələrə züy tutmağa çalışmasıdır. Öz ağılları və məntiqləri ilə hesab edirlər ki, Azərbaycan cəmiyyəti bu təxribatçı davranışı obyektiv münasibət kimi qəbul edir. Böyük yanlışlıq içərisindədirlər. Azərbaycan tükü-tükdən seçən bir cəmiyyət, ölkə və dövlətdir! Azərbaycan insanı Vətənsevərdir, haqq-ədalət tərəfdarıdır. Onun üçün ailə kimdirsə, dövlət də odur! Azərbaycanlı dinini, dilini, adət-ənənəsini sevər! Tarixi müstəvidə onu aldatmaq mümkün deyil! Boşuna özünüzü yormayın!

Həm də hər kəs bunun bir daha şahidi olacaqdır. Öncə yaranmış geosiyasi mənzərənin Azərbacyan–Türkiyə birliyi işığında bir sıra özəlliklərinə nəzər salaq.

### Ermənistanın siyasi-diplomatik riyakarlığı

Ermənistan siyasi şüuru dəqiq bilir ki, potensialı, imkanları və praktiki təcəssüm şansları olduqca zəifdir. Çünki o toplum dövlətçilik şüuru baxımından çox qüsurludur. Kifayət qədər psixoloji natamamlıq kompleksi mövcuddur. Tarixən dövlət qurmaqda elə bir uğuru və buna görə də təcrübəsi yoxdur. Keçən əsrin əvvəllərində uzunmüddətli yalan, şişirtmə və qonşulara böhtanla “qidalandırılan” erməni “dövlətçilik şüuru” avtomatik olaraq başqasına şər atmaq üzərində köklənmişdir. Onlara bununla bağlı Qərb və Rusiya tərəfdən o qədər yalan aşılanmışdır ki, indi özlərini o yalanların cazibəsindən xilas edə bilmirlər. Burada situasiya son dərəcə sadədir: əsl müstəqil dövlətçilik şüuru başqasına nifrət üzərində formalaşa bilməz, onun yeganə mənbəyi öz dövlətçiliyinə sevgi ilə və anlamlı yanaşmadır. Özünün dövlətçiliyinə anlayış və sevgi ilə yanaşa bilməyən heç bir toplum real müstəqil dövlət qura bilməz. Daim bu və ya digər formalarda başqalarının oyuncaqları olacaqlar.

İndi mən bilmirəm, N.Paşinyan bunları fərqli formada öz xalqına anlatmağa çalışmaqda nə dərəcədə səmimidir. Lakin bu kimi səslərin erməni siyasi şüurunun özündən eşidilməsi maraqlı dəyişiklikdir. Ancaq kifayətedici deyildir. Orada maskalı, ikiüzlü, riyakar siyasi və diplomatik priyomların davam etdiyini görürük.

**(ardı var)**

***Füzuli QURBANOV, XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# ABŞ-nin sülh təşəbbüsü: nəzərə alınanlar və alınmayanlar



**(əvvəli 1-ci səhifədə)**

Əslində, otuz ilə yaxın müddətdə Azərbaycan xalqının üzüntülərini düşünən olmayıb. Bu düşüncəsizlik fonunda regional iqtisadi təşəbbüslər təşviq olunub. Kollektiv Qərbin, elə Birləşmiş Ştatların da baxışı belə olub ki, Qarabağın və işğalda olan torpaqlarımızın kimə məxsusluğu məsələsi önəmli deyil. Təki iqtisadi planlar gerçəkləşsin. O planlar ki, təməlində siyasi amillər dayanıb. Daha doğrusu, Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq məqsədi. Uzun müddət Ermənistandakı hakim siyasi elita həmin məqsədin reallaşmasına maneçilik törədib. Bu gün həmin elitanın yerini Qərbpərəst Nikol Paşinyan tutub. Üstəlik, işğal faktoru aradan qalxıb. Ona görə də Blinken və O’Brayn, bir növ, tələsir, Libbi isə az qala minnət qoyur. Təxminən belə: daha nə istəyirsiniz?

Bəli, ABŞ başda olmaqla kollektiv Qərb məsələlərə səthi yanaşma nümayiş etdirir. Axı dünyada erməniləri yaxşı tanıyırlar. Erməni amilinin mahiyyətinə və xislətinə gözəl bələddirlər. Ancaq stereotipləri bilə-bilə Azərbaycanın qaldırdığı təminat məsələsinin üzərindən keçirlər. Diqqət yetirək, sülh müqaviləsi fonunda regionun iqtisadi baxımdan inkişaf etməsi, rifah və sair bu kimi gözəl səslənən fikirlər önə çəkilir, ancaq mahiyyətdən söz açılmır. Yəni, rəsmi Vaşinqton detallara varmır. Vardığı bir detal var, daha dəqiq desək, məqsəd – Rusiyanı regiondan sıxışdırmaq. Bu isə o deməkdir ki, həm də erməni faktoru diri saxlanılsın və bütövlüklə, Qərbin nəzarətinə keçsin. Kim deyə bilər ki, sabah həmin faktor Azərbaycana qarşı təzyiq vasitəsi kimi nəzərdən keçirilməyəcək? Ölkəmiz məhz bunun olmamasına dair təminat istəyir. Ona görə də Ermənistan konstitusiyasının dəyişdirilməsi üzərində dayanır. Məsələ heç də başqa ölkənin daxili işlərinə qarışmaq deyil. Çünki erməni ana qanunu qonşulara qarşı ərazi iddiası ritorikasından çıxış edir. Bu, regional təhlükəsizlik üçün də təhdiddir, rifah və inkişaf baxımından da. İndi məsələ kənara qoyulacaqsa, deməli, gələcək üçün problem saxlanılacaq.

Digər tərəfdən, Ermənistan indiyədək heç nəyi öz xoşuna etməyib. Elə həmin Qərbpərəst N.Paşinyan vaxtilə “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verdi, danışıqlar prosesini dalana dirədi, 44 günlük müharibənin başlanmasına səbəb oldu. Müharibə Ermənistanın acınacaqlı məğlubiyyəti ilə başa çatdı. Ölkə kapitulyasiya aktına imza atdı, lakin bu akta – 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əməl etmədi. Qarabağda erməni silahlı birləşmələri saxlanıldı, əraziyə silah-sursat daşındı, rəsmi İrəvan Qarabağ erməniləri üçün beynəlxalq təminat kimi avantürizmə baş vuraraq, Azərbaycan yurisdiksiyasına diplomatik yolla meydan oxumağa girişdi. Nəticədə ölkəmiz 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirlərinə əl atdı, torpaqlarındakı separatizmi tarixin arxivinə gömdü.

Ermənistan rəhbərliyi bundan sonra da öz ambisiyasından əl çəkmədi – Qarabağı tərk etmiş ermənilərin bölgəyə qayıtmaları xüsusunda beynəlxalq təminat kampaniyasına başladı. Yenə Azərbaycan qanunvericiliyini saymazdan gəldi. Nəhayət, bütün bunların nəticə vermədiyini görəndə, məcbur qalıb delimitasiya və demarkasiya işlərinə razılıq verdi, Qazaxın dörd kəndini qaytardı və sair.

Ancaq Ermənistanın yerinə yetirmədiyi ən böyük öhdəlik qalır. Söhbət Naxçıvana yoldan gedir. O yol ki, ölkəmiz onu “Azərbaycandan Azərbaycana yol” kimi görür. Yəni, heç bir gömrük və sərhəd nəzarəti olmadan. Ermənistan bununla razılaşmayaraq, ərazi bütövlüyü və suverenlik məsələsini qaldırır. Görəsən, ABŞ Azərbaycanın sülh prosesindəki həllediciliyi məntiqini ictimailəşdirərkən bunu nəzərə alırmı? Nəzərə alırmı ki, Ermənistanı Paşinyan və komandasındakı şəxslərin dili ilə desək, “Dünyanın kəsişməsi” (layihə) nöqtəsinə gətirmək, həm də bölgədə erməni avantürizmi üçün perspektiv deməkdir? Azərbaycan bununla niyə və nə üçün razılaşmalıdır? Deməli, sülh müqaviləsi baxımından Ermənistan konstitusiyasının dəyişdirilməsi tələbindən sonra bu məsələ də aktuallığını qorumalıdır.

ABŞ-nin Azərbaycandakı səfiri M. Libbi “Bakı–Tbilisi–Ceyhan”dan danışırsa, nəzərə almalıdır ki, vaxtilə Qərb bu marşrutun da Ermənistan ərazisindən reallaşmasına çalışırdı. Ancaq ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində dünya miqyaslı nəhəng layihə Gürcüstandan keçdi, Ermənistan işğala görə ilk cəzasını aldı – təcriddə qaldı. Bu, Ulu öndərin böyük tarixi xidməti idi. İndi də oxşar durum var. Yenə Qərb erməni təəssübkeşliyinə girişib. İstəyir ki, qlobal tranzit yolu Ermənistan ərazisindən keçsin. Yuxarıda da bildirdiyimiz kimi, rəsmi Bakı belə bir formulla razı deyil və ən əsası, əgər “Bakı–Tbilisi–Ceyhan” məsələsində otuz il əvvəlki prinsipiallığımız Ermənistanın Gürcüstanla əvəzlənməsi reallığını doğurmuşdusa, indiki qətiyyətimizdə İran faktoru var. Yəni, rəsmi İrəvan Naxçıvana yolun “Azərbaycandan Azərbaycana yol” məntiqi ilə razılaşmayacaqsa, həmin yol İran ərazisindən keçəcək və Ermənistan yenə dalanda qalacaq. Durum bu qədər sadədir.

Söylədiklərimizin yekunu olaraq yenə Blinkenin şəxsində ABŞ-nin Azərbaycanın sülh prosesindəki həllediciliyini vurğulamasına qayıdaq. Hesab edirik ki, rəsmi Vaşinqton Cənubi Qafqazda əmin-amanlığa nail olmaq istəyirsə, prosesin bütün tərəfləri üzərində dayanmalı, qeyri-müəyyənliyə əsaslanmış təəssübkeşliyi deyil, soyuq prinsipləri rəhbər tutmalıdır.

Əgər Qərbdə Azərbaycanın regiondakı öncül mövqeyi qəbul edilirsə, bu yanaşma şəksiz olmalıdır. Ölkəmizin regionun, elə Ermənistanın da gələcəyi baxımından verdiyi təminatlara söykənilməlidir, nəinki rəsmi İrəvanın ərazi bütövlüyü və suverenlik kimi avantürizmi hədəf seçən siyasi spekulyasiyasına. Düşünülməlidir ki, Cənubi Qafqaz coğrafiyasında erməni dövləti varsa və hələ də varlığını sürdürürsə, bu, xalqımızın erməni qövmü üçün böyük lütfüdür. Bu qövmə hansısa əlavə üstünlüklər qazandırmaq sülh təşəbbüsü yox, ədalətsizlikdir. Azərbaycan isə bundan sonra heç bir ədalətsizliyə imkan və şərait verməyəcək. Bunu ABŞ da, ümumən kollektiv Qərb də bilməli və birmənalı şəkildə dərk etməlidir.

***Ə.CAHANGİROĞLU XQ***

# Çinin BYD şirkəti ölkəmizdə yeni istehsal sahələri quracaq



**İyulun 2-də Baş nazirin müavini Şahin Mustafayevin iştirakı ilə keçirilən görüşdə ölkəmizdə avtobus parkının yerli istehsal hesabına təmin edilməsi məqsədilə Çinin “BYD Company Limited” (BYD) şirkəti ilə çərçivə sazişi imzalanıb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, sazişi iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov, BYD şirkətinin kommersiya avtomobilləri üzrə icraçı direktoru Tien Çunlon və “Electrify Azerbaijan” MMC-nin direktoru Tariyel Rüstəmov imzalayıblar. Çərçivə sazişi elektrik mühərrikli avtobusların alınmasını, onlara xidmətin göstərilməsini, ölkəmizdə istehsalın qurulmasını və lokallaşdırılmasını nəzərdə tutur.

Tədbirdə çıxış edən Baş nazirin müavini Şahin Mustafayev Azərbaycan və Çin prezidentlərinin birgə səyləri ilə ölkələrimiz arasında ikitərəfli münasibətlərin bu gün bütün sahələrdə uğurla inkişaf etdiyini bildirib. Əlaqələrimizin dostluq, qarşılıqlı anlaşma və dəstək prinsiplərinə əsaslandığı qeyd olunub.

Bildirilib ki, Çin şirkətlərinin Azərbaycanda rahat və səmərəli fəaliyyət göstərməsi üçün bütün lazımi şərait təmin edilib və çoxsaylı Çin şirkətləri ölkəmizdə yaradılan əlverişli və şəffaf biznes mühitindən bəhrələnir. BYD şirkəti ilə əməkdaşlığın uğurlu olacağına və bu gün imzalanacaq sənədlərin Azərbaycan–Çin qarşılıqlı faydalı əlaqələrinin daha da genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Bu il Azərbaycanın ev sahibliyi edəcəyi Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP 29) ərəfəsində sözügedən müqavilənin imzalanması ölkəmizin iqlim dəyişiklikləri ilə mübarizə üzrə qlobal səylərə sadiqliyini bir daha vurğulayır. Saziş çərçivəsində BYD şirkəti ölkəmizdə əlavə dəyər zəncirinin inkişaf etdirilməsi məqsədilə yeni istehsal sahələrinə də investisiya qoymağı nəzərdə tutur. Belə ki, şirkətlə 2026-cı ildən aşağıtonnajlı yük elektrik avtomobillərinin, kommunal təsərrüfat üçün elektrik mühərrikli avtonəqliyyat vasitələrinin, elektrik mühərrikli minik avtomobilinin istehsalı və 2028-ci ildən isə elektrik enerjisinin saxlanması üçün batareyaların yığımı kimi sahələrdə əməkdaşlıq planlaşdırılır. Bu layihələrə şirkət tərəfindən ümumilikdə təqribən 60 milyon ABŞ dolları məbləğində əlavə investisiyanın qoyulması planlaşdırılır.

Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə elektrik mühərrikli avtobusların ölkəmizdə bu sahədə istehsalı həyata keçirəcək şirkətdən alınmasına qərar verilib. Azərbaycanda elektrik mühərrikli avtobus istehsalı müəssisəsi fəaliyyətə başladıqdan sonra isə tələbat daxili istehsal hesabına ödəniləcək. Hazırkı mərhələdə “BakuBus” MMC tərəfindən BYD şirkətindən 160 ədəd elektrik mühərrikli avtobus və 100 ədəd enerjidoldurma aparatı alınacaq. Avtobusların 2024-cü il oktyabrın 31-dək mərhələli şəkildə gətirilərək Bakı şəhərində marşrut xəttinə çıxarılması planlaşdırılır.

BYD ilə əməkdaşlıq çərçivəsində 2025-ci ildə yerli istehsalın qurulması və ehtiyat hissələrinin mərhələli şəkildə lokallaşdırılması planlaşdırılır. Lokallaşdırılmanın 2030-cu ilədək avtobusların ümumi maya dəyərinin 40 faizini təşkil etməsi nəzərdə tutulur. Layihə ilə bağlı müqavilənin bu ilin sentyabr ayında imzalanması planlaşdırılır.

Ölkəmizdə elektrik avtobuslarının istehsalı layihəsində “Azərbaycan İnvestisiya Şirkəti” ASC payçı kimi iştirak edəcək. Layihə üzrə BYD şirkətinin Azərbaycandan olan tərəfdaşı “SARDA Group” şirkətlərinə məxsus “Electrify Azerbaijan” MMC-dir.

Çinin BYD şirkəti tərəfindən Sumqayıt Kimya Sənaye Parkında qurulacaq zavodda elektrik mühərrikli avtobusların istehsalına ilkin olaraq 34 milyon ABŞ dolları həcmində investisiyanın qoyulması nəzərdə tutulub. Şirkət tərəfindən daxili tələbat və ixrac imkanları nəzərə alınmaqla illik istehsal həcminin 500 ədəd olması nəzərdə tutulur. Layihə çərçivəsində 800 yeni iş yerinin yaradılması planlaşdırılır.

***XQ***

# Sözümüz və şərtimiz dəyişməzdir

## Vaşinqtonun intensivləşən səyləri, İrəvanın tərsliyi və Bakının dəmir məntiqi...

**Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında müəyyən fasilə yaransa da, tərəflər arasında sazişin mətni ilə bağlı məsafəli işgüzar müzakirələr, sərhədlərin delimitasiyası üzrə hökumətlərarası komissiyanın işi davam etdirilir. Xəbər verdiyimiz kimi, keçən həftə Bakı Ermənistan tərəfinin hazırda üzərində işlədiyi sülh sazişinin mətni ilə bağlı özünün növbəti, 10-cu təkliflər paketini İrəvana göndərib. İndi növbə qarşı tərəfindir. Fəqət, danışıqların növbəti raundunun nə vaxt və harada keçiriləcəyi barədə hələlik dəqiq məlumat yoxdur. Onu da yada salaq ki, sülh danışıqlarının iki ölkənin XİN rəhbərləri arasında sonuncu raundu mayın 10-11-də Almatı şəhərində keçirilib.**



Artıq üçüncü tərəfin vasitəçiliyi olmadan, ikitərəfli formatda aparılan sülh danışıqlarının müsbət sonluqla yekunlaşmasına nəyin mane olduğu hamıya məlumdur. Rəsmi Bakı Ermənistandan sülh sazişinin imzalanmasının əsas şərti kimi öz konstitusiyasına dəyişikliyin edilməsini və Azərbaycana qarşı ərazi iddiaları ehtiva edən müddəaların çıxarılmasını tələb edir. Danışıqların əsas müzakirə predmetinə çevrilmiş bu məsələ ilə bağlı Ermənistan tərəfinin mövqeyi ziddiyyətlidir. Paşinyan komandası bir tərəfdən yeni konstitusiya layihəsi üzərində işlədiyini bəyan edir, digər tərəfdən isə bu mövzunun danışıqların predmeti olmadığını, Ermənistanın daxili işi olduğunu bildirir. Bəli, Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edən rəsmi İrəvanın sərgilədiyi bu cür qeyri-müəyyənlik qətiyyən yolverilməzdir.

***

"28 illik bir dövrdə razılaşdırıla bilməyən məsələlərinin 1-2 ilə həll edilməsi çətindir". Bunu Azərbaycan Prezidenti İlham Əliyev Kanadanın yeni təyin olunan səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul edərkən deyib. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan ilə Ermənistan arasında substantiv danışıqlara demək olar ki, dekabr ayında başlanılıb: "Çünki ondan əvvəl Ermənistan sülh müqaviləsinə "Dağlıq Qarabağ" məsələsini salmaq istəyirdi və bu, qəbuledilməz idi". Azərbaycan daxili məsələsini həll etdikdən, separatçı rejim ləğv olunduqdan sonra keçən ilin dekabrından başlayaraq danışıqların getdiyini səfirin nəzərinə çatdıran İlham Əliyev buna müəyyən zamanın tələb olunduğunu bildirib: "Əlbəttə, sülh sazişinin başlıca şərti Ermənistan konstitusiyasının dəyişdirilməsidir. Çünki onun tərkibində Azərbaycana qarşı ərazi iddiaları var və bu, baş verməyənə qədər sülh sazişi imzalanmayacaq. Bu, məlum məsələdir". Azərbaycan Prezidenti onu da qeyd edib ki, işğal dövründə vasitəçilərin planı Madrid prinsipləri adlandırılan əsas prinsiplərlə bağlı razılığa gəlməkdən ibarət idi: "Onlar paraflanmalı və daha sonra mətn tərtib edilməli idi. Hesab edirik ki, bu, bir variant ola bilər – əsas prinsiplərlə bağlı razılıq əldə edilsin, onlar paraflansın və daha sonra mətn üzərində iş getsin".

İlham Əliyev səfir Kevin Hamiltonun ermənilərin Qarabağa qayıdış hüququ barədə şərhinə cavab olaraq deyib ki, keçən yüzillikdə, sonuncusu 1988-ci ildə olmaqla müxtəlif mərhələlərdə Azərbaycan əhalisi indiki Ermənistan ərazisindən qovularaq etnik təmizləməyə məruz qalıb, onlara aid maddi-mədəni irs tamamilə dağıdılıb: "Qayıdış hüququ qarşılıqlı şəkildə təmin olunmalı, o cümlədən də Qərbi Azərbaycan İcmasının nümayəndələrinə şamil edilməlidir".

Göründüyü kimi, Ermənistan və Azərbaycanın sülhə həmişəkindən daha yaxın olması barədə Avropadan, okeanın o tayından dövlət rəsmilərinin və diplomatların dilindən səslənən nikbin bəyanatlara baxmayaraq, danışıqlar tunelinin sonunda "yaşıl işıq" nəzərə çarpmır. Son aylar ABŞ-nin timsalında "yaşıl işığın" yanması üçün intensiv və ciddi səylər müşahidə olunur. Əgər Vaşinqtonun artıq bir ilə yaxındır İrəvan və Bakı arasında vasitəçi kimi danışıqlarda iştirak etməməsi faktını nəzərə alsaq, Ağ Evin bölgədə aşkar fəallaşması bir qədər qəribə görünür. ABŞ Dövlət Departamentinin yüksək çinlilərinin Cənubi Qafqaza ardıcıl səfərləri, baş diplomat Antoni Blinkenin telefon zəngləri, nəhayət, onun müavini Ceyms O'Braynın Bakıya turnesi kənar müşühidəçidə maraqlı assosiasiyalar doğurur.

***

Rəsmi Vaşinqton tərəfləri mümkün qədər tez sülh müqaviləsini imzalamağa və Zəngəzur dəhlizi boyunca nəqliyyat əlaqələrini bərpa etməyə inandırmağa çalışır. Bu zaman təbii ki, dəhliz 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda deyildiyi kimi, Rusiya FSB-nin deyil, suveren Ermənistanın və ya neytral ölkənin özəl şirkətinin nəzarəti altında fəaliyyət göstərməlidir. Bu da vaşinqtonlu elçilərin gətirdiyi son layihələrdən hesab olunur. Məsələyə daha geniş aspektdə yanaşsaq, Azərbaycanla Naxçıvan arasında Ermənistan ərazisindən keçən dəmir yolu əlaqəsi Vaşinqtonun dəstəklədiyi Orta dəhlizin (Transxəzər beynəlxalq nəqliyyat dəhlizi – red.) Rusiyadan yan keçən bir hissəsinə çevrilməlidir.

Bu arada Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin yaxın günlərdə Vaşinqtonda keçiriləcək sammit çərçivəsində NATO tərəfdaşları ilə görüşmək üçün rəsmi dəvəti də təsadüfi saymaq olmaz. Ermənistan sammitdə iştirak edəcəyini dərhal təsdiqləyib. Əgər Bakı da həmin sammitdə iştiraka razılıq versə, o zaman Ceyhun Bayramovla Ararat Mirzoyan arasında ABŞ paytaxtında görüşü təşkil etmək mümkün olacaq. Bu da Vaşinqtonun irəli sürdüyü yeni ideyadır.

Onu da yada salaq ki, Ermənistan–Azərbaycan sülh danışıqlarının Vaşinqton formatı bir il əvvəl Bakının vasitəçisiz danışıqlara üstünlük verməsindən və bu platformaya qayıtmaqda maraqlı olmamasından sonra donduruldu. Bakıda keçirdiyi brifinqdə Ceyms O`Brayn Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında Vaşinqtonda mümkün görüşü barədə birbaşa danışmasa da, ABŞ-nin bunu təşkil etməyə, sadəcə, hazır olduğunu bildirib.

***

Ağ evin son təşəbbüsünün İrəvanın ürəyincə olduğunu söyləməyə ehtiyac duymuruq. Bunu hayların sosial şəbəkədə paylaşdıqları şərhlərindən aydın görmək mümkündür. Misal üçün, C.O`Braynın Bakıda səsləndirdiyi fikirlərə münasibət bildirən erməni siyasi şərhçi Akop Badalyan Vaşinqtonda Azərbaycan–Ermənistan sülh danışıqlarının bərpa oluna biləcəyini istisna etməyib: "Əgər növbəti görüşün təşkili ilə bağlı təşəbbüs olarsa, məncə, burada əsas şərt Vaşinqtonun tərəfləri hansısa razılaşmaya, yaxud nəticəyə gətirmək imkanını nə dərəcədə görəcəyi ilə bağlı olacaq".

Erməni bloger baş tuta biləcək Vaşinqton dialoqunda sülh sazişindən danışılmasa da, bəlkə, məsələn, apreldə Tavuşun sərhədyanı əraziləri ilə bağlı baş verdiyi kimi, sərhədin delimitasiyası barədə qismən razılaşmanın mümkünlüyünün nəzərdən keçirilə biləcəyini güman edir. A.Badalyanın fikrincə, ABŞ üçün əsas odur ki, strateji prioritetlərindən irəli gələn şərtlərlə iki ölkə arasında kommunikasiya kanallarının blokdan çıxarılması yavaş-yavaş, amma məqsədyönlü şəkildə baş versin.

Aydın məsələdir ki, Vaşinqtonun bölgədə fəallaşmasının alt qatında Rusiya, Çin və İranın təsirini zəiflədəcək Orta Asiyadan Aralıq dənizinə ticarət yolunun inşasına maksimum töhfə vermək niyyəti dayanır. Bakı Ağ Evin bu təşəbbüs və təkliflərinə birmənalı cavab verməsə də, bütün hallarda Azərbaycanın milli maraqları ilə üst-üstə düşən layihələrə yox deməyəcək. Bu zaman Ermənistanın bu layihələrdə iştirakına gəldikdə isə bu, onun Bakının sülh sazişinin mətninə saldığı şərtləri nə dərəcədə operativ yerinə yetirməsindən asılı olacaq.

**İmran BƏDİRXANLI**
**XQ**

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı**

Ermənistanla Azərbaycan arasında sülh sazişi üzərində iş davam edir. Mətnin onuncu variantında Bakı açıq şəkildə Qarabağa ərazi iddialarını ehtiva edən müddəaların Ermənistan konstitusiyasından, digər qanunvericiliyindən çıxarılmasını tələb edib. Paşinyan hökuməti, ona yaxın analitiklər bunun qeyri-mümkün olduğunu iddia edirlər. Çünki hakimiyyət referendumda qənaətbəxş nəticəni əldə edəcəyinə əmin deyil. Deyəsən, İrəvan özü-özünü dalana dirəyib. Amma çıxış yolu tapmaq olar. Bunun kifayət qədər sadə hüquqi həll variantı var. Doğrudan da, Ermənistan konstitusiyasında Qarabağ birbaşa qeyd olunmur. Yalnız preambulada irredentist müddəaları özündə əks etdirən Müstəqillik Bəyannaməsinə istinad var. Bu da Ermənistan SSR Ali Sovetinin və "Dağlıq Qarabağ Milli Şurasının" 1989-cu il 1 dekabr tarixli qərarıdır.

İndi erməni siyasətçiləri və ekspertləri bu sənədin tarixə aid olduğunu və heç bir hüquqi qüvvə daşımadığını bildirirlər. Əgər belədirsə, onda hakim "Mülki Müqavilə" partiyasının mütləq çoxluğa malik olduğu Ermənistan parlamentinin "Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşdirilməsi haqqında" qərarını hüquqi cəhətdən etibarsız sayan qətnamə qəbul etməsinə nə mane olur?

Axı baş nazir Paşinyan özü açıq şəkildə "real" Ermənistanın "tarixi" Ermənistandan üstünlüyü barədə tezisi irəli sürüb. Reallıq budur ki, İrəvanın BMT-yə təqdim etdiyi xəritələrdə Ermənistan və "Dağlıq Qarabağın" birləşdirilməsi ilə bağlı qərar yerinə yetirilmədi. Yəni, "Dağlıq Qarabağ" nə hüquqi, nə də faktiki olaraq mövcuddur. Parlamentin müvafiq qərarından sonra konstitusiyada Ermənistanın Müstəqillik Bəyannaməsinə istinad məzmununu itirəcək, tərəflərin bir-birinin ərazi bütövlüyünü tanıması qeyri-müəyyənliklə yüklənməyəcək. Prezident İlham Əliyev Kanadanın Bakıya yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən danışıqlarda əldə olunan irəliləyişin Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanmasının razılaşdırılmış əsas prinsiplərinin paraflanmasına icazə verməsi bunu nəzərdə tutur.

### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Qərbin bəzi siyasətçilərinin və diplomatlarının sülhlə bağlı düşüncələri, sanki, hansısa fantastik ideyalara söykənir. Heç inanmaq istəməzdim ki, böyük dövlətlərin siyasətçiləri Cənubi Qafqazda cərəyan edən proseslərdən xəbərsiz olsunlar. Yəni, o adamlar yüz minlərlə azərbaycanlının vaxtilə Ermənistandan departasiya edildiyini bilmirlər? Bunlar keçən əsrin ortalarında, 80-ci illərin sonlarında rəsmən qeydə alınmış o qədər dəqiq və aydın faktlardır ki, mübahisəyə yer yoxdur. Kanadanın yeni səfirinin dilə gətirdiyi tezisə Azərbaycan tərəfindən dəfələrlə tutarlı cavab verilib. Dövlətimizin başçısı həmin tarixi həqiqəti qəti və prinsipial şəkildə səfirin diqqətinə çatdırdı. Bu, bir növ, müəllimin şagirdə dərsi izah etməsi formasında yerinə yetirildi.

Azərbaycan yalnız qarşılıqlı şəkildə erməniləri ərazimizə qaytara bilər. Əlbəttə ki, bu məsələdə müəyyən şərtlər də mövcuddur. Həmin şərtlər hamıya, o cümlədən Kanadanın ölkəmizdəki yeni səfirinə və onu buraya göndərən rəsmi dairələrə də bəllidir. O ki qaldı, Ermənistan konstitusiyasındakı müddəalara, aydın məsələdir ki, dəyişiklik mütləq xarakter daşıyır. Başqa nə cür ola bilər? Bir tərəfdən Azərbaycanla sülh sazişi imzala, o biri tərəfdən isə əsas qanununda ölkəmizə qarşı ərazi iddialarını daxili sənəd kimi qələmə ver?! İrəvan bu yolla kimi aldatmağa çalışır? Azərbaycanı aldatmaq mümkün deyil. Zəngəzur dəhlizi də mütləq şəkildə açılmalıdır. Çünki hayların baş naziri 2020-ci ili noyabrın 10-da öz imzası ilə bu öhdəliyi boynuna götürüb. İndi o, bunu, sadəcə olaraq, yerinə yetirməlidir. Bu məsələ ilə bağlı Bakının qəti və prinsipial mövqeyinin bundan sonra da dəyişməyəcəyinə əminəm.

---

## REPLİKA

# Sarsaq TV

**Bakı–İrəvan sülh sazişinin gündəmdə olduğu bir vaxtda Ermənistanda "Artsax" adlı telekanalın fəaliyyətə başlayacağına dair xəbərlər yayılıb. Həmin telekanalda nəyin nümayişinin daha münasib olduğunu yazımızın ikinci hissəsində vurğulayacağıq. Hələlik isə bəzi təfərrüatları açıqlayaq.**

"Artsax" telekanalı" ilə bağlı məlumatı Qarabağdan olan hüquq müdafiəçisi Qeqam Stepanyan yayıb. Daha doğrusu, özünün facebook səhifəsində bu barədə paylaşım edib. Özü də telekanalın fəaliyyətini bərpa edəcəyi şəklində. Sən demə, separatçı rejim mövcud olduğu vaxtlarda Qarabağda belə bir sərsəm "media qurumu" da olubmuş. Q.Stepanyan isə bildirib ki, televiziyanın işini yenidən qurmasında məqsəd erməni kimliyini qorumaqdır. Eyni zamanda, "Artsax" ləhcəsi deyilən ləhcəni və "yerli xüsusiyyətləri" də.

Stepanyan, həmçinin Qarabağ ermənilərini narahat edən məsələlər barədə də telekanalın verilişlər hazırlayacağından danışıb. Əlbəttə, erməni hüquq müdafiəçisinin telekanalın "fəaliyyət diapazonu" barədə nələri bildirməsinin heç bir önəmi yoxdur. Başlıca məsələni yazımızın birinci cümləsində anons etdik – Azərbaycan–Ermənistan sülh gündəmi var və belə bir durumda ölkəmizin ərazi bütövlüyünü və suverenliyini təhdid edən məsələ gündəmə gətirilir. Ən başlıcası isə Ermənistan hakimiyyəti belə "ideyaların" gerçəkləşdirilməsi niyyətinə münasibətdə susqunluq göstərir.

Əslində, bəlkə də "Artsax" televiziyası" məntiqində təəccüblü heç nə yoxdur. O anlamda ki, Ermənistan konstitusiyasının istinad etdiyi istiqlaliyyət bəyannaməsində Azərbaycana, o cümlədən Türkiyəyə qarşı qarşı ərazi iddiası yer alırsa, deməli, kimlərinsə bu iddiaya "ideoloji məzmun" qazandırmaq istəkləri, vaxtılə mövcud olmuş "media qurumunu" yenidən işə salmaq niyyətləri adi hal kimi görünə bilər. Erməni təfəkkür tərzi üçün avantürizmi yaşatmaq elə bir çətinlik törətmir.

Hər bir halda Ermənistan hakimiyyəti məsuliyyətini dərk etməlidir. Anlamalıdır ki, kövrək sülh gündəminə qarşı çıxacaq hər meyil beşiyindəcə boğulmalıdır. Əks halda, bunun fəsadları, istər-istəməz, yaranacaq. Fəsadlardan söz düşmüşkən, bir yanda sülh sazişi ilə bağlı guya ki, iradə ortaya qoyan rəsmi İrəvan Fransadan silah-sursat tədarükünə baş vurursa, deməli, "Artsax TV" adlı "media məhsuluna" da təəccüblənməməliyik. Nə isə indi isə gələk haqqında söz açacağımızı bildirdiyimiz məqama. Yəni, "Artsax" telekanalı üçün şərti olaraq müəyyənləşdirdiyimiz ilk proqrama.

***

Məlumdur ki, Qarabağdakı sabiq separatçı rejim ərazini həm də narkotik plantasiyasına çevirmişdi. Bununla əlaqədar faktlar və sübutlar indi də var, işğal illərində də olub. Görünür, separatçıların ən son lideri, Bakı həbsxanasından canını qurtarmağı bacarmış, hazırda İrəvanda yaşayan Samvel Şahramanyan köhnə şakərindən daşınmayıb. Sən demə, bu adamın xidməti avtomobili də var imiş və həmin avtomobil Ermənistanda narkotiklərin dövriyyəsi ilə bağlı müsadirə olunub. Məlumatı ölkənin istintaq komitəsi yayıb. Xüsusi təyinatlılar isə Samvelin avtomobilini evakuatora yükləyib aparıblar.

Qeyd edək ki, bu ilin fevralında S.Şahramanyanın mühafizəçisi Aşot Danielyan da Ermənistan hüquq-mühafizə orqanlarının təmsilçiləri tərəfindən saxlanılmışdı. O da həmin vaxt narkotik vasitələri saxlamaqda və satmaqda şübhəli bilinmişdi. Lakin sonradan sərbəst buraxılmışdı. Görünür, erməni iqtidarı Danielyandansa Şahramanyanı məsuliyyətə cəlb etməyi üstün tutub. Hələlik, onun avtomobili əlindən alınır. Böyük ehtimalla, belə tədbirlər davamlı olacaq və bu nəticəyə gəlmək mümkündür ki, "Artsax" telekanalı üçün də mövzu var. "Media qurumu" narkotik və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsi və sair bu sayaq məsələlərə dair materiallar yayımlaya bilər. Lazım olsa, ona Bakı həbsxanasından da dəstək verilməsi mümkündür. Hər halda Şahramanyan, necə deyərlər, dünənin uşağıdır, ondan daha ciddi "narkobaronlar" ölkəmizdə barələrində veriləcək yekun hökmü gözləyirlər.

Hökmdən söz düşmüşkən, sonda bir daha Ermənistan hakimiyyətinin sülh məsuliyyəti barədə söz açaq. Ola bilər, baş nazir Nikol Paşinyan administrasiyasının "Artsax TV" adlı sərsəmlikdən xəbəri yoxdur. Yəni, onun məsələyə dair xeyir-duası istisnadır. Ancaq xəbərsizlik məsuliyyət məsələsini ikinci plana atmır. Yaxşı olar ki, rəsmi İrəvan bu barədə düşünsün və bütövlükdə, ölkənin gələcək varlığı baxımından yekun hökmün çıxarılacağı hazırkı mərhələdə həssaslıq nümayiş etdirsin, daxildə sülh gündəminə zidd fəaliyyətlərin qarşısını almaqda qətiyyət və iradə göstərsin.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Paşinyanın çətin sualı

**İki ay bundan əvvəl Ermənistanın Avropa İttifaqına (Aİ) üzvlüyü ilə bağlı referendum keçirmək barədə ağızdolusu danışan hayların baş naziri Paşinyan indi bu ideyanın mənasız olduğunu bildirib.**

Aİ-yə münasibətinin yüz səksən dərəcəlik bucaq altında dəyişməsinə Paşinyan özünəməxsus şəkildə aydınlıq gətirib: "Mən özüm də Avro Parlamentin tribunasından bildirmişdim ki, Ermənistan Aİ-nın mümkün hesab etdiyi qədər ona yaxınlaşmağa hazırdır. Əgər düşünsəydim ki, erməni xalqı bu fikri bölüşmür, belə bəyanat verməzdim. İndi nə edək? Xalqın fikrini öyrənmək üçün referendum keçirək? Bağışlayın, Ermənistan xalqını təmsil etmək səlahiyyətinə malik məmur kimi, mən xalqın rəyini bilirəm. İndi referendum keçirmək lazımdır? Əgər referendum olacaqsa, o zaman təbliğat kampaniyası aparmalı olacağıq. Bu halda insanlar bizə sual verəcəklər: Aİ-yə necə, nə vaxt, hansı addımlarla gedirik? Bəs, Aİ bunu istəyir, ya yox? Onlar mənə deyəcəklər: siz bəyan etdiniz ki, Ermənistan Aİ-nin mümkün hesab etdiyi qədər ona yaxınlaşmağa hazırdır. İndi sual olunur: Aİ özü buna nə dərəcədə hazırdır? Bu gün bu çətin suala cavab verə bilmirəm".

Amma hayların spikeri Aİ ideyasını heç də "siyasi blef" saymır. "Ermənistan tezliklə Aİ-yə daxil olmaq arzusundadır". Milli assambleyanın sədri Alen Simonyan Latviyaya səfəri zamanı referendumun keçiriləcəyi barədə danışanda belə deyib. O, erməni xalqının Avropaya inteqrasiyanı seçəcəyinə əmindir. Bəlkə də Soros Fondunun yetirməsi və onların kreativ kadrı Alen Simonyan Aİ-nin qollarını gen açıb, Ermənistanı bağrına basmağa hazır olduğuna səmimi qəlbdən inanır. Bu istək onun müstəsna hüququdur və yeri gələndə pünhan arzularını baş nazirlə bölüşməyə də bilər.

İntəhası, qafqazlılar bu tragikomediyaya artıq baxıblar. Bədbin sonluqla bitən həmin filmin birinci hissəsi Gürcüstanda, ikinci seriyası Ukraynada "lentə alınıb". Üçüncü hissənin "sınaq çəkilişləri" isə Moldovada həyata keçirilir. Əslində isə hər şey olduqca bəsit və bayağıdır. Bu üç ölkəni anti-Rusiya ritorikası ilə silahlandıran Qərb bunun müqabilində onları Aİ-yə üzvlüklə şirnikləndirdilər. Günlərin bir günü onlar Şimal ayısının caynağı ilə üz-üzə qalanda isə sakitcə səhnədən çəkildilər. Əslində, indi Ermənistandan ötrü də orada heç kəsin gözü-qaşı tərpənmir. Elementar məntiq deyir ki, əgər Ukrayna kimi on milyonla əhalisi, təbii enerji resursları, nəhəng aqroparkı olan ölkə Aİ-yə tamhüquqlu üzv kimi qəbul olunmayıbsa, deməli, Ermənistan barədə danışmaq hələ tezdir.

Amma bütün bunlara baxmayaraq, yeni nəsil haylar bu arzularına çatacaqlarına inanırlar. Bu da təsadüfi deyil. Axı, əsasən, Soros Fondundan çıxan və buna görə də Qərbə belə "virtual səyahət"in Ermənistan üçün hansı fəlakətlərə səbəb ola biləcəyinin təhlilinə dərindən baş vura bilməyən, aldadıcı ilğım kimi Avropanın üzərinə cuman İrəvanın siyasi elitasını qınamağa tələsməyək. Maraqlıdır ki, indi Tbilisidə Ermənistanın bu "şirin istəklərinə" açıq şəkildə gülürlər. Bu gülüşün sədaları may ayından – baş nazir Paşinyanın Ermənistanın 2024-cü ildə Aİ-yə daxil olmaq niyyətini əminliklə bəyan etdiyi andan yayılmağa başlayıb.

Yəni, Aİ ilə bağlı Ermənistan cəmiyyətində start verilən bütün bu piar kampaniya bir barmağın işarəsi ilə başlandığı kimi, baş nazirin çıxışı ilə də başa çatmaq üzrədir. Çünki Paşinyan iki aydan bəri axtardığı çətin və açıq test sualın məntiqi izahını fəhmi ilə tapıb. Ən azından, hayların baş naziri Aİ-yə üzv olmağın nə qədər uzun və məşəqqətli yollardan geçəcəyini artıq bilir. Şübhə etmirik ki, bu məsələ ona Avropadan kənarda bir neçə dəfə yerli-yataqlı şəkildə izah edilib.

Dünən bizim gördüyümüz və eşitdiyimiz tamamilə başqa bir erməninin çıxışı idi. Hələ eyforik vəziyyət aradan qalxmayıb. Burada Brüsselin rəsmi İrəvanın yeni jestinə Bakı və Moskvanın hansı reaksiyanı verəcəyi gözləntiləri də var. Ola bilsin ki, qərbli dirijorlar İrəvanı bir müddət bu havanın üzərində oynamağa razı salıblar. Bizə isə bir qədər səbirli olub, antraktı gözləmək qalır...

**İ.HƏSƏNQALA**
**XQ**

# Azərbaycan polisinin xidməti dövlətə və xalqa sədaqət nümunəsidir



**Azərbaycan polisinin yaranmasının 106-cı ildönümü münasibətilə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov və nazirliyin rəhbər heyəti Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin abidə kompleksi önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi ehtiramla yad edilib.**

Respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı da ziyarət olunub.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında nazir, general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə 2 İyul – Azərbaycan Polisi Gününə və 2023–2024-cü tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, habelə respublikamızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi yad olunub.



Sonra peşə bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ötən 106 ildə polisin keçdiyi şərəfli və zəngin xidmət yolundan, yaratdığı dəyərli ənənələrdən, xüsusən, ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruhlu vətənpərvər kadrlarla möhkəmlənməsi sahəsində görülən mühüm işlərdən danışıb.

Daxili işlər orqanlarının fəaliyyətində yeni bir mərhələ təşkil edən son 21 ilin inkişaf və təkmilləşmə baxımından xüsusilə əhəmiyyətli bir dövr olduğuna diqqət çəkən nazir Vilayət Eyvazov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan islahatlar çərçivəsində, həmçinin xüsusi diqqət və qayğısı sayəsində – Daxili İşlər Nazirliyində güclü və müasir maddi-texniki baza yaradıldığını, zamanın çağırışlarından irəli gələn struktur dəyişikliklərin aparıldığını, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi, peşə hazırlığının artırılması sahəsində sistemli tədbirlərin həyata keçirildiyini vurğulayıb.

Cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında önəmli xidmətləri ilə seçilən polis orqanlarının hər bir şəxsin qanuni mənafeyini, hüquq və azadlığının müdafiəsini yüksək səviyyədə təmin etdiyini vurğulayıb. Nazir xidməti vəzifələrin dəqiq və qüsursuz yerinə yetirilməsində dürüstlük, prinsipiallıq və məsuliyyət kimi keyfiyyətlərin böyük önəm kəsb etdiyini, cinayətlərin açılmasının yüksək səviyyədə saxlanılmasının, hüquqpozmaların profilaktikasının daha da yaxşılaşdırılmasının, orqan və hissələrin mürəkkəb şəraitdə xidmət aparmaq bacarıqlarının artırılmasının, bütövlükdə, xalqa xidmət funksiyalarının daha təkmil icrası üçün əlavə tədbirlərin həyata keçirilməsinin başlıca vəzifələr olduğunu şəxsi heyətə çatdırıb.

Nazir qeyd edib ki, 2003–2024-cü illərdə cinayətlərin qarşısının alınması, açılması, istintaqı, bütövlükdə, vətəndaşların qanuni mənafelərinin qorunması sahəsində davamlı iş aparılıb, o cümlədən 25 minə yaxın cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 35 mindən çox odlu silah yığılıb və onun tətbiqi ilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb. Cinayətlərin orta hesabla 87 faizinin açılması təmin olunub, axtarışda olan 77 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 25 tona yaxın narkotik vasitə çıxarılıb.

Vətəndaşların ərizə və şikayətlərinin obyektiv və həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin səmərəli icrasının vacibliyinə toxunan nazir, həmçinin cinayətkarlıqla mübarizədə, xüsusən, narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasında vətəndaşların iştirakını, onların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyatların keçirildiyini də vurğulayıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında möhtəşəm Qələbəmizlə nəticələnmiş Vətən müharibəsindən sonra regionda yeni reallıqların yarandığını deyən V.Eyvazov işğaldan azad edilmiş ərazilərdə "Böyük Qayıdış"ın gerçəkləşməsi üçün polis orqanlarının, o cümlədən Daxili Qoşunların fəaliyyətinin mövcud vəziyyətə uyğunlaşdırıldığını, asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyini, xidmətin böyük əzm və peşəkarlıqla davam etdirildiyini bildirib.

Nazir xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, qeyri-hökumət təşkilatlarına və media nümayəndələrinə təşəkkürünü bildirib.

Qazanılan uğurlarda Azərbaycan polisinin müasir dünyagörüşlü yeni nəslini Vətənə, dövlətə, xalqa sevgi və xidmət ruhunda yetişdirən Polis Akademiyasının rolunu xüsusi qeyd edən V.Eyvazov məzunlara təhsili başa vurmaları münasibətilə təbriklərini çatdırıb, eləcə də bu təhsil müəssisəsini baş leytenant rütbəsi ilə bitirmiş məzunlara fərqlənmə diplomlarını təqdim edib.

General-polkovnik Vilayət Eyvazov təntənəli mərasimin iştirakçıları adından Prezident İlham Əliyevi əmin edib ki, öz andına həmişə sadiq olan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarığını əsirgəməyəcək.

***XQ***

**Haqlı deyiblər ki, yanlış da bir naxışdır. Bir neçə gün əvvəl – silahlı quldura qarşı əməliyyat keçirən vətənpərvər, andına və dövlətinə sadiq olan, dinc əhalinin həyatını qorumaq kimi mühüm bir vəzifənin reallaşdırılması zamanı şəhid olan polislərimiz haqqında qələmə aldığım sətirlərdə bu sahədə çalışan soydaşlarımızın fəaliyyətinin miqyasını göstərən konkret rəqəmlər təqdim edə bilməmişdim. Təbii ki, vaxt darlığından.**

Müstəqilliyin ilk illərində – təbii ki, həmin illər başdan-başa erməni terroru, təxribatı ilə müşayiət edilirdi– şəhid olmuş və fəxri adlara layiq görülmüş, orden-medallala təltif edilmiş DİN əməkdaşları barədə konkret göstəriciləri xatırladıram: "1988-ci ildə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü ilk olaraq rəşadətlə dəf edən nizami qüvvə milis, sonrakı illərdə Daxili Qoşun hissələri oldu. Bu döyüşlərdə 1695 polis əməkdaşı və hərbi qulluqçu şəhidlik zirvəsinə ucaldı, 1710 nəfər isə yaralandı. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına, 1143 nəfər orden və medallara layiq görülüb". Onlar öz həyatlarını fəda edərək bizə sabitlik və əmin-amanlıq bəxş etmişdilər.

# Asayiş və sabitlik keşikçiləri



Daxili sabitlik və əmin-amanlıqdan söz düşmüşkən, ulu öndər Heydər Əliyev 1998-ci il iyulun 3-də (təsadüfə bax, bu yazı da oxuculara iyulun 3-də təqdim edilir) Azərbaycan Polisi Gününə həsr olunmuş təntənəli mərasimdəki nitqində bu barədə əhatəli şəkildə söz açmışdı: "Ölkəmizdəki möhkəm sabitlik bir tərəfdən cinayətkarlıqla mübarizə, sizin öz vəzifələrinizi layiqincə yerinə yetirməyiniz, ikinci tərəfdən də insanların, vətəndaşların hüquqlarının qorunması üçün dövlətimizin yaratdığı təminat nəticəsində mümkün olmuşdur. Əgər vətəndaş istədiyi vaxt evindən rahat çıxıb harasa gedirsə, axşam haradasa istirahət edə bilirsə, şəhərin hər hansı hissəsinə rahat gedə bilirsə, demək, bəli, bizim polis, Daxili İşlər Nazirliyi sabitliyi, asayişi, eyni zamanda, insanların hüquqlarını təmin edirlər... Uğurlarınız çoxdur. Mən bunu açıq deyirəm".

Həmin tədbirdən beş il sonra – 2013-cü il iyulun 2-də Azərbaycan polisinin yaranmasının 95-ci ildönümü günündə Daxili İşlər Nazirliyi Polis Akademiyasında Heydər Əliyev Mərkəzinin açılışı olmuş və orada çıxış edən Prezident İlham Əliyev demişdi ki, hər bir ölkənin inkişafı üçün əsas şərt sabitlikdir: "Bu gün biz dünyanın müxtəlif bölgələrində hökm sürən prosesləri izləyərkən bir daha görürük ki, sabitlik pozulduqda bütün başqa məsələlər də öz həllini tapa bilməz. Sabitlik pozulduqda inkişafdan söhbət gedə bilməz. Ona görə sabitliyin bərpa edilməsi o illərdə ən başlıca vəzifə idi. Ulu öndərin qətiyyəti, müdrikliyi, xalqın ona olan inamı və polis orqanlarının fəaliyyəti bu sabitliyi yarada bildi. 20 ildir ki, Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir. İyirmi ildir ki, biz uğurlu inkişaf yolu ilə gedirik və bu sabitlik, bir daha demək istəyirəm ki, bütün inkişafın təməlində dayanan amildir". Müasair Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olduğuna görə bütün dövlət qurumlarımızın yaranma tarixini məhz həmin illərdən götürürük. Ümummilli lider Heydər Əliyevin 24 may 1998-ci ildə imzaladığı 710 nömrəli Fərmanına əsasən, 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Daxili İşlər Nazirliyinin tərkibində ilk polis orqanlarının təsis edildiyi gün – 2 iyul Azərbaycan Polisi Günü Elan edilib. Özü də ilk polis qrupları Bakıda yox, Gəncə quberniyasında yaradılmış və erməni vəhşiliklərinə qarşı amansız mübarizə aparılmışdı. Həmkarlarımızdan birinin fikrincə, ermənilər 2020-ci ilin oktyabrında Gəncəni raket hücumuna, bombardmana tutanda 1918-ci ildə bu regionda gorbagor olmuş əcdadlarının qisasını almaq istəyirdilər.

Başqa bir faktı yada salaq. 1941–45-ci illərdə faşizm ilə mübarizədə Azərbaycan polisinin 800 nəfərə yaxın əməkdaşı rəşadətlə vuruşmuş, qəhrəmanlıq, igidlik nümunələri göstərərək yüksək orden və medallara layiq görülmüşdür. Ölkəmiz öz dövlət müstəqilliyini bərpa etdikdən sonra da polis orqanlarımız həm milli dövlətçiliyin, həm ərazi bütövlüyümüzün, həm də əhalinin əmin-amanlığının qorunması kimi mühüm vəzifələri yerinə yetirməli idilər və yetirdilər. Ölkənin siyasi elitasındakı diletantlıq, fəaliyyətsizlik və naşılıqlara baxmayaraq, polis öz üzərinə düşən vəzifələri yerinə yetirdi. Məhz polisin həmin dəyanət və sədaqətini həzm edə bilməyən qüvvələr Azərbaycan polisinin fəaliyyətini olduqca təhlükəli istiqamətə yönəltməyə çalışdılar və nəticədə ermənilər kimi, onlar da öz məqsədlərinə çata bilmədilər. Çünki xalqın təkidi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından, yəni 1993-cü ilin iyun ayının 15-dən sonra xaosdan qurtuluşa keçidin əsası qoyuldu, ölkənin ictimai-siyasi həyatında və kriminogen durumda köklü müsbət dəyişikliklər baş verdi. İntensiv surətdə həyata keçirilən tədbirlərdən biri də hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının sıralarının saflaşdırılması, dövlətə, xalqa sədaqətli şəxsi heyətin formalaşdırılması, peşə borcunu, qanunun aliliyini hər şeydən üstün tutan əməkdaşların xidmətə cəlb edilməsi idi. 2003-cü ilin payızından sonra isə Azərbbaycanda cəmiyyət həyatının bütün sahələri kimi Daxili İşlər Nazirliyinin fəaliyyəti də başdan-başa müasirləşdirildi, maddi-texniki baza yenidən qurularaq möhkəmləndirildi, şəxsi heyətin peşəkarlığını artırılması üçün lazım olan bütün addımlar atıldı, beynəlxalq təcrübələrin öyrənilməsi təmin edildi, 2004-cü ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə müvafiq dövlət proqramı qəbul edildi.

Yadımdadır, Xalq artisti, görkəmli sənətkarımız Həsənağa Turabovun oğlu – polis zabiti Daşqın Turabov bir quldurun gülləsinə tuş gəlmişdi. Həmin faciədən sonra həmkarlarımızdan biri yenicə şəhid atası olmuş sənətkara baş sağlığı verəndə o demişdi: "Tək onunla təsəlli tapıram ki, oğlumu o peşənin dalınca mən göndərməmişdim. O sahəni özü seçmişdi, özü sevmişdi və mən sizi inandırıram ki, Azərbaycan polisinin bəlkə də sonuncusuna qədər hamısı o sahəni özü seçib, özü and içib. Polis orqanlarımızın peşəkarlığlnın təməlində də məhz həmin sevgi dayanır".

Azərbaycan daxili işlər orqanlarının əməkdaşları öz vətənpərvərliklərini və şücaətlərini Vətən müharibəsində də nümayiş etdirdilər. Azərbaycan tarixinə silinməz hərflərlə yazılan 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb. Qarabağ və Şərqi Zəngəzurun erməni işğalından azad olunması uğrunda qəhrəmancasına döyüşmüş Daxili Qoşunların əməkdaşlarından 1690 nəfər müxtəlif orden və medallara, o cümlədən 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Sonda xatırladım ki, dünən – iyulun 2-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında nazir, general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə Azərbaycan Polisi Gününə və 2023–2024-cü tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasimdə ötən 106 ildə polisin keçdiyi şərəfli və zəngin xidmət yolundan, yaratdığı dəyərli ənənələrdən, xüsusən ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruhlu vətənpərvər kadrlarla möhkəmlənməsi sahəsində görülən mühüm işlərdən danışılıb.

Qeyd olunub ki, 2003–2023-cü illərdə cinayətlərin qarşısının alınması, açılması, istintaqı, bütövlükdə, vətəndaşların qanuni mənafelərinin qorunması sahəsində davamlı iş aparılıb, o cümlədən 25 minə yaxın cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 35 mindən çox odlu silah yığılıb və onun tətbiqilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb. Cinayətlərin orta hesabla 87 faizinin açılması təmin olunub, axtarışda olan 77 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 25 tona yaxın narkotik vasitə çıxarılıb.

Yolun açıq, fikrin aydın, işin uğurlu, canın sağ, inam, etimad və sədaqətin möhkəm olsun, Azərbaycan polisi! Xalq sənə inanır, dövlət sənə güvənir, bütün soydaşlarımız səni dəstəkləyir. Yeni uğurlara doğru!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Ölkədə Polis günü təntənələri

**Daxili İşlər Nazirliyinin ölkədəki əksər qurumlarında və Azərbaycanın şəhər və rayonlarında dünən Poliş günü münasibətilə müxtəlif tədbirlər, təntənəli mərasimlər və şənliklər keçirilib. Toplantılarda müstəqil dövlətçiliyimizin və ümumi asayişin qorunmasında polis orqanlarının mübariz fəaliyyətindən məmnunluqla söhbət açılıb, ölkənin polis ordusunun rəhbər heyətinin və əməkdaşlarının ünvanlarına səmimi təbriklər səslənib.**



## Bakı

Suraxanı rayonunda təşkil edilən toplantıda rayon rəhbərliyi, ictimaiyyət təmsilçiləri ərazidə xidmət göstərən polis işçilərini peşə bayramı münasibətilə səmimi təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzuyıblar.

Mərasimdə Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun 2 iyul – Azərbaycan Polisi Günü münasibətilə daxili işlər orqanlarının şəxsi heyətinə və veteranlarına ünvanlanmış təbrik məktubu səsləndirilib. Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov polis əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edib, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə doğma Vətənin daimi tərəqqisi, daha da qüdrətlənməsi naminə xalqa şərəfli xidmətlərində onlara uğurlar arzulayıb.

Rayon Polis İdarəsinin rəisi Şəhriyar Şəmşirli ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrlərdən başlayaraq, Daxili İşlər Nazirliyi və onun təşkilati strukturu olan polis orqanlarının dövlətimizin milli maraqlarının müdafiəsində mühüm rol oynayaraq inkişaf etdiyini, ictimai asayişin qorunmasında yüksək nəticələr və zəngin təcrübə qazandığını bildirib. O qeyd edib ki, bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi hərtərəfli islahatlar çərçivəsində daxili işlər orqanlarının da müasirləşməsi üçün hər cür şərait yaradılıb.

Sonda bir qrup polis əməkdaşı Suraxanı Rayon İcra Hakimiyyəti başçısının Fəxri fərmanı ilə təltif olunub.

## Naxçıvan



Azərbaycan Polisinin yaranmasının 106-cı ildönümü münasibətilə Naxçıvan Orta İxtisas Polis Məktəbində muxtar respublikada Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin iştirakı ilə təntənəli mərasim keçirilib.

Fuad Nəcəfli çıxış edərək şəxsi heyətə təbriklərini çatdırıb, onlara xidməti fəaliyyətlərində uğurlar arzulayıb. Naxçıvan MR daxili işlər naziri, polis general-mayoru Süleyman Neymətov Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun təbriklərini şəxsi heyətə çatdırıb. O, ulu öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşan daxili işlər orqanlarının keçdiyi şərəfli və zəngin xidmət yolundan, muxtar respublikada polisin uğurlu fəaliyyətindən danışıb.

Toplantıda əminliklə bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində davamlı inkişafda olan daxili işlər orqanları Naxçıvanda da bundan sonra Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda bütün qüvvə və bacarığını əsirgəməyəcək.

Mərasim şəxsi heyətin keçidi ilə yekunlaşıb.

***XQ***

# Yüksəliş və qazanc büdcəsi

**Prezident İlham Əliyev 25 iyun 2024-cü il tarixdə 2024-cü il dövlət büdcəsi haqqında qanuna dəyişiklikləri təsdiqləyib. Beləliklə, büdcə gəlirləri 36 milyard 388 milyon manat, büdcə xərcləri 39 milyard 742 milyon 300 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 35 miyard 612 milyon 753 min manat, yerli gəlirləri 775 milyon 247 min manat, mərkəzləşdirilmiş xərcləri 38 milyard 957 milyon 497 min manat, yerli xərcləri 784 milyon 803 min manat) olub.**



Dövlətimizin başçısı həmin tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2024-cü il büdcəsində dəyişiklik edilməsi haqqında qanunu da təsdiqləyib. Beləliklə, DSMF-nin büdcə gəlirləri və xərcləri ilə bağlı proqnoz 6 milyard 919 milyon 9 min manatdan 6 milyard 949 milyon 9 min manata çatdırılıb.

Gəlirlərdəki artımı məcburi dövlət sosial sığorta haqları ilə bağlı proqnozun 5 milyard 288,1 milyon manatdan 5 milyard 478,1 milyon manata, o cümlədən qeyri-büdcə sektorundan sosial sığorta daxilolmaları ilə bağlı proqnozun 3 milyard 387,1 milyon manatdan 3 milyard 577,1 milyon manata çatdırılması, əvəzində isə DSMF-nin büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin 1milyard 392 milyon manatdan 1 milyard 232 milyon manata endirilməsi təmin edəcək.

Xərclərdəki artım isə əhaliyə ödənişlər üzrə xərclərin 6 milyard 681,6 milyon manatdan 6 milyard 706,6 milyon manata, o cümlədən əmək pensiyasının ödənilməsi xərclərinin 6 milyard 500 milyon manatdan 6 milyard 525 milyon manata, eləcə də DSMF-nin aparatının və struktur bölmələrinin saxlanılması xərclərinin 130,1 milyon manatdan 135,1 milyon manata çatdırılması hesabına olacaq.

Dövlətimizin başçısı 25 iyun 2024-cü il tarixdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İşsizlikdən Sığorta Fondunun (İSF) 2024-cü il büdcəsində dəyişiklik edilməsi qanunu da təsdiqləyib. Bununla da İSF-nin büdcə gəlirləri və xərcləri ilə bağlı proqnoz 238 milyon manat saxlanılıb, amma İSF-nin gəlirlərinin strukturu dəyişib. Belə ki, işsizlikdən sığorta haqları ilə bağlı proqnoz 180 milyon manatdan 184,7 milyon manata, o cümlədən qeyri-büdcə sektorundan işsizlikdən sığorta daxilolmaları ilə bağlı proqnoz 134,6 milyon manatdan 139,3 milyon manata çatdırılıb, əvəzində İSF-nin istifadə olunmamış vəsaiti ilə bağlı proqnoz 57,95 milyon manatdan 53,25 milyon manata endirilib.

Azərbaycanın yenidən baxılmış və Prezident İlham Əliyevin təsdiqlədiyi dövlət büdcəsinin gəlirləri 36 milyard 388 milyon manat məbləğində proqnozlaşdırılır ki, bunun da 21 milyard 705 milyon manatını və yaxud 59,65 faizini vergi-gömrük orqanları təmin edəcək.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin büdcə öhdəliyi 13 milyard 865 milyon manatdan 15 milyard 270 milyon manata, Dövlət Gömrük Komitəsinin büdcə öhdəliyi isə 5 milyard 900 milyon manatdan 6 milyard 435 milyon manata çatdırılıb.

Beləliklə, büdcə gəlirlərindəki 2 milyard 215 milyon manat artımın 1 milyard 940 milyon manatı və yaxud 87,6 faizi vergi-gömrük orqanlarının üzərinə qoyulub.

Göründüyü kimi, "2024-cü il dövlət büdcəsi haqqında" qanuna dəyişikliklərdə əsas məqsəd əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi, həmçinin digər zəruri sahələrin inkişafıdır. Ümumiyyətlə, dövlətin büdcəsində hər il artımın gerçəkləşdirilməsi təsadüfi deyil. Bu, insanların sosial rifahının yüksəldilməsinə, ölkənin müdafiə və milli təhlükəsizliyinin təmin olunmasına, düşməndən təmizlənən ərazilərin bərpasına daha çox maliyyə vəsaitinin ayrılması ilə bağlıdır. "2024-cü il dövlət büdcəsi haqqında" qanuna dəyişikliklər, eyni zamanda, dayanıqlı və davamlı iqtisadi inkişafdan, düzgün maliyyə və vergi siyasəti aparılmasından xəbər verir.

Şübhəsiz ki, "2024-cü il dövlət büdcəsi haqqında" Qanuna dəyişikliklər, ilk növbədə, əhalinin sosial müdafiəsini daha da gücləndirəcək. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma, tikinti-bərpa işləri geniş vüsət alacaq.

Yeri gəlmişkən, dövlət başçısının işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa və yenidənqurma layihələrinin həyata keçirilməsi üçün verdiyi tapşırıqlar, həyata keçirdiyi tədbirlər vətəndaşlarımız tərəfindən yüksək dəyərləndirilir və bu, keçmiş köçkün soydaşlarımızın tez bir zamanda öz ata - baba yurdlarına qayıtmasını şərtləndirir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturun yenidən qurulması, abadlıq - quruculuq işlərinin surətləndirilməsi iqtisadiyyatımızın yüksəlişinə yeni imkanlar açır, aqrar sektorun, turizmin inkişafına əlverişli şərait yaradır. Təbii ki, bu məqsəd üçün əlavə maliyyə vəsaitinin ayrılması da günün zəruri tələbidir.

Büdcəyə artımdan danışarkən bir məqamı da vurğulamaq istərdik. Belə ki, büdcə layihələri hazırlanarkən ölkəmizin müdafiə və milli təhlükəsizliyinin təmin olunmasına böyük həcmdə vəsaitin ayrılması diqqətdə saxlanılır və bu, qarşıya əsas vəzifə kimi qoyulur. Ümumiyyətlə, son 3 ildə olduğu kimi, hazırda da hərbi-müdafiə infrastrukturunun müasirləşdirilməsi, hərbi quruculuq tədbirlərinin genişləndirilməsi, sərhədlərimizin möhkəmləndirilməsi və yeni layihənin həyata keçirilməsi üçün dövlət büdcəsindən əlavə vəsait ayrılmasına xüsusi önəm verilir.

Sonda "2024-cü il dövlət büdcəsi haqqında" qanuna dəyişiklikləri şərtləndirən amilləri də xatırlatmaq istərdik. Belə ki, bu ilin may ayında İqtisadiyyat Nazirliyinin makroiqtisadi proqnozunun baza ssenarisinə dəyişikliklər edilib, neftin bir barelinin orta illik ixrac qiyməti 60 ABŞ dollarından 75 ABŞ dollarına (ilin ötən dövrü üzrə faktiki satış qiymətləri və ilin qalan dövrü üzrə 70 ABŞ dolları fərz edilməklə, öncəki proqnoza nəzərən 15 ABŞ dolları çox) yüksəldilib.

Maliyyə Nazirliyindən isə bununla bağlı bildirilib ki, 2024-cü ildə ÜDM-in 121 milyard 3 milyon manata (dövlət büdcəsinin layihəsinin tərtibi zamanı təqdim edilmiş proqnoza nəzərən 3 milyard manat çox), o cümlədən qeyri-neft ÜDM-in 84 milyard 7 milyon manata (dövlət büdcəsinin layihəsinin tərtibi zamanı nəzərdə tutulmuş proqnoza nəzərən 0,6 milyard manat çox) çatacağı proqnozlaşdırılır.

Yenilənmiş makroiqtisadi proqnoz, dünya neft bazarlarında münbit qiymət dinamikası, cari ilin ötən dövründə dövlət büdcəsinin gəlirlərinin faktiki icra vəziyyəti və dövlət büdcəsində əlavə fiskal məkandan istifadə imkanları 2024-cü il üzrə gəlir proqnozuna yenidən baxılması üçün şərait yaradır.

Büdcəyə dəyişikliklərin edilməsini zəruri edən məsələlərdən biri də iqtisadiyyatın dinamik inkişafının gerçəkləşdirilməsidir. Bununla bağlı, ilk növbədə, onu vurğulayaq ki, son illərdə ölkəmizin qeyri-neft-qaz sektorunun dinamik inkişafını bildirən rəqəmlər əldə edilməsi iqtisadiyyatın bütün sahələrində ötən illərdəki artım dinamikasının qorunub saxlanılmasının məntiqi nəticəsidir. Başqa sözlə, belə bir uğur makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində nəzərdə tutulan tədbirlərin ardıcıl həyata keçirilməsi ilə şərtlənir.

Hazırda ölkəmizdə ÜDM istehsalının böyük bir hissəsinin sənayenin payına düşməsi uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının mövcud sahədəki fəaliyyəti, həmin zonalarda yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılıb və bu, müsbət göstəricilərlə müşahidə edilib.

Azərbaycanda lazım olan bütün istehsalat sahələrinin yaradılması, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühiti, siyasi sabitlik, xalq-iqtidar birliyi, təhlükəsizlik təmin edilib, əlverişli coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər var.

Sənaye zonaları və aqroparkların təşəkkülü də bu cür əlverişli şəraitin məhsuludur. Bu müəssisələrdə sahibkarlar üçün stimullaşdırıcı biznes və investisiya mühiti yaratmaq üçün dövlət tərəfindən müxtəlif dəstək tədbirləri mövcuddur. Belə ki, sahibkarlara təşkilati dəstəklə yanaşı, vergi və gömrük güzəştləri, eləcə də hazır infrastrukturla təminat təklif edilir.

## Kredit qoyuluşu 25 faiz artıb

**Azərbaycan iqtisadiyyatına kredit qoyuluşu bu il iyunun 1-nə 26 milyard 498 milyon manat təşkil edib. Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatına görə, bu, aylıq müqayisədə 2 faiz çox, ilin əvvəlinə nisbətən 10,5 faiz, illik müqayisədə isə 24,5 faiz çoxdur.**



Kredit qoyuluşunun 18 milyard 709 milyon manatı və yaxud 70,6 faizi özəl bankların payına düşüb. Bu, 1 il əvvələ nisbətən 13,9 faiz çoxdur.

Hesabat dövründə dövlət banklarının kredit qoyuluşu 6 milyard 449 milyon manat təşkil edib. Bu, illik müqayisədə 52,5 faiz yüksəkdir. İl ərzində dövlət banklarının ümumi kredit qoyuluşundakı xüsusi çəkisi 19,9 faizdən 24,3 faizə qalxıb.

Mayın sonuna bank olmayan kredit təşkilatlarının (BOKT) kredit qoyuluşu isə 1 milyard 340 milyon manat olub. Bu, illik müqayisədə 2,1 dəfə çoxdur. İl ərzində BOKT-ların ümumi kredit qoyuluşundakı xüsusi çəkisi 2,9 faizdən 5,1 faizı çatıb.

Azərbaycanda 22 bank fəaliyyət göstərir, onlardan 2-si dövlət payına malikdir. BOKT-ların sayı isə 55-dir.

## Orta Dəhlizdə yeni marşrut

**Çindən Türkiyəyə Orta Dəhliz üzərindən yeni marşrutla ilk yük qatarı yola salınıb.**



"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən aldığımız məlumata görə, məişət əşyaları və gündəlik tələbat malları yüklənmiş 110 konteynerdən ibarət qatar iyunun 28-də Çinin Ciansu əyalətinin paytaxtı Nankin şəhərindən Mərkəzi Asiya–Xəzər dənizi–Azərbaycan–Gürcüstan marşrutu ilə İstanbul şəhərinə yola düşüb.

Hazırda Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Qara dəniz üzərindən keçməklə Çin və Avropa arasında yükdaşımalar bir neçə istiqamət üzrə həyata keçirilir.

## Mərkəzi Bankın valyuta ehtiyatları 28 faiz çoxalıb

**Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları hazırda 11 milyard 738 milyon ABŞ dolları təşkil edir. AMB-nin məlumatına əsasən, bu, iyunun 1-i ilə müqayisədə 0,2 faiz çoxdur.**



AMB-nin valyuta ehtiyatları ilin əvvəlinə nisbətən 1,1 faiz, son 1 ildə isə 28 faiz artıb.

## Azərbaycan elektrobuslar buraxacaq

**Gələn il ölkəmizdə elektrik mühərrikli avtobusların istehsalı zavodu tikiləcək. Bu barədə İqtisadiyyat Nazirliyindən məlumat verilib.**



Bildirilib ki, Baş nazirin müavini Şahin Mustafayevin iştirakı ilə keçirilən görüşdə ölkəmizdə avtobus parkının yerli istehsal hesabına təmin edilməsi məqsədilə Çinin "BYD Company Limited" (BYD) şirkəti ilə Çərçivə sazişi imzalanıb.

Çərçivə sazişi elektrik mühərrikli avtobusların alınmasını, onlara xidmətin göstərilməsini, ölkəmizdə istehsalın qurulmasını və lokallaşdırılmasını nəzərdə tutur. Sazişin məqsədi ölkəmizdə elektrik nəqliyyatı infrastrukturunun inkişafı, sərnişinlərin rahatlığının təmin edilməsi və ətraf mühitə zərərli təsirin azaldılması, habelə ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılmasıdır.

Xatırladaq ki, Çərçivə sazişinə əsasən yaradılacaq birgə müəssisə tərəfindən Sumqayıt Kimya Sənaye Parkında 2025-ci ildə elektrik mühərrikli avtobusların istehsalı zavodu tikiləcək. İnvestisiya həcmi 34 milyon dollar olan layihə çərçivəsində 800 yeni iş yerinin yaradılması planlaşdırılır. Bununla yanaşı, ehtiyat hissələrinin mərhələli şəkildə lokallaşdırılması nəzərdə tutulur. Azərbaycanda avtobus istehsalı müəssisəsi fəaliyyətə başlayanadək şirkətdən elektrik avtobusları alınacaq.

# Böyük Qayıdışa 16 milyard manatdan çox vəsait yönəldilib

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə dövlət proqramı çərçivəsində 16 milyard manatdan çox vəsait ayrılıb.**



İqtisadiyyat Nazirliyinin ərazilərin bərpası və inkişafı şöbəsinin müdiri Zamin Bədirxanovun sözlərinə görə, bu vəsaitin əsas hissəsi yolların və sosial infrastrukturun qurulması üçün nəzərdə tutulub. Bununla yanaşı, indiyədək özəl sektorun da bərpa-quruculuq işlərində iştirakı dəstəklənib və təşviq edilib.

Z.Bədirxanov bildirib ki, hazırda həm dövlət-özəl tərəfdaşlığı, həm də birbaşa investisiya ilə özəl sektor həmin ərazilərdə uğurlu fəaliyyət göstərir. Bu ərazilərdə sahibkarlığa 1 milyard manatdan çox vəsaitin ayırması nəzərdə tutulub ki, artıq bunun da müəyyən hissəsi yatırılıb. Məsələn, həmin ərazilərdə 2 sənaye parkında 2,7 mindən çox şəxsin işlə təmin edilməsi, bunun üçün 300 milyon manatdan çox investisiya yatırılması planlaşdırılıb.

İqtisadiyyat Nazirliyi nümayəndəsinin məlumatına əsasən, bu quruma təqdim edilən layihələr sırasında olan Cəbrayıl rayonunda BP şirkəti tərəfindən Günəş Elektrik Şəbəkəsinin (GES) tikintisini və "Neqsol Holdinq" tərəfindən bir sıra layihələrin də icrası nəzərə alınsa, ümumilikdə, 1 milyard manatdan çox investisiya yatırılacaq.

Yeri gəlmişkən, cari ildə Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulmasında iştirak edən şirkətlərə kreditlər güzəştli şərtlərlə ayrılır. Güzəştli kreditin minimum məbləği 5 milyon manatdır və 7 il müddətinə 15 faizlə verilir ki, bunun da 10 faizini dövlət subsidiya şəklində ödəyir.

Qeyd edək ki, Sahibkarlığın İnkişafı Fonduna bu il daxil olan 48 şirkətin müraciətinə baxılıb və onlara 1,5 milyard manat kredit ayrılıb. Fond istehsal sahələrinin artması və xarici bazarlara Azərbaycan istehsalı olan məhsulun çıxarılması istiqamətində fəaliyyət göstərən sahibkar və şirkətlərə xüsusi diqqət verir.

Onu da qeyd edək ki, cari ilin birinci rübündə Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən xərcləmələr 1 milyard 221 milyon manat (2023-cü ilin eyni dövrü ilə müqayisədə 58,6 milyon manat və ya 5 faiz çox) təşkil edib.

Maliyyə Nazirliyinin məlumatına görə, bu il işğaldan azad edilmiş ərazilərə büdcədə 3 milyard 825 milyon manat vəsait nəzərdə tutulub. Yanvar-mart aylarında bu məbləğin 31,9 faizi xərclənib.

Vətən müharibəsi qələbəmizlə başa çatandan sonra bu torpaqlarda aqrar sektor üzrə layihələrin icrası da diqqətdə saxlanılıb. Təkcə 2022–2023-cü təsərrüfat ili üzrə 84,4 min hektar sahədə payızlıq taxıl əkini aparılıb. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Prezident İlham Əliyevin 2021-ci il 27 aprel tarixli Fərmanının icrası çərçivəsində aqrar sahədə fəaliyyət göstərən subyektlərlə Zəngilan rayonunda 2,2 min hektar (o cümlədən 720 hektar örüş), Qubadlı rayonunda 2 min hektar əkin sahəsi üzrə uzunmüddətli (40 il), digər sahələr üzrə isə qısamüddətli (11 ay) icarə müqavilələri bağlanılıb.

2022–2023-cü təsərrüfat ilində icarəyə verilən 68,5 min hektar əkin sahəsi üzrə icarə müqavilələrinin müddəti 2023-cü ilin noyabr ayında başa çatdığı üçün müqavilələrə xitam verilib. 2023–2024-cü təsərrüfat ili üzrə qısamüddətli icarə müqavilələri imzalanıb. Həmin ərazilərin kənd təsərrüfatı potensialının dəqiqləşdirilməsi məqsədilə faktiki əkin yerlərinin məlumatlar bazasına daxil edilərək xəritələnməsi gerçəkləşdirilib.

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən işğaldan azad edilən sahələr üzrə Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Xocalı, Xocavənd, Zəngilan və Tərtər rayonlarının müvafiq ərazilərində fəaliyyət göstərən 18 kənd təsərrüfatı məhsul istehsalçısına 73,5 min hektarda becərilən əkinlərə və çoxillik əkmələrə görə, dövlət büdcəsinin vəsaiti hesabına 16 milyon 701 min manat məbləğində əkin subsidiyası verilib.

Bundan başqa, Tərtərin Çaylı və Xocavənd rayonunun Məmmədderə kəndləri ərazisində salınmış meyvə bağları üçün Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaiti hesabına ümumi dəyəri 2 milyon 75 min manat olan 2 dəst, Qubadlı rayonunun Xanlıq kəndi ərazisində 14 dəst pivot suvarma sistemlərinin alışının maliyyələşdirilməsi məqsədi ilə güzəştli şərtlərlə 999 min manat ayrılıb. Eyni zamanda, ümumi dəyəri 525 min manat olan 15 kənd təsərrüfatı texnikasının alışının maliyyələşdirilməsi məqsədilə 86 min manatlıq kredit reallaşdırılıb.

Görülən işlər sırasında azad edilmiş rayonlarda daşınmaz əmlakın arxiv sənədlərinin rəqəmsallaşdırılması da diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə 165 min daşınmaz əmlakın arxiv sənədləri rəqəmsallaşdırılıb. Məsələn, Laçın rayonu ərazisində təmir olunan 367 fərdi yaşayış evinin və 144 mənzilin, Zabux kəndində yeni tikilən 223 fərdi yaşayış evinin və Şuşa şəhərində 223 mənzilin texniki pasportu hazırlanıb. Bundan başqa, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın, Zəngilan, Xocavənd, Ağdam rayonları üzrə arxiv sənədlərinin mövcud tikililərə bağlantısı prosesi həyata keçirilib, yaranan uyğunsuzluqlar araşdırılaraq müvafiq rayon icra hakimiyyətləri nümayəndələrinin iştirakı ilə dürüstləşdirilib.

Azad olunan ərazilərdə su anbarlarının bərpası da diqqətdə saxlanılıb. Vətən müharibəsindən sonrakı müddətdə bu istiqamətdə işlər davam etdirilərək Tərtər rayonunda sututumu 5,86 milyon kubmetr olan Suqovuşan su anbarında və 5,2 kilometrlik magistral kanalda, Ağdam rayonunda sututumu 23 milyon kubmetr olan Xaçınçay su anbarında və 7 kilometrlik magistral kanalda tikinti işləri başa çatdırılıb. Bundan başqa, Füzuli rayonunda ümumi sututumu 15,5 milyon kubmetr olan Köndələnçay üzərində 3 su anbarında və uzunluğu 20,2 kilometr, sərfi 20 kubmetr/saniyə olan Tərtərçay Sol Sahil kanalının yenidən qurulması üzrə kanalın 20,17 kilometr hissəsi betonla üzlənib, 1066 poqonometr uzunluğunda selötürən kanal tikilərək üzərində "SKADA" sisteminin quraşdırılması işləri tamamlanıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Bərpaolunan enerji – təbiətdən cəmiyyətə bol və saf güc axını

**Hazırkı dövr həm qlobal, həm də milli-regional səviyyədə cəmiyyətin, iqtisadiyyatın, sosial-mədəni sferaların "yaşıl" transformasiyaları ilə xarakterizə olunur. Ona görə də müvafiq dövlət idarəetmə orqanlarının mühüm vəzifələrindən biri də "yaşıl" transformasiyalara və ya iqtisadiyyatın yaşıllaşdırılmasına keçidin mərhələlərini, səbəblərini və vəzifələrini daha dəqiq müəyyənləşdirərək cəmiyyət üzvlərini məlumatlandırmaqdır.**



Artıq davamlı və insan potensialına əsaslanan cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətində yeni tendensiyalar və yeni çağırışlar əmələ gəlmişdir. Bunlar rəqəmsal və "yaşıl" transformasiyalar fonunda insanların yeni "yaşıl" innovativ davranışı kimi də səciyyələndirilə bilər. Belə bir şəraitdə formalaşan "yaşıl" cəmiyyət, iqtisadiyyat və istehsal dedikdə, ilk növbədə, təbiətin qanunlarını nəzərə alan, ətraf mühitə heç bir mənfi təsir göstərməyən və təbii ehtiyatlardan səmərəli və yüksək qənaətlə istifadə edən insanın sənaye və kənd təsərrüfatındakı fəaliyyəti nəzərdə tutulur. Bu mərhələdə "yaşıl" bilik və bacarıqlar xüsusi əhəmiyyət daşıyır. Gələcək əmək bazarı üçün hazırlanan mütəxəssislər də həm peşəkar, həm də vətəndaş kimi bu çağırışlara cavab verməlidirlər.

Yer kürəsinin uzunmüddətli inkişafının təmin edilməsi insanın iqtisadi fəaliyyətində və həyat tərzində yeni "yaşıl" prioritetlərin formalaşmasını tələb edir. Ona görə də dünya iqtisadiyyatına inteqrasiya edən Azərbaycan iqtisadiyyatı və cəmiyyəti paralel olaraq həm postsənaye iqtisadiyyatının "yaşıllaşdırılması" texnologiyalarından ən səmərəli formada istifadə etməklə qeyri-neft sektorunun inkişafına nail olmalı, həm də ən müasir texnologiyaları izləmək və tətbiq etməklə informasiya cəmiyyəti iqtisadiyyatının özünün də yaşıllaşdırılmasına nail olmalıdır. Ümumi halda "yaşıl" iqtisadiyyatın bəzi mənfi tərəfləri olsa da, onun üstünlükləri çatışmayan tərəflərindən daha çoxdur. Buna görə də "yaşıl" iqtisadiyyata davamlı inkişafa aparan alternativsiz yol kimi baxmaq lazımdır.

Məlum olduğu kimi, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həm müasir dövr, həm də yaxın və uzaq gələcək üçün çox böyük əhəmiyyətə malik olan bu prioritetə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, eləcə də su ehtiyatlarından, dayanıqlı və alternativ enerji mənbələrindən, təbii və material resurslarından səmərəli istifadənin təmin edilməsi və s. ölkə qarşısında həllini gözləyən təxirəsalınmaz tədbirlərdəndir.

Yeri gəlmişkən, hazırda ölkəmizdə mükəmməl ekoloji siyasətin yürüdülməsi üçün əlverişli zəmin var. Ümumdünya Rio+20 və Yohannesburq sammitlərinin qərarlarına uyğun olaraq Azərbaycan ekoloji siyasətin və qanunvericiliyin təkmilləşdirilməsini həyata keçirir. Ekoloji tədbirlər sırasına dövlət proqramlarının və qanunların qəbul edilməsi, yeni idarəçilik prinsiplərinin tətbiqi, milli park şəbəkələrinin genişləndirilməsi, insanların su ilə təminatının daha da yaxşılaşdırılması, tullantıların idarə olunması və ətraf mühitin qorunması kimi vacib işlər daxildir.

Rəsmi dövlət sənədlərinin təhlilindən göründüyü kimi, ətraf mühitin "yaşıllaşdırılmasında", ekoloji balansın bərpasında, "yaşıl" texnologiyaların işlənilməsində və tətbiqində əsas rollardan biri İKT sektorunun inkişaf etdirilməsidir. Odur ki, ölkənin milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində İKT sektorunun 2025-ci ilədək və sonrakı dövr üçün uzunmüddətli inkişafı nəzərdə tutulmuşdur. İKT sferasına uzunmüddətli baxışın mahiyyəti bu sektorda innovasiyayönümlü islahatları davam etdirmək, müasir xidmətlərin çeşidini və həcmini artırmaq, sürətli genişzolaqlı şəbəkənin əhatə dairəsini genişləndirmək, telekommunikasiya sektorunda mühüm beynəlxalq tələblərə cavab verən standartların tətbiqini təmin etmək yolu ilə ölkənin "yaşıl" inkişafına, cəmiyyətin ekoloji-texniki savadlılıq səviyyəsinin yüksəldilməsinə və ümumən "yaşıl" rəqəmsal iqtisadiyyatın formalaşmasına nail olmaqdır.

İnformasiya cəmiyyətinin yaranması və onun "yaşıllaşdırılması" əlavə innovasiyalı hədəflər müəyyən edəcək. Startapların və innovasiyalı müəssisələrin "yaşıl" inkişafını stimullaşdırmaq məqsədilə klasterlər və yüksək texnologiyalar parkları yaradılacaq. Bu işdə dövlətin və digər maraqlı tərəflərin müvafiq investisiya qoyuluşları əsas dəstəkverici qüvvə rolunu oynayacaq. Belə parklara və innovasiya mərkəzlərinə innovasiyaya təkan verən startapları daha çox cəlb etmək üçün onların geniş əhatə dairəsində tətbiqi reallaşdırılacaq. Bu yanaşma həmin parklarda olan müəssisələrin Azərbaycanın "yaşıl" və rəqəmsal iqtisadiyyata keçidi üçün əsas hərəkətverici qüvvə olmasına şərait yaradacaq. Beləliklə, ekoloji-texnoloji savadlılıq, yüksək "yaşıl" texnologiya vasitələrinin tətbiqində artım və keyfiyyətli genişzolaqlı şəbəkəyə çıxış nəticəsində ümumi "yaşıl" ətraf mühitin, "yaşıl" dünyanın, əlverişli "yaşıl" biznes mühitinin inkişafına nail olunacaq.

Bu cür "yaşıl" yönümlü yanaşma sektor üzrə uzunmüddətli perspektivdə, həm də İKT sahəsində regionda lider ölkəyə çevrilmək, güclü potensialı olan İKT sənayesi, cəmiyyətin ekoloji tələbatını da təmin edən telekommunikasiya infrastrukturu yaratmaq, təhsil sistemində "yaşıl" rəqəmsal texnologiya yönümlü strukturlaşmanın, o cümlədən "yaşıl" rəqəmsal iqtisadiyyatın daha da inkişafına şərait yaratmaq, ölkənin sosial-ekoloji-iqtisadi inkişafına təkan vermək və əhaliyə göstərilən elektron xidmətlərin daha geniş tətbiqinə nail olmaq əsas vəzifələrdəndir.

Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Məişət və bərk tullantıların, həmçinin elektron tullantıların təkrar istifadə və emalına ciddi diqqət yetirilməlidir.

Bu prioritetlər daxilində strateji dövrdə həm yüksək keyfiyyətli ekoloji mühitin formalaşmasına, həm də "yaşıl enerji" məkanının yaradılmasına və onların effektiv reallaşdırılmasına nail olunmalıdır.

Ölkədə, həmçinin keyfiyyətli və təmiz ekoloji mühit qorunmalı və resurslardan səmərəli istifadə təmin edilməlidir. Uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf diqqət mərkəzində olmalıdır. Gələcəkdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə dəyə bilən risklər azaldılmalıdır. Bu məqsədlə ölkədə ümumi yaşıllıqların payı artırılmalıdır. Eyni zamanda, iqtisadi artımla ekoloji mühit tarazlı inkişafda olmalıdır. Ölkədə yararsız torpaq sahələri dövriyyəyə cəlb edilməklə mövcud resurslar bərpa edilməlidir. Əhalinin keyfiyyətli suya tələbatı, ilk növbədə, su resurslarından səmərəli istifadə etməklə ödənilməlidir.

İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqi genişləndirilməlidir. Elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpaolunan enerji mənbələrinin ilkin istehlakda payı artırılmalı və iqlim dəyişikliklərinə təsir azaldılmalıdır. Bununla yanaşı, ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə edilməsi ətraf mühitə və atmosfer havasının keyfiyyətinə müsbət təsir göstərəcək.

Göründüyü kimi, yeni iqtisadi şəraitdə rəqəmsal və "yaşıl" iqtisadiyyatın üstünlükləri və faydaları çoxdur. Buna görə də rəqəmsal "yaşıl" iqtisadiyyata informasiya və bilik iqtisadiyyatının yeni mərhələsi kimi davamlı inkişafa aparan alternativsiz yol kimi baxmaq və ümumən həm cəmiyyətin, həm də iqtisadiyyatın rəqəmsal və "yaşıl" transformasiyasına nail olmaq lazımdır.

***Əlövsət ƏLİYEV,***
***ETN İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru***

# "Yaşıl" iqtisadiyyat ekoloji fəlakətdən xilas meydanıdır

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un keçirilməsi Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu daha da möhkəmləndirəcək və iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərə töhfəsini artıracaq. Eyni zamanda, ölkələri bir araya gətirməklə ətraf mühitin yaxşılaşdırılması, insanların sağlamlığı və təhlükəsizliyi üçün ciddi təhdidlərin aradan qaldırılması istiqamətində qərarların qəbulunu şərtləndirəcək.**



Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi həm də ölkəmizin qlobal iqtisadiyyata inteqrasiya siyasətini reallaşdırması, regional infrastruktur yaratması və genişləndirməsi ilə bağlıdır. Bakı bu gün, eyni zamanda, iri neft-qaz layihələrində iştirak edir və bütün regional enerji təşəbbüslərində əsas oyunçu kimi diqqət çəkir. Respublikamızın iqtisadi potensialı, xammal və faydalı qazıntı ehtiyatları və əlverişli iqtisadi-coğrafi mövqeyi də beynəlxalq aləmlə əməkdaşlığın güclənməsinə şərait yaradır ki, bu da xarici iqtisadi əlaqələrdə struktur və keyfiyyət dəyişikliyindən xəbər verir.

Beynəlxalq münasibətlər üzrə professor, iqtisadçı, Çin üzrə ekspert Cüzeppe Sakko Azərbaycan mediasına müsahibəsində bu barədə deyib: "Azərbaycanın beynəlxalq rolu getdikcə güclənir, mövqeyi əhəmiyyətli şəkildə möhkəmlənir. Xarici iqtisadi əlaqələrinin əsas xüsusiyyəti isə onun beynəlxalq, regional və yerli xarakterli iqtisadi təşkilatlara daxil olması, habelə ölkənin ictimai həyatının bütün sahələrinin bu təşkilatlara inteqrasiyasıdır. Buna, ilk növbədə, Azərbaycanın əlverişli coğrafi mövqeyi, böyük karbohidrogen ehtiyatlarının olması, ölkənin enerji, nəqliyyat və gələcəkdə telekommunikasiya dəhlizlərinin inkişafında fəal iştirakı kömək edir".

C.Sakkonun sözlərinə görə, bu gün Azərbaycan Avropanın enerji təchizatında, o cümlədən Asiya ilə Avropa arasında ticarətin genişləndirilməsi üçün Orta Dəhliz layihəsinin inkişafında önəmli rol oynayır. Orta Dəhliz layihəsi Çini Avropa ilə birləşdirməyə yönəlmiş böyük bir layihədir. Bu, Çin–Azərbaycan münasibətlərinin iqtisadi və siyasi gələcəyinin müəyyən olunduğu "məsadır".

İqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycanın Çinlə əməkdaşlığa böyük ehtiyacı var. Bu gün ölkə "Bir kəmər, bir yol" layihəsinin Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu ilə birləşdirilməsi istiqamətində ciddi iş aparır. Bu dövlətlər arasında alternativ enerji mənbələri sahəsində sıx əməkdaşlıq mövcuddur. Azərbaycanın Çində 5 ticarət evi açması, 2023-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin rekord həddə – 3,1 milyard dollara çataraq 43 faiz artım əldə etməsi məhz bunun parlaq ifadəsidir.

Azərbaycan hazırda karbohidrogen istehsalçısı kimi dünya iqtisadiyyatında mühüm yer tutur. Lakin buna baxmayaraq, bu ölkə postkarbon iqtisadiyyatının inkişafında dünyanın digər ölkələri, o cümlədən Çinlə əməkdaşlığa xüsusi diqqət yetirir. Çin şirkətləri Azərbaycanda bərpaolunan enerjinin böyük potensialını reallaşdırmaq üçün iqlim layihələrində iştirak etməkdə maraqlıdırlar.

C.Sakko müsahibəsində COP29-un ev sahibi kimi Azərbaycanın strateji planları və təşəbbüslərini də yüksək dəyərləndirib. Ölkəmizin karbonsuzlaşma sahəsindəki fəaliyyətinin əsas istiqaməti olan enerji keçidi sahəsindəki fəaliyyətinin COP29 prezidentliyinin Azərbaycana keçməsindən xeyli əvvəl başladığını vurğulayıb.

Beynəlxalq münasibətlər üzrə professor təmiz hidrogenin COP29 sədrliyinin təşəbbüslərindən biri olacağına, xüsusilə də beynəlxalq sertifikatlaşdırma sxemləri sahəsində atılacaq addımların bu sahənin inkişafına təkan verəcəyinə əminliyini diqqətə çatdırıb. C.Sakko, həmçinin Azərbaycanda bu sahədə beynəlxalq tərəfdaşlarla görülən işlərdən bəhs edib və Xəzər–Avropa Yaşıl Enerji Dəhlizi çərçivəsində sadəcə yaşıl elektronların deyil, həm də yaşıl hidrogenin ixrac imkanlarının araşdırıldığını vurğulayıb.

Müsahibəsindən bəzi məqamları diqqətə çatdırdığımız xarici ekspertin sözlərindən aydın görünür ki, Azərbaycan COP29-a evsahibliyi missiyasını üzərinə götürməklə müsbət ekoloji dəyişikliklə bağlı beynəlxalq aləmə böyük töhfə verməyi, habelə bu istiqamətdə çıxış edən ölkələr üçün model nümunəsi göstərməyi qarşıya mühüm vəzifə kimi qoyub. Başqa sözlə, respublikamız artıq "yaşıl enerji" iqtisadiyyatını əməli fəaliyyəti ilə yeni müstəvidə formalaşdırmaq qərarını qətiləşdirib.

Bəşəriyyətin qlobal iqlim dəyişikliyi ilə mübarizənin yeni mərhələsinə qədəm qoyduğu indiki şəraitdə COP29-dan gözləntilər çoxdur. Belə ki, "yaşıl dünya" ilə bağlı bir sıra yeni prioritetlərin məhz Azərbaycan paytaxtında müəyyənləşdiriləcəyi gözlənilir ki, bu da qlobal iqlim dəyişikliyinə əhəmiyyətli töhfə sayılacaq. Eyni zamanda, uzun illərdir ki, dünya ölkələri qlobal istiləşmənin, karbon emissiyalarının təsirlərinin azaldılması, uyğunlaşma və iqlimin möhkəmləndirilməsi kimi müxtəlif sahələrin maliyyələşdirilməsi ilə bağlı yekdil rəyə gələ bilmirlər. Belə ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr bu problemin həlli üçün 100 milyard dollarlıq fond yaradacaqlarını bildirsələr də, məsələnin həlli düyünə düşüb. Ekspertlərin fikrincə, COP29 bu düyünün açılmasına, iştirakçı ölkələrin maliyyə məsələsində razılığa gələ biləcəyinə böyük ümid bəsləyirlər.

Yeri gəlmişkən, dünya mediası da COP29 ərəfəsində Azərbaycanın bu mötəbər tədbirə ciddi hazırlaşdığını, eyni zamanda, ölkəmizin "yaşıl enerji"dən uzunmüddətli faydalar əldə etməyə çalışdığını bildirir. Bolqarıstanın "Standard" milli informasiya qəzetinin saytında yer alan məqalədə bununla bağlı deyilir: "Ötən il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflərin 29-cu Konfransına evsahibliyi etmək hüququ əldə edən Azərbaycan növbəti onillikdə "yaşıl enerji"yə doğru irəliləməyi qarşısına məqsəd qoyub. Bu ölkə zəngin neft və qaz ehtiyatlarına malik olmasına baxmayaraq "yaşıl enerji"dən də uzunmüddətli faydalar əldə etməyə çalışır".

Məqalədə, həmçinin vurğulanıb ki, Azərbaycan öz vətəndaşları üçün sağlam həyat şəraitinin, eləcə də regionda və bütövlükdə, dünyada insanlar üçün təhlükəsiz yaşayış mühitinin yaradılmasına yardım etmək istiqamətində "yaşıl enerji" siyasətini prioritetə çevirmək arzusunu ifadə edib.

# COP29-un media portalı

**Media nümayəndələrinin COP29-a akkreditasiyası üçün BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) akkreditasiya platformasının fəaliyyətinə start verilib.**

2 iyul tarixindən etibarən portal vasitəsilə dünyanın hər yerindən media nümayəndələri UNFCCC Katibliyinə akkreditasiya üçün müraciət edə bilərlər.

COP29 konfransı media nümayəndələri üçün planetimizin gələcəyini formalaşdıracaq konstruktiv müzakirələr, əlamətdar qərarlar və dayanıqlı gələcək üçün atılan birgə addımları dünya ictimaiyyətinə çatdırmağa unikal imkan yaradacaq. Belə ki, COP29-a akkreditə olunmuş jurnalistlər konfrans çərçivəsində media üçün nəzərdə tutulmuş peşəkar məzmun və infrastruktura birbaşa çıxış əldə etməklə yüksək səviyyəli danışıqları əyani və ya onlayn şəkildə izləmək, konfransın rəsmi proqramına birbaşa çıxış əldə etmək, iqlim dəyişmələri sahəsində elmi və texnoloji yeniliklərdən xəbərdar olmaq kimi bir sıra imkanlardan, eləcə də konfransın rəqəmsal qlobal auditoriya platformasından yararlana biləcəklər.

COP29-un Yaşıl və Mavi zonalarına giriş imkanı yaradan akkreditasiya ilə jurnalistlər həmçinin tədbir çərçivəsində təşkil ediləcək mətbuat konfransları, brifinqlər və digər media tədbirlərinə qatıla biləcək, eyni zamanda tədbir məkanında yerləşən mətbuat mərkəzlərinə və media zonalara giriş əldə edəcəklər. Yaşıl Zonaya girişi təmin edən akkreditasiya növü üzrə isə qeydiyyat COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən aparılacaq və yaxın zamanda elan ediləcək.

Bilavasitə UNFCCC tərəfindən müəyyən edilmiş tələb və prosedurlara əsasən təşkil olunan akkreditasiya prosesi Konvensiyanın rəsmi saytında mövcud olan qeydiyyat portalı vasitəsilə aparılmaqdadır. Akkreditasiya çap və onlayn media orqanları, televiziya və radio təmsilçiləri, fotojurnalistlər və digər media nümayəndələrinə təqdim olunacaq. Elektron platformada qeydə alınan ərizələr UNFCCC tərəfindən qiymətləndiriləcək və akkreditasiya meyarlarına cavab verən media nümayəndələri təsdiq bildirişi alacaqlar.

Hər bir COP konfransında olduğu kimi, bu il keçiriləcək COP29-a da geniş miqyasda media nümayəndələrinin qatılması gözlənilir. Bu səbəbdən, media iştirakçılığının səmərəli təşkilinin təmin edilməsi və bütün lazımi texniki hazırlıqların icrası üçün müraciətlərin qısa müddət ərzində təqdim edilməsi tövsiyə edilir.

Prosedurla bağlı daha ətraflı məlumat əldə etmək üçün mediaaccreditation@cop29.az elektron ünvanına müraciət oluna bilər.

***XQ***

# İtalyan şirkətləri ilə "hidrogen" əməkdaşlığı

**İtaliyada səfərdə olan energetika naziri Pərviz Şahbazov dünən bu ölkənin "Baker Hughes" şirkətinin iqlim texnologiyaları həlləri üzrə baş vitse-prezidenti Alessandro Bresciani ilə görüşüb.**



Görüşdə enerji texnologiyası şirkətinin "yaşıl" keçid platformasında iştirakını gücləndirən fəaliyyəti, ölkəmizlə yeni texnologiyaların tətbiqi ilə hasilatda məhsuldarlıq və səmərəliliyin artırılması üzrə əməkdaşlığı nəzərdən keçirilib, dayanıqlı enerji həlləri və dekarbonizasiya istiqamətində əməkdaşlıq məsələlərinə toxunulub. Bununla yanaşı, COP29 vasitəsilə enerji keçidinin təşviqi və bu xüsusda, "Baker Hughes" şirkəti ilə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

Azərbaycanın energetika nazirinin "Zhero" şirkətinin həmtəsisçisi və "Zhero Europe" üzrə baş icraçı direktor Alessandra Pasini ilə görüşündə isə "yaşıl hidrogen"dən əldə edilən elektrik təbii qazı (e-NG) üzrə əməkdaşlıq perspektivləri müzakirə edilib. Aparıcı enerji şirkətləri ilə tərəfdaşlıq əsasında həyata keçirilən və Avropanı Afrika ilə əlaqələndirən genişmiqyaslı bərpaolunan enerji layihələri, bu "yaşıl molekul"ların xalis sıfıra nail olunmasında rolundan danışılıb. "Xəzər–Qara dəniz–Avropa" və "Mərkəzi Asiya–Azərbaycan–Avropa" yaşıl enerji dəhlizləri layihələrinin həyata keçirilməsi və hidrogen istehsalı-ixracı planları kontekstində şirkətin elektrik təbii qazı üzrə ölkəmizlə əməkdaşlığa marağı ifadə edilib.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Göz görür, könül bulanır

# BDU-nun yolu dükan-bazarlı...

## Təhsil ocağına gedən səkiləri kimlər zəbt ediblər?!




**"Xalq qəzeti"nin 24 aprel 2024-cü il tarixli nömrəsində "Səkilərə kim sədd çəkib?.." sərlövhəli tənqidi məqalə dərc olunub. Yazıda Bakı Dövlət Universitetinə gedən yolda qeyri-qanuni tikinti işlərinin aparılmasından söhbət açılır.**

Ümid edirdik ki, müvafiq səlahiyyətli qurumlar bu ali məktəb ocağının müəllim-tələbə heyətini, eləcə də ətrafda yaşayan çox sayda sakinləri narazı salan bu məsələ ilə bağlı lazımi tədbirlər görəcəklər. Təəssüf ki, gözləntilərimiz özünü doğrultmadı.

Belə ki, 24 may 2024-cü il tarixdə Yasamal Rayon İcra Hakimiyyətindən aldığımız cavab məktubunda yazılır: "Yasamal rayonu Bəxtiyar Vahabzadə küçəsində hasarlanmış torpaq sahəsində vətəndaş Qasımova Aytac Mehdi qızı və Səmədova Günay Mehdi qızı tərəfindən (Bakı Şəhər İcra Hakimiyyətinin 20 aprel 2018-ci il tarixli 262 nömrəli sərəncamı və tərəflər arasında bağlanmış 21 may 2020-ci il tarixli 1582 saylı icarə müqaviləsi) əsasında qeyri-yaşayış binası inşa edilir. Tikinti işləri başa çatdıqdan sonra hasar sökülərək səki tam bərpa ediləcəkdir".







Mənasız cavabdır, eləmi?... Yəni ay müxbir baba, sus otur yerində. Bakı Şəhər İcra Hakimiyyətinin sərəncamı olan yerdə kimin danışmağa nə cürəti var?!

Yanılırlar. Biz qələm əhliyik, böyük Mirzə Cəlilin, dahi Sabirin varisləriyik, başdansovdu cavablara adekvat reaksiya göstərməyə haqqımız və cürətimiz çatır.

Əvvəlcə, hörmətli səlahiyyət sahiblərindən soruşmaq istəyirik: Bakı metrosunun "Elmlər Akademiyası" stansiyasından üzü Bakı Dövlət Universitetinə gedən Bəxtiyar Vahabzadə küçəsini hasarlayaraq, özəl torpaq sahəsinə çevirib vətəndaşlara sərəncamla icarə müqaviləsi əsasında qeyri-yaşayış binası inşa etdirməyə icazə verməyə qanunlarımız yol verirmi?

Vermir!

Hər bir tikinti obyekti üçün boş, istifadəsiz torpaq sahəsi ayrılmalıdır. Yalnız bu halda sərəncam verilməlidir. Əgər bu, yoxdursa, sadəcə hər hansısa bir icarə müqaviləsi bağlamaq üçün sərəncam verilibsə, bu, əlbəttə, qeyri-qanunidir! Qanunlar isə hər birimiz üçün alidir, toxunulmazdır! Çünki qanunlar dövlətin və xalqın mənafelərini təcəssüm etdirir.

Yasamal RİH rəhbərliyinin bir daha yadına salmaq istəyirik: Söhbət Bəxtiyar Vahabzadə küçəsindəki səkilərdən gedir. Bu səkilərin üstündə göbələk kimi artan sənədsiz, sübutsuz (amma məlum oldu ki, "sənəd"lər var) tikililəri gördükcə, ürəyimiz qan ağlayır. Hara gedirik bu nəfslə, bu hökmlə, ilahi?!..

Cavab məktubunda belə bir cümlə də yazılıb: "Tikinti işləri başa çatdıqdan sonra hasar sökülərək səki tam bərpa ediləcəkdir".

Bu cavab vaxtı uzatmaq və baş aldatmaqdan başqa bir şey deyil. Əslində, Bəxtiyar Vahabzadə küçəsində hasarlanmış səkilərdə tikinti işləri təcili surətdə dayandırılmalıdır.

Axı bura ölkənin ən böyük elm, təhsil məbədinin yoludur. 2-3 mərtəbəli xidmət və ticarət binalarının inşası başa çatdıqdan, hasar söküləndən sonra, yeni obyektlərin altında qalan səkilər necə tam bərpa oluna bilər?!

Bu şəhərin ruhunu nə vaxta kimi incitmək olar? Axı, bura bizim evimizdir, qəlbimizin bir parçasıdır, yaddaşımızdır, nəfəsimizdir. Qədim Bakının nəfəs yollarının bağlanması ayrıca bir kədərli mövzudur. Bu barədə ayrıca yazmağa hazırlaşırıq.

Cavab məktubunda, həmçinin yazılıb ki, tərəflər arasında bağlanmış 21 may 2020-ci il tarixli 1582 saylı icarə müqaviləsi əsasında qeyri-yaşayış binası inşa edilir. Səlahiyyətli orqanlara bir daha müraciət edirik: icarə müqaviləsinə sərəncam verilə bilərmi?!

Yasamal RİH rəhbərliyi sonra yazır ki, qəzet səhifələrində tənqidi məqaləni müşayiət edən digər fotolarda əks olunmuş Zahid Xəlilov küçəsi istiqamətindəki obyektlərin tikintisi uzun illər bundan qabaq müvafiq sənədlər əsasında aparılmışdır. Deməli, rayon rəhbərliyinin oradakı qanunsuzluqları aradan götürmək niyyəti yoxdur?!

Bəs, Azərbaycan Respublikası Tikintiyə Nəzarət, Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyi şəhərin Bəxtiyar Vahabzadə və Zahid Xəlilov küçələrindəki qanunsuz inşaat işləri barədə nə düşünür? İnanmaq istərdik ki, komitə tezliklə öz prinsipial mövqeyini ortaya qoyacaq!

**P.S. BDU-ya gedən küçələrin səkilərini zəbt etməyə heç kimin nə hüquqi, nə də mənəvi haqqı var. Hörmətli məmurlar! Gəlin, bu həqiqəti unutmayaq.**

*Kəmalə ABDİNOVA*
*XQ*

Təbiət sınağa çəkir



# Sellər-sular aşıb-daşır...

## *Davamlı yağıntılar bölgələrdə fəsadlar yaradıb*

**Ölkə ərazisində son günlər atmosfer təzyiqinin kəskin dəyişməsi səbəbindən uzun sürən yağışlar baş verir. Nəticədə, bir çox bölgələrdə sel və daşqınlar yaranaraq, əhaliyə və iqtisadiyyata ziyan vurur.**

Milli Hidrometeorologiya Xidmətinin rəisi Nazim Mahmudov qeyd edib ki, son günlər ölkə ərazisində düşən yağıntının miqdarı əksər bölgələrdə normadan xeyli çox olub. Xidmət rəisi, həmçinin bildirib ki, iyun ayı yüksək temperatur rejimi ilə fərqlənib. Belə ki, ay ərzində havanın temperaturu 28 gün normadan yüksək olub. Lakin ayın sonuna doğru soyuq atmosfer cəbhəsinin təsiri nəticəsində ötən günlərlə müqayisədə temperatur bir qədər enib və 2 gün normadan aşağı olub.

İyul ayının ilk günlərində də bölgələrdə yağıntılar olub. İyulun 2-də bəzi dağlıq və dağətəyi rayonlarda şimşək çaxıb, leysan xarakterli yağış yağıb. Düşən yağıntının miqdarı Gədəbəydə 33 mm, Daşkəsəndə 13 mm, Ordubad, Göygöldə 9 mm, Sədərəkdə 7 mm, Gəncə, Şərurda 6 mm, Tovuz, Şəmkir, Qax, Balakən, Zaqatala, İsmayıllı, Göyçay, Goranboy, Şəki, Xaltan, Kürdəmir, Lerik, Ceyrançöl, Naftalan, Şahbuz, Naxçıvan, Beyləqan, Mingəçevir, Yevlaxda 3 mm olub.

Dünən Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə intensiv yağışlar səbəbindən Qəbələ rayonu Nohurqışlaq kəndi ərazisindəki Nohur gölündə suyun səviyyəsinin artması və ətraf ərazilər üçün təhlükəli vəziyyətin yaranması barədə məlumat daxil olub. Bununla əlaqədar əraziyə FHN-in Şimal-qərb Regional Mərkəzinin qüvvələri cəlb olunub. Hazırda mərkəzin qüvvələri tərəfindən gölün daşmasının qarşısını almaq məqsədi ilə suyun səviyyəsinin endirilməsi və digər müvafiq təhlükəsizlik tədbirləri həyata keçirilir.



İyulun 1-də intensiv yağışlar səbəbindən Pirsaat çayının Hacıqabul rayonunun Qubalıbaloğlan kəndindən keçən hissəsinə sel gəlməsi nəticəsində bəzi fərdi yaşayış evlərinin həyətyanı sahələri və zirzəmiləri subasmaya məruz qalıb. Fövqəladə Hallar Nazirliyinin qüvvələri zəruri və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi məqsədilə həmin əraziyə cəlb edilib.

Hazırda FHN-in Muğan Regional Mərkəzinin və Mülki Müdafiə Qoşunlarının qüvvələri tərəfindən su basmış yerlərdən suyun çəkilərək kənarlaşdırılması və digər müvafiq təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi istiqamətində işlər intensiv şəkildə davam etdirilir.



Fəsadlar Cənub bölgəsindən də yan ötməyib. İyunun 3-cü ongünlüyündə dağlıq və dağətəyi ərazilərdə leysan xarakterli, intensiv və güclü yağışlar yağıb, şimşək çaxıb. Astarada Pensərçay məcrasını dəyişib, çay kənarı evlər üçün təhlükə yaranıb. Astara rayonun Siyəkü kəndi ərazisində Pensərçay çayı 40 metrəyə qədər məcrasını dəyişib, sahilboyu ərazidə yerləşən 30 nəfər kənd sakinin həyətyanı torpaq sahəsinin 5-7 metr enində olan hissəsini yuyaraq aparıb, arı ailələri, ev quşları, sitrus və meyvə ağaclarına ziyan vurub.

Liəzi kəndində uzunluğu 8 metr, eni 4 metr, Siyakeş kəndində uzunluğu 12 metr, eni 4 metr və uzunluğu 8 metr, eni 4 metr, Şağlazüzə uzunluğu 8 metr, eni 4 metr olan, ümumilikdə, 4 ədəd dəmir konstruksiyadan olan avtomobil körpülərini yarasız hala salmış, Viləşə, Bili, Çüvaş və Miki kəndlərində çınqıl örtüklu avtomobil yollarına ziyan dəyib. Kijəbə-Maşxan kəndlərarası avtomobil yolunda torpaq sürüşməsi nəticəsində yol bağlanıb.

Sakinlər deyirlər ki, həmin gecə Pensərçayda suyun səviyyəsi 5 metrə kimi qalxıb və su həyətlərə dolub, çay kənarı evləri basıb. Sel suları vətəndaşların həyətində sitrus, meyvə ağaclarını da aparıb. Təbii fəlakət Lənkəran–Astara Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən 7 tədris ocağına ziyan vurub.

Lerikdə də güclü qasırğa və dolu ciddi fəsadlar törədib. Lənkəran–Lerik avtomobil yolu uçqun səbəbindən bağlanıb, yolun 30, 32, 34, 35 və 37 kilometrliyində sel sularının gətirdiyi qum, çınqıl, ağac və qaya parçaları və torpaq kütləsi yolu bağlayıb. 52 saylı Yol İstismarı Məhdud Məsuliyyətli Cəmiyyətinin ağır texnikaları və canlı qüvvəsi yolun açılmasına cəlb edilərək yolda hərəkət qismən bərpa olunub.

Bir neçə gün ərzində rayon icra hakimiyyəti, ərazi icra nümayəndələri, bələdiyyə qurumları və yol istismar sahəsinin köməkliyi ilə Lənkəran–Lerik və ərazilərə gedən bütün avtomobil yollarına gediş-gəliş tam təmin edilib, yollar daş, qum, çınqıl, palçıqdan təmizlənib.

Dolu və qasırğa infrastruktura, təsərrüfatlara ciddi ziyan vurub. Şəhərin müxtəlif yerlərində 598 kvadratmetr istinad divarları uçub, 370 kvadratmetr asfalt örtüyü dağılıb, dam örtüklərinə zərər dəyib. Taxılçılıq, tərəvəzçilik sahələri yararsız hala düşüb. Torpaq sürüşməsi isə Lerik-Lənkəran magistralının 37-ci kilometrində – Lerik rayonunun Peştətük kəndi ərazisində baş verib. Rayon Fövqəladə Hallar Komissiyasının sədri Habil Məlikovun sözlərinə əsasən, hazırda bərpa işləri davam edir.

Vətəndaşların yaşayış evlərinə, fərdi təsərrüfatlarına, əkin sahələrinə, o cümlədən sosial obyektlərə dəymiş ziyanın dəqiq müəyyən edilməsi və aradan tam qaldırılması üçün komissiyası tərəfindən iş davam etdirilir.

Sinoptiklər bildirirlər ki, rayonlarda müşahidə olunan qeyri-sabit hava şəraiti iyulun 3-ü axşamadək davam edəcək. Həmin gün Azərbaycanın əsasən dağlıq və dağətəyi rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi proqnozlaşdırılır. Axşama doğru yağıntı tədricən kəsiləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 29-34° isti, dağlarda gecə 8-13°, gündüz 13-18° isti olacağı bildirilir.

*Əli NƏCƏFXANLI,*
*Pünhan ƏFƏNDİYEV,*
*Məsaim ABDULLAYEV*
*XQ*

# "Gələcəyin tədqiqatçıları"na "yaşıl işıq"

**Azərbaycan Dövlət İqtisad Universitetinin reallaşdırdığı "Gələcəyin tədqiqatçıları" adlı qrant layihəsi uğurla yekunlaşıb.**



UNEC Tədqiqat Fondu tərəfindən maliyyələşdirilən və UNEC Empirik Tədqiqatlar Mərkəzi tərəfindən icra olunan layihənin yekun hesabat tədbirində universitet rəhbərliyi, müəllim-tələbə heyəti ilə yanaşı, AMEA-nın müxbir üzvü, tanınmış elm xadimi, "Zadə irsi və süni intellekt" Assosiasiyasının prezidenti professor Rafiq Əliyev də iştirak edib.

Rektor Ədalət Muradov UNEC-də elmi fəaliyyətlə bağlı görülən işlərdən və stimullaşdırıcı tədbirlərdən söz açıb.

O, "Gələcəyin tədqiqatçıları" layihəsinin elmə marağının artırılması, onlara tədqiqat aparmaq, eləcə də nüfuzlu elmi jurnallarda məqalə yazmaq bacarığının aşılanması məqsədilə reallaşdırdıldığını diqqətə çatdırıb.

Sonra bildirilib ki, layihədə 19 tələbə müxtəlif istiqamətləri əhatə edən mövzular üzrə tədqiqatlar aparıb. Layihənin proqramı və qiymətləndirmə meyarlarını Böyük Britaniyanın Qlazqo Universitetində təhsili alan və ETM-nin rəhbərinin müavini Nicat Muradzadə hazırlayıb. Layihə çərçivəsində tələbələrə mentorluq dəstəyi də göstərilib.

Tanınmış elm xadimi, professor Rafiq Əliyev UNEC-də elmi fəaliyyətin artırılması istiqamətində görülən işləri yüksək qiymətləndirib: "İqtisad Universitetində illər öncə elmi tədbirlərdə iştirak etsəm də, həmin dövrlərdə Web of Science, Scopus kimi bazalarda elmi məqalələrin dərc olunması ilə bağlı müzakirələrin aparılmasının şahidi olmamışam. Son illər UNEC-də bu istiqamətdə görülən işlər və əldə olunan nəticələr məni çox sevindirir".

Sonda layihənin iştirakçılarına sertifikatlar təqdim olunub.

*XQ*

“Divanü lüğat-it-türk” – 950

# Türkçülük tarixinin Mahmud Kaşğari zirvəsi

**Xəbər verdiyimiz kimi, AMEA-da Dilçilik İnstiutunun təşkilatçılığı ilə “Mahmud Kaşğari “Divanü lüğat-it-türk” – 950” mövzusunda beynəlxalq elmi konfrans keçirilib. Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli, Türk Dil Qurumunun başqanı, professor Osman Mert və Özbəkistan Respublikası Elmlər Akademiyası Əbu Reyhan Biruni adına Şərqşünaslıq İnstitutunun direktoru, professor Bahrom Abduxalimov çıxış edərək “Divanü lüğat-it-türk”ün misilsiz məziyyətlərindən bəhs ediblər. Daha sonra akademik Nizami Cəfərovun, professor Mahirə Hüseynovanın və professor İsmayıl Kazımovun məruzələri dinlənilib.**

Konfransda Milli Məclisin deputatı, Mahmud Kaşğari adına Beynəlxalq Fondun prezidenti, fəlsəfə üzrə fəlsəfə doktoru Cavanşir Feyziyev də çıxış edib. “Divanü lüğat-it-türk”ün – 950 illiyi və beynəlxalq elmi konfransla bağlı ondan aldığımız müsahibəni təqdim edirik.

***– Cavanşir müəllim, bu ilin dekabrında türklüyün böyük abidəsi olan “Divanü lüğat-it-türk”ün 950 illik yubileyi UNESCO səviyyəsində qeyd ediləcək. Bildiyimiz kimi, həmin əsər bir zaman it-bat edilmişdi, amma ötən il bizim Dilçilik İnstitutunun arxivindən tapılıb və nəşr edilib. Mart ayında ADA Universitetində dəyərli ensiklopediyanın təqdimatı keçirilib, ötən həftə isə yubileylə əlaqədar Bişkek şəhərində “Yazılışının 950-ci ildönümündə “Divanü lüğat-it türk:” Türk dünyasının ortaq dəyəri” mövzusunda beynəlxalq konfrans təşkil olunub. İndi də Bakıda bu möhtəşəm tədbir keçirildi. Bu barədə fikirlərinizi bilmək istərdik.***

– Ondan başlayım ki, türklük təəssübü, türkçülük ideyası bizim 5 ortaq ədəbi abidəmizdə – Orxon-Yenisey yazılarında, “Kitabi-Dədə Qorqud”da, Mahmud Kaşğarinin “Divanü lüğat-it-türk”ündə, Yusif Balasaqunlunun “Kutadqu-bilik” poemasında, Xoca Əhməd Yasəvinin hikmətlərində öz ifadəsini tapmışdır. Amma geniş mənada türkçülük məfkurəsi ən ardıcıl şəkildə, konkret linqvistik, etnoqrafik, tarixi və folklor materiallarına əsaslanaraq, Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" kitabında əks olunmuşdur. Bu səbəbdən də böyük alimi haqlı olaraq türkçülüyün banisi adlandıra bilərik.

İlk türk ensiklopediyamız olan “Divanü lüğat-it-türk”dən danışarkən Azərbaycan türkologiya elminin inkişafına böyük töhfələr verən, Türk dünyasının görkəmli alimi, Kaşğari irsinin araşdırıcısı, “Divanü lüğat-it-türk” kitabının tərcüməçisi və tərtibçisi, fədakar müəllim, əziz Ramiz Əsgərin unudulmaz xatirəsinə ehtiramla onun tədqiqatlarına müraciət etmək istəyirəm.

“Divanü lüğat-it-türk”ün Azərbaycan nəşrinə yazdığı ön sözdə Ramiz Əsgər qeyd edir ki, Mahmud Kaşğari Qərbi Avropa maarifçiləri – Russonu, Didronu, Volteri, Monteskyönü 7 əsr qabaqlamışdır. Divanın ən mühüm özəlliyi dünya dilçiliyi tarixində müqayisəli metodun əsasını qoyması, türk dillərinin müqayisəli qrammatikasını yaratması və zəngin türk dilini köklü ərəb dili ilə qarşılaşdırmaq surətilə bu iki dilin müqayisəsini aparmasıdır. Dillərin müqayisəsi sahəsində Mahmud Kaşğari öz böyük xələfi “Mühakimət ül-lüğateyn” əsərində türk dilinin fars dili ilə müqayisəsini verən dahi mütəfəkkir Əlişir Nəvaini 4 əsr, F.Ğrap, Ü.Qrim, V.Humbolt, R.Rask kimi məşhur dilçiləri isə təqrilən 8 əsr qabaqlamışdır.

***– Bu məsələni “Divan”ın Azərbaycan nəşrinin ön söz müəllifi Süleyman Dəmirəl də vurğulayıb...***

– Bəli, o yazırdı ki, türkologiyanın bahadırı M.Kaşğari yalnız türk dilçiliyinin deyil, bütövlükdə dünyada tarixi-müqayisəli metodun, elmi dilçiliyin banisidir. Mahmud Kaşğarinin özünün qeyd etdiyi kimi, 10–15 il ərzində bütün türk ellərini şəhər-şəhər, kənd-kənd, oba-oba gəzərək, 30-dan yuxarı türk ləhcəsini incəliklərinə qədər öyrənmişdir. Bu gün bir çoxu müstəqil dillər olan bu ləhcələrin arasında oğuz, qıpçaq, bulqar, tatar, türkmən, başqurd, uyğur adlarını xüsusi qeyd edirəm. Müəllif özü yazır ki, “Mən türklərin, türkmənlərin, oğuzların, çiğillərin, yağmaların, qırğızların şəhərlərini və məskənlərini uzun illər başdan-başa dolaşdım, sözlərini topladım, müxtəlif sözlərin xüsusiyyətlərini öyrəndim, yaddaşıma həkk elədim. Mən onlara o qədər diqqət edirdim ki, türk, türkmən, oğuz, çiğil, yağma, qırğız boylarının dilləri bütünlüklə məndə cəm oldu”.

Deməli, bizim günümüzdə meydana çıxan ortaq türk dili məsələsini 9 əsr



bundan qabaq Mahmud Kaşğari türk dillərini mükəmməl mənimsəməkdə görürdü. Əsərdən gətirdiyim bu sitat başqa bir cəhətdən də maraq doğurur. Kaşğari “türk, türkmən, oğuz” yazır, deməli, hər halda, ən azı, bu 3 xalqı bir-birindən fərqləndirir. Bu mənada qədim türklərin




varisləri bugünkü Anadolu türkləridirsə, türkmənlərin varisləri indiki türkmənlərdirsə, oğuzların varisi olmaq bizə, azərbaycanlılara düşür. O da diqqətəlayiq bir məqamdır ki, tarixdə ilk türk xəritəsini yaradan da məhz Kaşğari Mahmud olmuşdur və “Divan”da verdiyi dairəvi dünya xəritəsində bizim vətənimiz Azərbaycan “ərzi Azərabadqan” şəklində göstərilir.

Beləliklə, böyük dilçi, neçə-neçə dilin və ləhcənin bilicisi, ensiklopedist, folklorçu, etnoqraf, tarixçi, ədəbiyyatşünas, coğrafiyaçı kimi müxtəlif sahələri öz şəxsində cəmləşdirən Kaşğari Mahmud tarixdə ilk türkçü, türkçülüyün banisi, nəzəriyyəçisi və fədakar təbliğatçısı kimi mövqe qazanır. Əlbəttə, bu Mahmud Kaşğarinin unikal dahiliyi ilə bağlıdır, amma, eyni zamanda, bu çoxtəreflilikdə dövrün də öz möhürü var. Qaraxanlılar imperiyası tarixdə ilk türk-müsəlman dövlətidir. Türklərin islamı qəbul etmələri nisbətən dinc yolla olmuş və Kaşğari 2 dünyanın, 2 uyğarlığın, 2 mədəniyyətin qovuşduğu bir dövrdə yaşamışdır. Mahmud Kaşğari öz tarixi missiyasını ərəb dünyasına türk dilini və türk dünyasını bütün əlvanlığı ilə tanıtmaqda görürdü.

***– “Divanü lüğat-it-türk” Mahmud Kaşğarinin yeganə əsəridirmi?***

– Yox. O, “Divan”dan əlavə, “Türk dilinin nəhvi” adlı ayrı bir əsər də yazmışdır, amma, çox təəssüf ki, həmin əsər əlimizdə yoxdur. Hər 2 əsər təsdiq edir ki, Mahmud Kaşğari eyni zamanda, türk dili qrammatikasının ilk müəllifidir, ilk dialektoloq və xalq ədəbiyyatı nümunələrini yazıya alan ilk folklorçu olmuşdur. “Divan”dan türk boyları, türk adət-ənənəsi, türk dastan və əfsanələri, ilkin türk şeir inciləri, atalar sözləri və məsəllər barəsində zəngin məlumat alırıq. Bu baxımdan, konfransda çıxış edən Türkiyə Dil Qurumunun başqanı, professor Osman Mertin “Divan”ın əhəmiyyətinə yanaşması ilə tamamilə razıyam. O dedi ki, “Divani-Lüğat-it-türk” əsərinin bu günkü önəmi yazıldığı zamandakı əhəmiyyətindən dəfələrlə çoxdur. Doğrudan da, əgər Mahmud Kaşqarinin bu irsi bizə gəlib çatmasaydı, 1000 il əvvəlki tarixdə əcdadlarımızın dili, mədəniyyəti, adət-ənənələri, yaşadıqları coğrafiya, etnoqrafik xüsusiyyətləri barədə bilgi bazamız olduqca məhdud olardı. Bu baxımdan əsərin dəyərini nə iləsə ölçmək belə mümkün deyil. Bu Mahmud Kaşqarinin türk dünyası qarşısında əvəzsiz və misilsiz xidmətidir.

M.Kaşğari türkün və onun dilinin gələcəyinə inanırdı. Bu dilin ərəb dili ilə yarışa biləcək dərəcədə zəngin və gözəl olduğunu inamla bəyan edirdi. “Divan”da 7500-dən artıq sözün izah və şərhini verən müəllif yazırdı: “Həmin bütün türk boylarının dillərini, qafiyələrini əldə etdim, yalnız unudulmuş kəlmələri bu kitaba aldım. Türk dilinə sonradan girmiş sözləri yazmadım”. Yabançı sözləri yox, ancaq təmiz türk sözlərini lüğətə daxil edən M.Kaşğari doğru bir elmi yol tutmuşdur. Mahmud Kaşğarinin bir fikri də çox vacib və əhəmiyyətlidir, deyir ki, ən təmiz türk dili başqa millətlərlə təmasda olmayan, yəni dilinə yad kəlmələr qarışmamış türklərin dilidir. Böyük alim sanki gələcək əsrlərdə ərəb və fars dillərinin ədəbi dilimizi qəliz ifadələrlə, yabançı sözlərlə yükləməsinin təhlükəsini çox öncədən görürdü.

***– Bildiyimiz kimi, türkologiya tarixində bu möhtəşəm ensiklopedik əsərin ərəb dilindən latın qrafikası ilə ilk tərcüməsi Xalid Səid Xocayevə məxsusdur. Hətta buna görə o, təqib edilib...***

– Xalid Səidin əqidəsi və məfkurəsi türkçülük idi. Belə güman edilir ki, Xalid Səid həbs olunan gecə NKVD əməkdaşları tərəfindən “Divanü lüğat-it-türk”ün tərcüməsinin bir nüsxəsi müsadirə edilərək götürülmüş və alimin bir çox əsərləri kimi, “Divan” da məhv edilmişdir. Xoşbəxtlikdən, “Divanü lüğat- it-türk” əsərinin tərcüməsi Dilçilik İnstitutunun arxivində qorunub saxlanılmışdır. 2021-ci ildə akademik İsa Həbibbəylinin təşəbbüsü ilə Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli kitabın axtarışına çıxır və bu iş uğurla nəticələnir. Düz 86 ildən sonra kəmtaleli kitabın bəxtinə Günəş doğur, “şəhid bir alimin sahibsiz qalmış elmi mirası”nın tapılma tarixi məhz o gündən başlayır − 19 yanvar 2022-ci ildən. Kaşğari irsinin günümüzə gəlib çatmasında böyük xidmətləri olan şəhid alim Xalid Səid Xocayevə, Ramiz Əsgərə Uca Tanrıdan rəhmət diləyir, əziz xatirələrini ehtiramla anırıq.

Mən konfransda “Divanü lüğat-it-türk”ün haqqında söz açdığım nüsxəsini itmək, unudulmaq təhlükəsindən xilas edən dəyərli professor Nadir Məmmədliyə bu fədakarlığa görə minnətdarlığımı bildirdim və rəhbəri olduğum Mahmud Kaşğari adına Beynəlxalq Fondun təsis etdiyi medalı və layiq olduğu “Mahmud Kaşğari” ödülünü təqdim etdim.

***– Maraqlı söhbət üçün çox sağ olun!***

***Əli NƏCƏFXANLI***
***XQ***

Qızılağac qoruğu – 95

**Təbiətin əsrarəngiz guşələrindən, qoruqlardan söhbət açılanda, nədənsə, ilk növbədə, ölməz Səməd Vurğunun bu misrası yadıma düşür: “Ovçu, insaf elə, keçmə bu düzdən, O çöllər qızını ayırma bizdən...”**



# Bura məskənidir gözəlliklərin

Bəlkə də insanların təbiətə bəzən ögey münasibət bəsləməsi ilə bağlı bir assosiasiyadır. Hər bir halda, dövlətin və xalqın milli sərvəti olan qoruqlara, milli parklara hərtərəfli qayğı göstərilməlidir. Yaxşı ki, ölkəmizdə bu sahədə vəziyyət həyəcan doğurmur. Elə 95 yaşı olan Qızılağac Dövlət Təbiət Qoruğunun, digər bənzər məkanların lazımınca mühafizə olunması bu baxımdan müəyyən xətircəmlik yaradır.

Qoruğun yerləşdiyi Qızılağac körfəzi lap qədimdən 2 əsas sərvəti – balıq ehtiyatının və köçəri, yerli su quşlarının çoxluğu ilə diqqəti cəlb edib. Buraya Avropanın şimalından, Qərbi Sibirdən, Uraldan, Qazaxıstandan, Karsk və Ağ dəniz sahillərindən, Peçora, Ob çayları hövzələrindən, Baykal gölündən, Uzaq Şərqdən, Yaponiya, Skandinaviya ölkələrindən quşlar gəlir. Uzun illər boyu Qızılağac körfəzi ona qonşu göl, bataqlıqları ilə “Quşlar diyarı” kimi təbiətşünasların, səyyahların, nəhayət, ornitoloq-zooloqların diqqətini cəlb edib. Hətta I Pyotr 1722-ci ildə Xəzər ətrafına yürüşü zamanı bu körfəzin öyrənilməsini əmr edib. 1726-cı ildə ilk müfəssəl xəritə hazırlanıb.

Qızılağac dövlət təbiət qoruğu 1929-cu ildə Xəzər dənizi sahilinin cənub-qərbində 88,4 min hektar ərazidə köçəri, su, bataqlıq və çöl quşlarının qışlaması, artırılması və qorunması məqsədilə yaradılıb. Ərazisi və ətrafı su, bataqlıq və yarımsəhra bitkiləri ilə zəngindir. Sahəsinə görə Azərbaycanda ən böyük qoruq hesab olunur. 1929-cu ildə bura Dövlət Təbiət qoruğu elan olunub, 1976-cı ildə UNESCO-nun siyahısına əsasən su quşlarının yaşadığı beynəlxalq əhəmiyyəti olan sulu-bataqlıq yer kimi daxil edilib. Təqribən 50 faizi su akvatoriyasıdır, sahil zonasında göl və bataqlıqlar var. Azərbaycan dövlət müstəqilliyini elan etdikdən sonra, 2001-ci ildə qoruq yenidən Beynəlxalq Əhəmiyyətli Sulu Bataqlıq Yerlər Siyahısına daxil edilib.

Qoruğun Böyük körfəz ərazisi balıq körpələrinin yetişməsində bütün cənubi Xəzər üçün mühüm rol oynayır.

Uzun müddət Cənub bölgəsi üzrə müxbir işlədiyim üçün o tərəflərə gedən yolları çox “yormuşam”. Hər dəfə magistralın ətrafında nadir çöl quları, xalxal balıqlar satan brakonyerləri görəndə istər-istəməz qanım qaralıb. Bir gün onlardan birinə irad tutanda özünü savadlı göstərərək dedi: “Bəstəkar Müslüm Maqomayev Lənkəranda işləyən zaman çəltikçi qızların mahnılarını nota köçürürmüş. Dostu Mirzə Əbülfəz Əsədullayev bir dəfə ondan soruşur:

– Müslüm müəllim, neçə illərdir çəltik sahələrində oxuyanlardan nəğmə toplayırsan, bəs bu nəğmələr yığılıb qurtarmadımı?

Müslüm Maqomayev cavab verir:

– Nə dəryada balıq qurtarar, nə də Talışda nəğmə! İndi, ay qardaş, 5-6 qışla qoruq tükənməyəcək ki...”

Ona dedim ki, tükənər də, yox olar da. Hər kəs təbii sərvətlərləri, ekoloji saflığı qorumağa, nəsildən-nəslə ötürməyə borcludur. Təəssüf ki, bəzən səhlənkar insanlar təbiəti qorumaq, mühafizə etmək əvəzinə, onun qəniminə çevrilirlər. Bir neçə il əvvəl Milli Məclisin deputatı, Xalq şairi Sabir Rüstəmxanlı yurdumuzun dilbər guşələrindən biri olan Qızılağac qoruğunun durumu barədə həyəcan təbili çalaraq demişdi ki, Azərbaycan təbiəti heyvan və quşların sayı baxımından o qədər də zəngin deyil. Odur ki, nadir heyvanların kökünün kəsilməsinə yol verməк olmaz. Xaricdən gələnlərin də Azərbaycanda ov etməsinə qadağa qoyulmalıdır.

Etiraf edək ki, bu gün qoruqda vəziyyət əvvəlki illərdən qat-qat yaxşıdır. Qanunsuz ovlara qarşı müvafiq orqanlar, o cümlədən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Daxili İşlər Nazirliyi ciddi mübarizə aparır.



Kür–Araz və Lənkəran ovalıqlarında yerləşən qoruğun şimal hissəsində mülayim və mülayim isti iqlim, cənub hissəsində isə mülayim quru və yay iqlimi müşahidə olunur. Kolluq və qamışlıqlar ov quşlarının gizlənməsi üçün münasibdir.

Dövlət Təbiət Qoruğunun nəzdində 2018-ci ildə ümumi sahəsi 99060 hektar olan Qızılağac Milli Parkı yaradılıb. Bura flora və faunasına görə Xəzər ətrafında ən mühüm parklardan biridir. Vaxtaşırı ekoloji monitorinqlər həyata keçirilir, flora və fauna növlərinin qorunub saxlanması, bərpası, təbii komplekslərin mühafizəsinin gücləndirilməsi, eləcə də elmi tədqiqatlar, turizm və istirahət üçün şərait yaradılır, əhalinin ekoloji cəhətdən maarifləndirilməsi təşkil edilir.

Qızılağac qoruğu ölkəmizin incisidir. Burada ildə 300 növə yaxın quşlar məskunlaşır, 50-dən çox balıq növünə rast gəlinir. Respublikanın “Qırmızı Kitabı”na düşən quşların əksər növləri qoruqda və onun sərhəd ərazilərində müşahidə olunur.

Azərbaycanda 10 milli park, 10 dövlət təbiət qoruğu, 2 qeydiyyatda olmayan qoruq, 24 dövlət təbiət yasaqlığı var. Ən böyüyü və ən yaşlısı Qızılağacdır. Yerli və xarici turistlər burada həvəslə gəzir və heyranlıqlarını gizlətmirlər. Elə edək ki, bu heyranlıq azalmasın.

***Ə.DOSTƏLİ***
***XQ***

# “Ulduz” yeni libasda

**Dərginin üz qabığı, mündəricatından tutmuş son səhifəsinə qədər dizaynında dəyişiklik olunub, səhifə sayı da artırılıb. Yeni dizayn qardaş Türkiyədə hazırlanıb və növbəti saylar da eyni qaydada tərtib ediləcək.**

“Ulduz”un baş redaktoru, Əməkdar jurnalist, şair Qulu Ağsəsin XQ-yə verdiyi məlumata görə, daha bir yeni təşəbbüsün reallaşması gözlənilir. Belə ki, Ankarada çap olunan “Gənc ürəklər” dərgisinin baş redaktoru Muhterem Şahinlə əldə edilən razılığa əsasən, “Ulduz”un növbəti xüsusi buraxılışı “Gənc ürəklər” dərgisində, “Gənc ürəklər” dərgisinin növbəti sayı isə “Ulduz”da oxuculara təqdim olunacaq.

Dərginin iyun sayı maraqlı bədii mətnlərlə zəngindir. İlk səhifə Tural Cəfərlinin “Özüylə söhbəti... və şeirləri” ilə açılır. Sərdar Aminin “Rəsul nəsə demək istəyir”, Təvəkkül Boysunarın “Araz axır qıyğacı”, Ayişə Nəbinin “Relsə bağlanan çoban”, Nazilə Gültacın “İki limon”, “Murad futbola baxırdı”, “Stabilizator”, Mətanət Ulu Şirvanlının “Dikbaş”, İlqar İsmayılzadənin “İtmiş pul” hekayələri, Aydan Abdullayevanın “Darıxan yazı” essesi dərginin bu sayında işıq üzü görüb. Bir müddət əvvəl dünyasını dəyişmiş gənc yazıçı Murad Muradovun “Kərimin ördəkləri” hekayəsi də ruhuna ehtiram əlaməti olaraq yeni buraxılışda dərc olunub.

“Ulduz” jurnalı və Azərbaycan Yazıçılar Birliyinin Ədəbiyyat Fondunun təşkilatçılığı ilə Vaqif Səmədoğlunun 85 illik yubileyinə həsr olunmuş, 35 yaşa qədər gənclər arasında keçirilən şeir müsabiqəsinin qalibləri – Cavid Qasımov, Allahşükür Ağa, Rəşad Nağı Mustafa, Eminquey Akif, El Roman, Seyyidəli Sübhinin şeirləri iyun sayında çap olunub. Eyni zamanda, Hafiz Hacıxallı, Aysel Nəsirzadə, Rəsmiyyə Sabir, İnqilab İsaq, Ədalət Salmana məxsus poetik nümunələr “Şeir vaxtı”nda oxuculara təqdim edilib.

“Tərcümə saatı”nda Xatirə Nurgülün tərcüməsində Sergey Dovlatovun “Ariel” hekayəsi dərc olunub. Yazıçı-publisist Nadir Yalçın tanınmış şair Baba Vəziroğlu ilə həmsöhbət olub. Bu dəfə “Nobel” üzrə ədəbiyyat mükafatları laureatlarından Andre Jidin həyat və yaradıcılığı barədə İlham Abbasovun “Cuhud” soyadlı fransız yazıçısı” adlı məqaləsində bəhs edilib.

“Gənc yazarlar üçün ustad dərsləri”nin növbəti mövzusu “Xorxe Borxesin “Dörd dövrə”si barədədir. Bakı Dövlət Universitetinin dosenti Məti Osmanoğlu həmin esseni şərh edib. İyunun “Tribuna”-sında filologiya elmləri doktoru Vaqif Yusifli “Yeni ədəbi nəsil” başlıqlı yazısında ümumi mənzərəyə nəzər salıb, ikimininci illərin ən gənc nümayəndələrindən bəhs edib.

“Dərgidə kitab” da İlhamə Nasirin qələm nümunələri işıq üzü görüb. “Dərgidə sərgi”ni isə Sumqayıt şəhəri 11 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdi Fəridə Cəfərovanın rəsmləri bəzəyir.

***XQ***



## AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI
## QƏRAR

**№ 3-27/3-7-10/2024/1**

**Bakı şəhəri** **28 iyun 2024-cü il**

**Metro nəqliyyatında sərnişindaşıma xidməti üzrə tarifin tənzimlənməsi barədə**

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 sentyabr tarixli 767s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

**1.** Metro nəqliyyatında sərnişindaşıma xidmətinin tarifi bir gediş üzrə 50 qəpik təsdiq edilsin.

**2.** Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3.** Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri**
**Rəşad Nəbiyev**

## AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI
## QƏRAR

**№ 3-27/3-7-8/2024/1**

**Bakı şəhəri** **20 iyun 2024-cü il**

**Ölkədaxili müntəzəm şəhərlərarası (rayonlararası), şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında sərnişindaşıma və şəhərlərarası (rayonlararası) müntəzəm avtobus marşrutlarında baqajdaşıma xidmətlərinin tariflərinin təsdiq edilməsi haqqında**

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 sentyabr tarixli 767s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

**1.** "Ölkədaxili müntəzəm şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı hədləri" təsdiq edilsin (əlavə olunur).

**2.** Bakı-Sumqayıt (Sumqayıt-Bakı) müntəzəm avtobus marşrutlarında sərnişindaşıma xidmətinin tarifi bir gediş üzrə 70 qəpik təsdiq edilsin.

**3.** Bakı şəhəri-Abşeron rayonu (Abşeron rayonu-Bakı şəhəri), Sumqayıt şəhəri-Abşeron rayonu (Abşeron rayonu-Sumqayıt şəhəri) müntəzəm avtobus marşrutlarında sərnişindaşıma xidmətinin tarifi bir gediş üzrə, bu Qərarın 1-ci hissəsi ilə Bakı, Xırdalan və Sumqayıt şəhərlərinin inzibati ərazisidə müəyyən olunan şəhərətrafı və qəsəbələrarası marşrutlar üzrə tariflərin yuxarı həddində təsdiq edilsin.

**4.** Abşeron rayonu, Sumqayıt və Bakı şəhərləri arasında müntəzəm avtobus marşrutları istisna olmaqla, digər müntəzəm şəhərlərarası (rayonlararası) avtobus marşrutlarında sərnişindaşıma xidməti üzrə tarifin yuxarı həddi bir kilometr üçün 3,7 qəpik təsdiq edilsin.

**5.** Müəyyən edilsin ki, sərnişinlərin üç ölçüsünün cəmi 120 sm-dək (60 sm x 40 sm x 20 sm) olan və çəkisi 20 kq-dan çox olmayan bir ədəd əl yükünün (5-10 yaş arası uşaqlar üçün çəkisi 10 kiloqram), uşaq arabasının və əlilliyi olan sərnişinlərin əlil arabasının və onların hərəkətliliyini və ya reabilitasiyasını təmin etmək üçün zəruri olan digər vasitələrin daşınması üçün daşıma haqqı ödənilmir.

**6.** Bu Qərarın 5-ci hissəsi nəzərə alınmaqla, müntəzəm şəhərlərarası (rayonlararası) avtobus marşrutlarında baqajın daşınması xidmətlərinin tarifləri hər on kilometr məsafə üzrə bir kiloqram çəki üçün 0,08 qəpik təsdiq edilsin.

**7.** Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

8. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri**
**Rəşad Nəbiyev**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 20 iyun tarixli 3-27/3-7-8/2024 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

**Ölkədaxili müntəzəm şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı hədləri**

| Marşrut | Məsafə (dövrün uzunluğunun yarısı) | Tarif (manat) |
|---|---|---|
| I | II | III |
| Şəhərətrafı və qəsəbələrarası | 15 km-dək (15 km daxil olmaqla) | 0,50 |
| | 15 km-dən 30 km-dək (30 km daxil olmaqla) | 0,60 |
| | 30 km-dən 40 km-dək (40 km daxil olmaqla) | 0,70 |
| | 40 km-dən 45 km-dək (45 km daxil olmaqla) | 0,80 |
| | 45 km-dən 50 km-dək (50 km daxil olmaqla) | 1,00 |
| | 50 km-dən yuxarı | 1,10 |

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri**
**Rəşad Nəbiyev**

## AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI
## QƏRAR

**№ 3-27/3-7-9/2024**

**Bakı şəhəri** **28 iyun 2024-cü il**

**Müntəzəm şəhərdaxili (rayondaxili) avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin təsdiq edilməsi haqqında**

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 sentyabr tarixli 767s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

**1.** Müntəzəm şəhərdaxili (rayondaxili) avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı həddi təsdiq edilsin (əlavə olunur).

**2.** Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3**. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri**
**Rəşad Nəbiyev**

## AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİNİN KOLLEGİYASI
## QƏRAR

**№ 3-27/3-7-10/2024/1**

**Bakı şəhəri** **28 iyun 2024-cü il**

**Metro nəqliyyatında sərnişindaşıma xidməti üzrə tarifin tənzimlənməsi barədə**

"Rəqəmsal inkişaf və nəqliyyat sahəsində tariflərin və xidmət haqlarının tənzimlənməsinin təkmilləşdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 sentyabr tarixli 2315 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 12 sentyabr tarixli 767s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndini və 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

**1.** Metro nəqliyyatında sərnişindaşıma xidmətinin tarifi bir gediş üzrə 50 qəpik təsdiq edilsin.

**2.** Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3.** Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri**
**Rəşad Nəbiyev**

# Ukrayna Rusiya ilə danışıqlara hazırdırmı?

**Ukrayna Prezidenti Volodimir Zelenski 2024-cü ilin sonuna qədər Rusiya ilə münaqişənin həlli üçün sülh planını təqdim edəcəyinə söz verib. Bundan sonra, onun sözlərinə görə, Rusiya ilə "taxıl müqaviləsi"nin bağlanması zamanı istifadə edilən sxemə bənzər vasitəçilər vasitəsilə danışıqlara başlana bilər. Moskva da əmin edib ki, Kiyevlə bu şəkildə dialoq aparmağın əleyhinə deyil və "istənilən ünsiyyətə" açıqdır.**



Ukrayna rəsmilərinin ritorikasına görə, Rusiya ilə sülh danışıqları artıq Kiyev üçün tabu deyil. Volodimir Zelenski iyunun 28-də bildirib ki, onun komandası növbəti "sülh sammiti" üçün münaqişənin həlli planının üç komponenti üzərində işləyir. Onun sözlərinə görə, prioritet iş sahələri enerji, ərzaq təhlükəsizliyi və hərbi əsirlərin mübadiləsidir. Cənab Zelenski sülh planının Ukrayna variantının 2024-cü ilin sonuna qədər hazır olacağına söz verib. "Əgər hər şey yalnız Ukraynadan asılı olsaydı, müharibə olmazdı", – deyə cənab Zelenski bildirib.

Ötən həftə sonu Volodimir Zelenski "The Philadelphia Inquirer"ə müsahibə verib və orada uzun müddət sonra ilk dəfə Rusiya ilə danışıqların mümkünlüyünü vurğulayıb. Xatırladaq ki, 2022-ci ilin payızında cənab Zelenski özünə Rusiya Federasiyasının rəhbəri Vladimir Putinlə dialoq aparmağı qadağan edən fərman imzalamışdı. Volodimir Zelenski hələ də Rusiya lideri ilə birbaşa təmasda olmağa hazır olmasa da, Moskva ilə dialoq artıq Kiyev üçün mümkünsüz görünmür. "Ukrayna müəyyən sənədlərə, addımlara və üsullara uyğun olaraq həll yolu tapılan model tapa bilər. Bu model ilk dəfə taxıl dəhlizi timsalında, Ukraynanın Rusiya ilə deyil, BMT və Türkiyə ilə danışıqlar apardığı zaman istifadə edilib. Onlar da öz növbəsində bizimlə danışıqlar aparmaq məsuliyyətini öz üzərlərinə götürmüşdülər və bundan sonra müvafiq saziş Rusiya tərəfindən imzalanmışdı", – deyə cənab Zelenski bildirib.

Ukrayna lideri açıq şəkildə deyib ki, onun sülh planı bir neçə istiqaməti əhatə edir və buna görə də planın bu və ya digər elementi üzərində işləyən üçüncü ölkələr Kiyevlə müəyyən bir sənədi razılaşdıra, sonra isə "Rusiya Federasiyasının nümayəndələri ilə məşğul ola bilərlər". "Hələlik bizdə yalnız bu model var",- deyə cənab Zelenski əlavə edib. Başqa sözlə, Volodimir Zelenski Rusiya ilə danışıqların vasitəçilər vasitəsilə başlanmasının mümkünlüyünü bildirib. O, həmçinin vurğulayıb ki, Kiyevin təkcə Avropa və Şimali Amerikada deyil, həm də Asiya, Afrika, Cənubi Amerika, eləcə də Sakit okean regionu da daxil olmaqla "bir çox qitələrdə" tərəfdaşları var. Onlardan biri də Rusiya ilə təmaslarda üçüncü tərəf kimi çıxış edə bilər.

Ukrayna liderinin sözlərinə Moskvanın reaksiyası özünü çox gözlətməyib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov iyulun 1-də bildirib ki, Rusiya Ukrayna ilə istənilən formatda dialoqa hazırdır. "Prezident Putin dəfələrlə deyib ki, Rusiya qarşımıza qoyduğumuz məqsədlərə çatmaq üçün istənilən ünsiyyətə, istənilən dialoqa açıqdır. Prezident bu açıqlığı qoruyur", - deyə cənab Peskov əmin edib.

Ancaq indiyədək Moskva və Kiyevin mövqeləri diametral şəkildə ziddiyyət təşkil edib. Ukrayna xüsusilə 1991-ci il sərhədləri üzərində nəzarətin qaytarılmasını nəzərdə tutan "sülh formulu"ndan başlayaraq münaqişənin həllində israr edirdi. Rusiyanın son təklif isə budur ki, Kiyev NATO-ya daxil olmaqdan imtina etməli və Zaporojye, Xerson, Donetsk və Luqansk bölgələrinin bütün ərazilərindən ordusunun çıxarmalıdır. "The Philadelphia Inquirer"ə müsahibəsində cənab Zelenski Kiyevin münaqişəni dayandırmağa hazır olduğu üç şərtin adını çəkib və onların arasında əvvəllər irəli sürülən əsas məqamlardan biri olmayıb. Onun sözlərinə görə, Ukraynanın qorunması, ölkənin NATO və Avropa İttifaqına daxil olması təmin edilməlidir. Cənab Zelenski 1991-ci il sərhədlərinə nəzarətin qaytarılmasının zəruriliyi barədə isə heç nə deməyib. Bir sıra ekspertlər Ukrayna prezidentinin sülh formulunun bu bəndini təsadüfən qeyd etmədiyini iddia edirlər: söhbət danışıqlar mövqeyinin tənzimlənməsindən və Ukrayna cəmiyyətinin dialoqa başlamaq üçün əvvəlki şərtlərdən birini yerinə yetirmədən Moskva ilə təmasa hazırlanmasından gedir.

Kiyevdə ABŞ-ın hazırkı prezidenti Co Bayden və Ağ Evin sabiq rəhbəri Donald Tramp arasında iyunun 27-də baş tutan debatdan sonra dinc nizamlanma haqqında söhbətlər intensivləşib. Debatda cənab Trampın qalib gəlməsindən sonra bir çox ekspertlər belə qənaətə gəliblər ki, cənab Baydenin ikinci müddətə yenidən seçilmək şansı kəskin şəkildə azalıb. D.Trampın isə münaqişəyə münasibəti məlumdur. Sabiq prezidentin planı cəbhə xəttində hərbi əməliyyatların dondurulmasını və Kiyevin Moskvanın hər hansı bir ərazini tanımasını tələb etmədən sülh danışıqlarına başlamağı nəzərdə tutur. Amma nə Donald Tramp, nə də onun müşavirləri rəsmi olaraq Ukraynaya "ərazilərin verilməsini" təklif edibər.

Bununla belə, Vladimir Zelenski "24 saat ərzində müharibəni necə bitirəcəyini" bilmədiyini deyib, lakin Donald Trampın təkliflərini dinləməyə hazır olduğunu açıqlayıb. Bundan əvvəl Moskva da "Tramp planını" birmənalı şəkildə rədd etmirdi. Əvəzində Dmitri Peskov deyib ki, "hər hansı bir planın dəyəri nüanslarda və yer üzündəki real vəziyyətin nəzərə alınmasındadır".

***S.ELAY***
***XQ***

"Bakı Yastıq Zavodu" ASC səhmdarlarının nəzərinə!

10 avqust 2024-cü il saat 18.00-da "Bakı Yastıq Zavodu" ASC səhmdarlarının ümumi yığıncağı cəmiyyətin inzibati binasında keçiriləcəkdir.
Gündəlikdəki məsələlər:
1. Təftiş komissiyasının hesabatı.
2. İdarə heyətinin hesabatı.
3. Direktorlar şurasının və sədrinin seçilməsi.
4.İdarə heyətinin və sədrinin seçilməsi.
5.Təftiş komissiyasının və sədrinin seçilməsi.
6.Digər məsələlər.
Telefon – 012-514-01-43.
Ünvan – AZ1031, Bakı şəhəri, Keşlə qəsəbəsi 31.

*İdarə heyəti*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki "Bibiheybət" GTZ-nin kompleks istehsalat sahəsində (gəmi istehsalat sahəsində) yerləşən 6 kV-luq 2860kva y/stansiyada qurğu və avadanlıqların quraşdırılması (mal-materialla birlikdə) xidmətinin satın alınması məqsədilə

AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il iyulun 11-i saat 17.00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177
Ünvan – AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

# Deyəsən, Avro-2024 avtoqollar turniri kimi tarixə düşəcək

## Növbəti avtoqol Fransanı, qolkiper Koşta Portuqaliyanı ¼ finala çıxardı

**Avro-2024-də futbol tamaşasından daha çox təsadüflər və sürprizlər diqqət çəkməyə başlayıb. 1/8 final mərhələsində biz artıq çempion İtaliyanın turniri biabırçı şəkildə tərk etməsini, həmçinin Cud Bellinqem sayəsində matçın bitməsinə 2 dəqiqə qalmış İngiltərənin möcüzəli dönüşünü gördük.**



Fransanın Belçika ilə qarşılaşması isə bu pley-offun ən yaxşı matçı olmalı idi. Rusiyada keçirilən dünya çempionatında bu komandalar yarımfinal mərhələsində qarşılaşmışdılar və həmin turnirin ən baxımlı oyunlarından birini təqdim etmişdilər. Lakin xoş futbol təəssüratı yaratmayan hesaba baxmayaraq, hər iki komandada dünya səviyyəli oyunçular olduğundan azarkeşlərin nəfəs kəsəcək məqamlar seyr edəcəyinə ümid böyük idi.

İlk dəqiqələrdən görünən isə bu idi ki, indi həm Fransa, həm də Belçika bir az "qocalıb" və zəifləyiblər. Amma müxtəlif dərəcələrdə. Fransızlar qapıçılarını dəyişmişdilər. Llorisin əvəzinə Maynyan çərçivəni qoruyurdu. Bu keyfiyyətə təsir etmədi. Upamekano və Salibanın simasında müdafiə istənilən vaxt qapıya təhlükəyə çevrilə bilərdi. Veteranlar Kante və Rabiot hələ də yarımmüdafiədə



yaxşı görünürdülər. Hücumda ən koloritli oyunçular olan və bir-birini əvəz edən Barkol, Dembele və Türam Mbappe ətrafında fırlanırlar. Nəhayət, indi də əla təsir bağışlayan və hər yerdə görünməyə macal tapan Qrizmann da var.

Belçikalıların tərkibinə gəldikdə, bu komanda son altı ildə daha çox "yaşlanıb". Tedesco, bəlkə də, Avropanın ən yaxşı qapıçısı Kurtuanı kənarda saxlayaraq, orta səviyyəli Kastellsə bel bağlayıb. Müdafiə də elə sabit deyil – "Leester"dən Fas və 37 yaşlı Vertonqen necə etibarlı ola bilər. De Breyne formadadır, lakin komandanın rəqib müdafiənin diqqətini yayındırması üçün daha Eden Hazar kimi virtuoz yoxdur.

Məşqçi Fransa ilə matç üçün Opendanı bəxtsiz Lukaku ilə hücuma göndərdi. Əslində bu, maraqlı gediş oldu. Amma istənilən halda belçikalıların 1/8-ə autsayder kimi çıxdıqları aydın görünürdü. Nizamlamaları yaxşı bilən Tedesko bu Avropa çempionatında ilk dəfə olaraq 4-4-2 müdafiə sistemini seçməsi də buna işarə idi. Belçikalılar ilk dəqiqələrdən təşəbbüsdən əl çəkəcəklərini, diqqətlərini zonaları əhatə etməyə və əks-hücumlara yönəldəcəklərini bildirmişdilər. Təbii ki, bu, meydan tamaşasına təsir etdi – fransızlar mənasız yerə meydanın mərkəzində boşluq axtarırdılar, lakin müdafiəçilərin inamla idarə etdiyi ötürmələr vasitəsilə topu cərimə meydançasına çatdırırdılar. Maraqlıdır ki, ilk təhlükəli anı məhz Belçika yaratdı: 24-cü dəqiqədə De Breyne cərimə zərbəsini yerinə yetirdi. Onun vurduğu top rəqib oyunçuya dəyib sıçrama sayəsində zərbəyə çevrildi. Meyan topu qapıçı üçün uyğun olmayan üslubda ayağı ilə qaytarmağa məcbur etdi. Ferreyra-Karrasko geri dönən topu ələ keçirib zərbə endirsə də, Teo Ernandes onu dəf edə bildi.

Fransızlar hücumlarının kəskinliyinin ilk işartılarını yalnız 1-ci hissənin sonunda göstərməyə başladılar. Əvvəlcə Türam başla təhlükəli zərbə vurdu, sonra Tçuameni iki dəfə qapını nişan aldı. Əvvəlcə Mbappenin parlaq ötürməsindən sonra qola yaxın oldu. İkinci cəhdi xüsusilə təhlükəli oldu. Lakin top hədəfə getməkdən sanki imtina etdi.

İkinci hissədə də fransızlar təzyiqi artırdılar. Didye Deşamın yetirmələri 85-ci dəqiqəyə qədər aramsız hücumları ilə "qırmızı şeytanlar"ın qapısına zərbələr endirdilər. 62-ci dəqiqədə PSJ-nin hücumçusu Randal Kolo Muani meydana daxil oldu və bu, Deşamın yeganə əvəzedicisi oldu. 85-ci dəqiqədə elə bu oyunçu Belçika millisinin qapısı qarşısında ələ keçirdiyi topu qapıya vurdu. Vertongen Kolo Muaninin zərbəsini dəf etmək üçün topu kəsdi. Əslində, Kolo Muaninin zərbəsi açıq-aydın uğursuz idi: top, yəqin ki, hədəfdən aralı keçəcəkdi və Yan isə fransızlar üçün çox uğurlu şəkildə onu qapıya yönəltdi. Qapıçı onu dəf etməkdə aciz idi, çünki o, topun istiqamətini dəyişəcəyini görə bilməzdi. Fransa 1:0 hesabı ilə qələbə qazanaraq ¼ finala vəsiqəni təmin etdi.

Vertongenin avtoqolu Deşamın komandasına çox kömək etdi. Fransızlar belçikalıların qapısına 20 zərbə endirsələr də, hədəfi cəmi iki dəfə vura bildilər. Müqayisə üçün qeyd edək ki, "qırmızı şeytanlar" da iki dəfə, ancaq beş cəhddə fərqləndilər. Ümumilikdə, üçrəngli "xoruzlar" Avropa çempionatında qapılara 66 zərbə vurublar, bunun cəmi 16-ı hədəfə vurulub. Vertongenin avtoqolu Fransanın turnirdə vurduğu üçüncü qol oldu: onların arasında oyundan vurulan bir dənə də olsun qol yoxdur. Qrup mərhələsinin ilk turunda üçrənglilərin qələbəsini müdafiəçi avstriyalı Maksimilian Veberin zərbəsi qazandırdı – Kilian Mbappenin sağ cinahdan qapı önünə zərbəsindən sonra qeyri-dəqiq baş zərbəsi endirdi və avtoqola imza atdı. Amma Polşa ilə növbəti oyunda (1:1) qol vurdular. Mbappe 56-cı dəqiqədə penaltini qola çevirdi. Kilianın özü üçün bu top onun Avropa çempionatındakı debütü oldu. Əvvəlki böyük turnirlərdə







fransızların bəxti gətirib. Fransa 5 Avropa və 6 dünya çempionatında öz xeyrinə avtoqollar vurmaq rekorduna sahibdir.

Fransızların növbəti fərqlənmək cəhdi iyulun 5-də 1/4 finalda baş tuta bilər. Bu turda onlar Portuqaliya millisi ilə qarşılaşacaqlar.

Qeyd: Yeri gəlmişkən, Belçikalı müdafiəçinin avtoqolu turnirin 9-cu qoludur. İndi son Avropa çempionatında qeydə alınan rekorda cəmi iki qol qalır.

Fransalı idman jurnalisti Aleks Klementson Fransa–Belçika matçını dəyərləndirərkən deyib : "Bu, Avropa futbolunun iki nəhəngi arasında tipik bir mübarizə idi. Gərgin, güzəştə yer olmayan və oyunun sonunda həll olunan qarşılaşma. Fransızlar Belçikanın müdafiəsini yarmaq üçün çox çalışmalı oldular, amma buna dəyərdi. Deşamın komandasında hələ də eyni oyun problemləri var, amma onlar irəliləyirlər. Bu komanda qələbəsiz yaşaya bilməz və həmişə lazım olan anda rəqibini sıxışdırmağı bacaracağına inamla yaşayır".

Belçika yığmasının baş məşqçisi Domeniko Tedesko məğlubiyyətin acısını belə bölüşür: "Final fitindən çox az vaxt keçib. Son məqamda avtoqol buraxdıq, indi nəyisə təhlil etmək çətindir. Yaxın bir neçə həftə ərzində turnirin nəticələrini təhlil edəcəyik. Kastels bu turnirdə parlaq oynadı. Lukakunun qolsuz evə getməsi isə... Bu kədərlidir".

Futbol azakeşləri də, mütəxəssislər də Sloveniya millisini autsayder, Ronaldo və komandasını bu pley-offun favoriti hesab edirdilər. Amma bu qarşılaşma Avro-2024 turnirinin qalibini penalti seriyasında müəyyənləşdirən ilk matçı oldu. Əsas və əlavə vaxt 0:0 hesablı bərabərliklə başa çatdı.

Doğrudur, Portuqaliya matça favorit kimi başladı. İlk dəqiqələrdə Rafael Leau və Ruben Diasa təhlükəli şanslar düşdü. Bir az sonra Kriştiano Ronaldo başı ilə Bernardo Silvanın qapı qarşısına göndərdiyi hava ötürməsinə çata bilmədi.

Amma vaxt keçdikcə Sloveniya özünə gəldi və topa sahibliyini yaxşılaşdırdı, lakin daha çox hücuma keçən yenə rəqib idi. Yan Oblak başı ilə Ronaldonun qol vurmasına mane oldu. Bir məqamda portuqaliyalı kapitan cərimə zərbəsi ilə az qala qol vuracaqdı: top dirəyin azca üstündən keçdi.

2-ci hissə Joao Kanselonun əla ötürməsi ilə başladı və Bernardo Silvanın sərfəli mövqedən çərçivənin üstündən vurduğu zərbə ilə başa çatdı. Daha sonra Ronaldo güclü cərimə zərbəsi vurdu, lakin Oblak yenidən slovakların köməyinə gəldi.

Slovenlərin əks-hücumdakı ən yaxşı anını Şeşko boşa verdi. Hücumçu sürəti ilə Pepeni üstələdi, lakin qapıçı ilə təkbətək qalanda qol imkanını dəyərləndirə bilməyib topu çərçivədən kənara vurdu.

Əsas vaxtın sonunda Oblak yenidən Ronaldonun qol vurmasına mane oldu, lakin qapıçı əsas nailiyyətinə əlavə vaxtda, 105-ci dəqiqədə sloveniyalı qapıçı Yan Oblak Səudiyyə Ərəbistanında "möhtəşəm qoleador" olan futbol ulduzu Ronaldonun zərbəsini dəf edib, onun haqqında bədgüman olanların haqlı olduğunu təsdiqlədi.

Bəli, Portuqaliya–Sloveniya matçı, ilk növbədə Ronaldo üçün dramatik oldu. Əlbəttə, Kriştiano aktiv idi, lakin faydasız idi. Matçın əsas məqamında isə o, faydasız olduğunu da sübut etdi - 105-ci dəqiqədə penaltini qaçırdı. Bundan sonra göz yaşlarına saxlaya bilməsə də, bu heç nəyi dəyişmirdi. Dünya mətbuatı Ronaldonun kobud səhvindən və göz yaşlarından danışıraq yazır: "Cristiano qəhrəman ola bilərdi, amma sonda üzr istəməli oldu".

Ən çox narazı olan peşəkarlardan biri "Çelsi"nin keçmiş müdafiəçisi Con Terri olub. O, efirdəki yazının fotosunu çəkib sosial şəbəkələrdə yerləşdirərək "Ayıb olsun!" imzasını atıb. Bu, təəccüblü deyil, çünki Terri hücum səhvlərinin nə olduğunu bilir. 16 il əvvəl, 2008-ci ildə "Çelsi"nin müdafiəçisi Moskvada Çempionlar Liqasının finalında "Real" klubu ilə penalti seriyasında həlledici penaltini qaçırmışdı. Yeri gəlmişkən, Terri onda Ronaldoya qarşı oynayırdı. Kriştiano da bu seriyada qol vurmamışdı.

Qalib 11 metrlik zərbələr seriyası ilə müəyyən edilməli idi. Burada əsas rolları penaltiləri dəf etməkdə mütəxəssis adlandırılası qapıçılar oynadılar. Oyunsonrası seriyanı nəzərə almasaq, Oblak karyerası ərzində 66 zərbədən 16-nı, o cümlədən Ronaldonun bu görüşdəki zərbəsini dəf edib. Portuqaliyalı qapıçı Dioqo Koşta isə bir qədər yaxşı nəticəyə malikdir – 39 zərbədən 10-unu dəf edə bilib.

Birinci vurmaq şansı slovenlərin bəxtinə düşdü, lakin Yosip İliçiç zərbəni qola çevirə bilmədi – Kosta ona sevinc yaşatmadı. Kriştianu Ronaldo bu dəfə hədəfi dəqiq seçib qol vurdu. Ardınca portuqaliyalı qapıçı yenidən komandanı xilas etdi - Jure Balkovets onu aldada bilmədi. Bruno Fernandes hesabı 2:0 etdi, sonra qolkiper Kosta yenidən parladı – Benjamin Verbiç onunla dueldə uduzdu. Bernardo Silvanın zərbəsi portuqaliyalılara uğur gətirdi, Oblak bu penalti seriyasında heç nə edə bilmədi. Portuqaliya penaltilər seriyasında futbol tarixində nadir 3:0 hesabı ilə qalib gəlib ¼ finala vəsiqəni təmin etdi.

Bəli, Portuqaliyanın bu qələbəsini təkcə sloveniyalıların səhvləri ilə bağlamaq doğru olmazdı. Əslində Portuqaliya millisinin qapıçısı Kostanın bu qələbədə payı daha çox oldu. Kosta tarix yazdı: ondan əvvəl Avropa çempionatında heç kim eyni vaxtda üç penaltini dəf etməyib. Bundan əlavə, qitə miqyaslı turnirlərdə heç vaxt qapıçı 120 dəqiqə oynayıb, qol buraxmadan penaltilər seriyası keçirməyib.

Dieqo haqlı olaraq matçın ən yaxşı oyunçusu mükafatını aldı, çünki o, əlavə vaxtda da parladı: 115-ci dəqiqədə Portuqaliyalı qapıçı Benjamin Şeşkonun onunla təkbətək fürsətini qola çevirməyə imkan vermədi. Həmin an hesab 1:0 Sloveniyanın xeyrinə ola bilərdi və Portuqaliyanın cavab qoluna, demək olar ki, vaxtı qalmırdı.

Kosta bütün karyerasını "əjdahalar"ın rənglərini müdafiə etməyə sərf edən 24 yaşlı Porto məzunudur. O, Portuqaliya millisində 26 oyun keçirib və bu, Dioqonun ikinci böyük turniridir. 2022-ci ildə Qətərdə keçirilən dünya çempionatında onun komandası bilavasitə qapıçı səhvinə görə mübarizədən kənarlaşdırılmışdı: Mərakeşlə 1/4 final matçının 42-ci dəqiqəsində Kosta topa tullanmaqda gecikdi və Yussif En-Nəsirinin qol vurmasına imkan verdi. Bu qol oyunda yeganə olaraq qaldı və Portuqaliya sensasiyalı şəkildə məğlub oldu. Bu dəfə Kosta fenomenal oynu ilə millinin və millətinin qəhrəmanı oldu.

***

Dünən Avropa çempionatının ¼ final mərhələsinə son 2 vəsiqə uğrunda Rumıniya-Hollandiya və Türkiyə-Avstriya matçları keçirilib. Təbii ki, Azərbaycan ictimaiyyəti və futbol azarkeşləri Rumıniya–Hollandiya oyunundan daha çox Türkiyə ilə Avstriya arasında keçirilən matçı izlədilər. Amma Rumıniya ilə Hollandiya arasındakı oyun da çox gərgin mübarizə şəraitində keçdi və bir çox maraqlı anlarla yadda qaldı.

Qarşılaşmadan əvvəl Hollandiya millisinin baş məşqçisi Ronald Kuman mətbuata açıqlamasında bildirmişdi ki, onun komandası üçün əsas məsələ yaxşı oynayıb qalib gəlməkdir. Əslində, bu matçda statistika Kumanın komandasının lehinə idi. Milli komandalar bu görüşədək öz aralarında 13 oyunda qarşılaşıblar. Əlbəttə, hollandlar bu qarşılaşmaların 9-da qalib gəliblər, Rumıniya isə cəmi bir matçda qalib olub. Qalan 3 görüş heç-heçə nəticələnib. Ümumi hesab da 23:3 hollandların xeyrinə olub.

Münhendə keçirilən qarşılaşmada da Kumanın yetirmələri favorit hesab olunurdular, lakin rumınları da qiymətləndirməmək doğru olmazdı. Diskvalifikasiyaya görə rumınların əsas sol cinah müdafiəçisi Nikuşor Banka komandasına kömək edə bilmirdi. Hollandiya millisində isə cəzalı oyunçu yox idi.

Oyun yavaş templə başladı. Hollandiya ilk dəqiqələrdən topa nəzarəti ələ aldı, lakin irəli getmədi. İordaneskunun yetirmələrinin yüksək pressinq göstərməyə çalışdıqlarını alqışlamağa dəyərdi. Rumınlar hətta ilk fürsətdə müdafiədən hücuma keçməyə çalışdılar. Tədricən Rumıniya millisinin futbolçuları təşəbbüsü ələ alaraq hücum oyunu oynamağa başladılar. Man cərimə meydançasının kənarından hollandların qapısına təhlükəli zərbə endirsə də hədəfi vura bilmədi.

Hər iki komandanın oyununda qarışıqlıq çox olsa da, bütövlükdə, matçı darıxdırıcı adlandırmaq olmazdı. Hollandiya 20-ci dəqiqədə hesabda önə keçdi. Kodi Qakpo cinahdan cərimə meydançasına daxil oldu və yaxın küncə güclü zərbə endirdi – 0:1. Açığını desək, Nitsa bu məqamda düzgün mövqe seçməmişdi. Belə məqamlarda yaxın künc zərbəsinə qapıçı cavabdehdir. Bu qol Kumanın yetirmələrinə öz potensiallarına və ustalıqlarına inam verdi və onlar üstünlüklərini artıra bildilər. Buraxılan qoldan sonra Rumıniya millisinin oyun düzəni pozuldu və onlar özlərinə gələ bilmədilər. Hollandiya təşəbbüsü tam ələ alsa da fasiləyə qədər ikinci qolu vura bilmədi.

Hollandiya millisinin futbolçuları fasilədən sonra daha inamlı oynayırdılar. İordaneskunun oyunçuları inanılmaz dərəcədə şanslı idilər. 58-ci dəqiqədə künc zərbəsindən sonra Van Deyk dirəyə zərbə endirdi. 64-cü dəqiqədə Qakpo topu tora göndərsə də, VAR qolu oyundankənar vəziyyətə görə qəbul etmədi. Lakin 83-cü dəqiqədə qaliblə bağlı bütün suallara aydınlıq gəldi. Qakpo ötürmə etdi, Malen isə topu boş qapıya vurdu – 0:2. Elə həmin Malen matçın əsas vaxtında son nöqtəni qoyub hesabı 0:3-ə çatdırdı. Beləcə, ¼ finalın daha bir komandası bəlli oldu.

*Səhifəni hazırladı:*
***İlqar RÜSTƏMOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 136 (30540) 3 iyul 2024-cü il, çərşənbə

## Arda meydanda olanda fərqi hiss edirsən



Türkiyə millisinin baş məşqçisi Montella UEFA-nın mətbuat xidmətinə komandasının və "Real" Madrid klubunun istedadlı gənc ulduzu Arda Gülər haqqında açıqlamasında deyib: "Əgər kifayət qədər yaxşısansa, o zaman artıq böyümüsən. Arda çox istedadlı oyunçudur. Onun təkmilləşdirməli olduğu sahələr var, amma onun oynamasına mane olmaq düzgün deyil. O, meydanda olanda fərqi hiss edirsən. Onun kimi futbolçu yoxdur".

## Qoca Buffon millini tərk edə bilər



İtaliya millisinin nümayəndə heyətinin rəhbəri, "Yuventus"un və PSJ-nin sabiq qapıçısı Canluici Buffon 2024-cü il Avropa çempionatındakı uğursuzluqdan sonra millini tərk edə bilər. "Football Italia"nin məlumatına görə, Buffon İtaliya Futbol Federasiyasının rəhbəri ilə görüşərək, millidəki gələcəyini müzakirə edəcək. Bundan sonra Canluicinin postunu tərk etməsi mümkündür.

## "Avro"nun ən pis oyunçuları: Ronaldo, Lukako, Mbappe



"WhoScored"un məlumatına görə, portuqaliyalı hücumçu Kriştiano Ronaldo, belçikalı hücumçu Romelu Lukaku və fransalı forvard Kilian Mbappe 2024-cü il Avropa çempionatında gözlənilən qollara görə ən pis oyunçular sırasındadır.

## Gürcüstan Futbol Federasiyası cərimələnib

UEFA 2024-cü il Avropa çempionatının qrup mərhələsinin oyunlarının nəticələrinə əsasən, Gürcüstan Futbol Federasiyasını 46 min avro cərimələyib. Məlumatı qurumun mətbuat xidməti yayıb.

Avro-2024-ün 1-ci turunun Türkiyə millisi ilə oyununun (1:3) nəticələrinə görə, gürcü tərəfi pirotexniki vasitələrdən istifadə və kütləvi iğtişaşlar törətdiyinə görə 36,25 min avro cərimələnib. UEFA 3-cü turda Portuqaliya ilə görüşdən sonra azarkeşlərin meydançaya qaçaraq pirotexniki vasitələrdən istifadə etməsinə görə isə Gürcüstanı 9,75 min avro cərimələyib. Cərimənin ümumi məbləği 46 min avro olub.

HAVA

## Aranda yağmursuz, dağlarda yağış

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 3-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən, yağmursuz keçəcək. Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək.**

Gecə 20-24°, gündüz 28-33° isti olacaq.Atmosfer təzyiqi 754 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında əsasən dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Maülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24° isti, gündüz 29-34° isti, dağlarda gecə 8-13° isti, gündüz 13-18° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

✓ ***"Azəristiliktəchizat" ASC-yə məxsus yük avtomobillərinin İBA seriyalı, 056002 və 055970 nömrəli yol vərəqələri itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Əli Babaşova anası

**NƏRGİZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2648
SİFARİŞ 1412
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00